AZƏRBAYCAN RESPUBLIKASI TƏHSIL NAZIRLIYI

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ

SUMQAYIT DÖVLƏT TEXNIKI KOLLECI

"PUL VƏ BANKLAR"

fənnindən mühazirələr

Orta Ixtisas Təhsil müəssisələrində
fənnin tədrisi üçün nəzərdə tutulub

SUMQAYIT-2020

Movzu 1

Pulun yaranması, mahiyyəti, funksiyaları və rolu

1. Pulun meydana gəlməsi və zəruriliyi

2. Pulun mahiyyəti və funksiyaları

3. Pulun növləri və formaları

1. Pulun meydana gəlməsi və zəruriliyi. Pul bəşər cəmiyyətinin ən böyük ixtiralarından biri olmaqla iqtisadi həyatın əsas fenomenidir, müasir iqtisadiyyatın ən mühüm atributlarından biridir. Pul müasir təsərrüfatda və insan həyatında iqtisadi münasibətlərin formalaşması və inkişafı üçün zəmin yaradır.

Pulun yaranması haqqında məsələ ilə bağlı iqtisadi ədəbiyyatda əsas 2 konsepsiya: rasional və təkamül konsepsiyaları mövcuddur. Rasional konsepsiya pulun meydana gəlməsini insanlar arasında razılaşmanın nəticəsi kimi izah edir. İnsanlar yəqin etmişlər ki, mübadilə dövriyyəsində dəyərlərin bir yerdən başqa yerə hərəkəti üçün xüsusi alətlər lazımdır. Bu konsepsiyanı ilk dəfə xatırladan Aristotel olmuşdur.

Pulun meydana gəlməsi məsələsinə subyektiv-psixoloji yanaşma müasir qərb ölkələri iqtisadçılarının əksəriyyətinin baxışlarında da rast gəlinir. Guya pul insanlar arasında şüurlu surətdə razılaşdırılan məhsuldur. Bu şərti ölçü vahidi vasitəsilə mübadilə dövriyyəsində dəyərin bir yerdən başqa yerə hərəkəti baş verir.

Pulun meydana gəlməsinin II, təkamül konsepsiyası sübut edir ki, pul insanların iradəsindən asılı olmayaraq mübadilənin uzun müddət tarixi inkişafı, əmtəə aləmindən dəyərin ümumi ifadəçisi, ümumi ekvivalent rolunu oynayan xüsusi əmtəənin kortəbii ayrılması nəticəsində meydana gəlmişdir. Bu konsepsiyanın ardıcıl davamçısı K.Marks olmuşdur. O, “Kapital”da pulun meydana gəlməsini istehsal münasibətlərinin müəyyən formasının obyektiv kortəbii inkişafı prosesi ilə inandırıcı surətdə izah edir. Pul nəzəriyyəsinin inkişafında onun tarixi xidməti ondan ibarətdir ki, o, pulun əmtəə mənşəli olmasını sübut etdi.

Beləliklə, pul, mübadilənin tarixi inkişafı prosesində kortəbii surətdə meydana gəlmişdir. Pul əmtəə aləmindən ayrılmış və ümumi ekvivalent rolunu (oynayan) yerinə yetirən əmtəənin xüsusi bir növüdür.

Pulun meydana gəlməsilə əmtəələrin bütün qiymətləri eyni ifadəni alır, müqayisə edilən olur.

Pulun meydana gəlməsinin elmi (izahı) təhlili məqsədilə müasir nəzəriyyə ondan irəli gəlir ki, cəmiyyətin təsərrüfat sisteminin inkişafında 2 mərhələ: barter iqtisadiyyatı və pul iqtisadiyyatı mövcuddur. Barter iqtisadiyyatı birbaşa əmtəə mübadiləsinin həyata keçirilməsi ilə xarakterizə edilir, bir faydalı şey bilavasitə başqa əhəmiyyətlisinə mübadilə olunur, natural mübadiləyə əsaslanan iqtisadi sistem pulun vasitəçiliyi olmadan fəaliyyət göstərir. Lakin barter iqtisadiyyatında ticarət baha başa gəlir. Mübadilə nisbəti mübadilə aparan tərəflər tərəfindən müəyyən edilir və müqavilədə təsbit edilir. Barter pul tədavülünün alternatividir. Lakin pul tədavülünün üstünlüyü açıq-aşkar görünür. O, barterdən fərqli olaraq daha az vaxt və gərginlik tələb edir.

2. Pulun mahiyyəti və funksiyaları. Pulun mahiyyəti onun yerinə yetirdiyi funksiyalarda bilavasitə təzahür edir. Pulun mahiyyəti ondan ibarətdir ki, o spesifik əmtəə növüdür, ümumi ekvivalentdir. Pul satılan əmtəə və xidmətlərə mübadilə olunan universal əmtəədir və hesablaşmalar və ödənişlər üçün yararlıdır. Pulun mahiyyəti öz konkret ifadəsini müxtəlif növ ictimai münasibətlərin həyata keçirilməsində, məcmu milli məhsulun bölüşdürülməsində, əmtəənin qiymətlərinin müəyyən edilməsində tapır.

İnkişaf etmiş əmtəə təsərrüfatında ölkələrin daxili iqtisadi dövriyyəsində pul dəyər ölçüsü, tədavül vasitəsi, tədiyyə vasitəsi, yığım və əmanət vasitəsi funksiyalarını yerinə yetirir. Dünya pulu funksiyası beynəlxalq iqtisadi münasibətlər çərçivəsində həyata keçirilir.

<u>Dəyər ölçüsü funksiyası.</u> Ümumi ekvivalent olan pulun vasitəsilə bütün əmtəələrin dəyəri müəyyən miqdar pula bərabər tutulmaqla ölçülür, pulda ümumi ifadəsini tapır. Pul əmtəələrdə cəmləşmiş əməyin kəmiyyət və keyfiyyətini ümumi ölçü ilə ifadə etməyə şərait yaradır. Əmtəənin dəyərinin təzahür forması əmtəənin

qiymətidir. Qiymət əmtəənin istehsalı və satışına sərf olunan ictimai zəruri əmək məsrəfləri ilə müəyyən edilir. Qiymətlərin və onların hərəkəti əsasını Dəyər qanunu təşkil edir. Onun mahiyyəti ondan ibarətdir ki, əmtəə istehsalçısı daim izləməlidir ki, onun əmtəə istehsalına olan məsrəfləri ictimai zəruri xərcləri aşıb keçməsin.

Pulun tədavül vasitəsi funksiyası. Tədavül (mübadilə) vasitəsi keyfiyyətində pul əmtəə dövriyyəsinə xidmət edir, yəni malların alqı-satqı aktlarında vasitəçi rolunda çıxış edir. Pulun tədavül vasitəsi funksiyasının xüsusiyyəti hər şeydən əvvəl ondan ibarətdir ki, bu funksiyanı həmişə real, mövcud olan və ya nağd pullar, müasir təsərrüfatçılıq şəraitində dəyər nişanları, yəni tam qiymətli olmayan – kağız və kredit pullar yerinə yetirir. Tədavül vasitəsi funksiyasında pul əmtəələrin tədavülü prosesinin passiv vasitəçisi deyil, onların istehsalçıdan istehlakçıya hərəkətinin sürətləndirilməsinin və ticarətdə tədavül xərcləri üzərində nəzarətin həyata keçirilməsinin aktiv alətidir. Bu funksiyanın rolu öz ifadəsini məhsulların çeşidi və keyfiyyətinin yaxşılaşdırılması üçün əhali tərəfindən ticarət təşkilatları qarşısında qoyduğu tələblərdə tapır. Bu funksiyanın köməyilə istehlakçı mal dövriyyəsinə, onun vasitəsilə istehsala, ölkənin rayonları və ticarət müəssisələri üzrə mal kütlələrinin düzgün yerləşməsinə fəal təsir göstərir. Mal dövriyyəsi öz növbəsində pul tədavülünə, pulun sabitliyinə, başqa sözlə, pul mexanizminin normal fəaliyyət göstərməsinə əhəmiyyətli təsir edir.

Pulun tədiyyə vasitəsi funksiyası. Bu funksiya kredit münasibətlərinin inkişafı ilə əlaqədar meydana gəlmişdir. Pulun hərəkəti tədavül edən əmtəə və xidmətlərin hərəkəti ilə eyni bir vaxta düşməyə də bilər. Belə olduqda pul dəyərin sərbəst forması kimi çıxış etmiş olur. Məlumdur ki, müəyyən səbəblərdən əmtəələr heç də həmişə nağd pula satıla bilmir. Bu onunla bağlıdır ki, müxtəlif əmtəələrin istehsalı və tədavülü dövrü eyni deyildir, bir sıra əmtəələrin istehsalı və satışı mövsümi xarakter daşıyır. Bu da təsərrüfat subyektlərinin əlavə pul vəsaitlərinə ehtiyacını yaradır. Belə olduğu halda əmtəələrin alqı-satqısının xüsusi forması – kreditə satışı zərurəti yaranmış olur. Kreditə əmtəə alındıqda onun dəyəri, bir qayda olaraq, alıcı tərəfindən həmin vaxt pulla ödənilmir. Əmtəəni kreditə satın alaraq borclu satıcıya

veksel verir. Möhlətlə satılan əmtəənin haqqı müəyyən olunmuş vaxt gəlib çatdıqda alıcı tərəfindən ödənilir. Bu halda borc öhdəliyinin ödəniş aləti olan pul tədiyyə vasitəsi funksiyasını yerinə yetirir.

Pulun yığım və ya əmanət funksiyası. Yığım və əhalinin əmanətləri vasitəsi kimi çıxış edən pul ictimai yığımın təmsilçisi olur. Bu funksiyanı yerinə yetirmək üçün pul öz dəyərini heç olmasa müəyyən dövr ərzində saxlamalıdır. Sərvətin ümumi təcəssümçüsü kimi çıxış edən pul cəmiyyətdə onun yığılmasına və saxlanılmasına olan meyli meydana gətirir. Pul olduqda onu verib hər cür istənilən əmtəəni əldə etmək olar.

Dünya pulu funksiyası. Dünya pulu funksiyasını yerinə yetirən pul: a) ümumi alqı vasitəsi, b) beynəlmiləl tədiyyə vasitəsi, c) ölkənin ticarət və tədiyyə balansının uçotu vasitəsi, d) ictimai sərvətin ümumi qloballaşması vasitəsi kimi fəaliyyət göstərir. Dünya pulu funksiyasında puldan malların idxal və ixracı, həmçinin kredit və digər qeyri-əmtəə əməliyyatları üzrə pul hesablaşmalarının faydalılığının müəyyən edilməsi üçün istifadə edilir.

3. Pulun növləri və formaları. Pulun çox müxtəlif növləri vardır. Onlar pul materialının tipi, tədavül etmə üsulu, istifadə edilməsi, pul kütləsinin uçotu, pulun hansısa növlərinin digərlərinə çevrilməsi imkanlığı ilə fərqlənir. Pulun əsas 3 növünü: əmtəə pullarını, tamqiymətli pulları, qızıla xırdalanmayan (tamqiymətli olmayan) pulları fərqləndirirlər. Pulun növləri çərçivəsində pulun formalarını ayırırlar. Pulun müəyyən növünün xarici ifadəsi (real şəkil alması) pulun forması adlanır. Belə ki, məsələn, müasir kredit pullarının xarici ifadəsinin bir neçə formaları mövcuddur. Bunlara aiddir: kağız pullar, depozit pullar, elektron pullar. Nəhayət, hər bir müasir pul forması çərçivəsində konkret alqının aparılmasına xidmət edən bir neçə ödəniş alətlərini ayırmaq olar. Məsələn, depozit pullar özünə vekselləri, çekləri, plastik kartları və s. aid edir.


Pulun növləri
Həqiqi pullar
Həqiqi pulların nümayəndələri (dəyər nişanları)
Metal pullar
Dəyərin metal nişanları (silinmiş qızıl sikkələr)
Kağız pullar
Kredit pulları
Veksel
Banknot
Çek
Elektron pullar
Ödəniş kartları


Müasir pulların təsnifatı
Nağd pullar
Nağdsız pullar
Banknotlar
Sikkələr
Müddətli əmanətlər
Tələb olunana-dək əmanətlər və depozitlər
Kredit pulları
Kvazi pullar – passiv pullar (istiqrazlar, veksellər, bank sertifikatları)
Çeklər
Kredit kartları

Kağız pullar uzun proses gedişatında meydana gəlmişdir. Kağız pulların iqtisadi təbiəti onunla səciyyələnir ki, əvvəla, belə pulların buraxılışı dövriyyənin pula olan tələbatı ilə öz-özünə tənzimlənir, ikincisi tədavüldən tələbatdan artıq kağız pulların geri götürülməsinin avtomatik mexanizmi fəaliyyət göstərmir. Kağız pullara xas olan qüsurlar kredit pullarının tətbiqi ilə əhəmiyyətli dərəcədə aradan qaldırılır. Müasir şəraitdə əmtəə-pul münasibətlərinin inkişafı ilə kredit pullarının mahiyyəti əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalır. Belə ki, bazar iqtisadiyyatı şəraitində kredit pulları bazarda pul kapitalı münasibətlərini ifadə edir. Kredit pulları sonrakı inkişaf yolu keçmişlər: veksel, banknot, çek, elektron pullar, kredit kartları. XX əsrin II yarısı ərzində inkişaf etmiş ölkələrdə tədiyyə vasitəsi kimi kağız pulların əhəmiyyəti durmadan aşağı düşmüşdür. Bu, tədiyyə dövriyyəsində nağd pulların depozit pullarla əvəz olunması ilə əlaqədar idi.

Depozit pullar sistemində xüsusi yeri veksellər tutur, hansılar ki, kredit pullarına aid edilir. Veksel malların möhlətlə (kreditə) alqı-satqısında orada göstərilmiş müəyyən pul məbləğinin əvvəlcədən razılaşdırılmış müddətdə və müəyyən olunmuş yerdə ödənişi barədə borclunun yazılı şərtsiz borc öhdəliyi yaxud kreditorun borcluya əmridir. Veksellərin növləri:

- Sadə veksel – borclu tərəfindən verilir, borclunun (veksel verənin), müəyyən məbləğin göstərilən vaxtda ödənişi barədə yazdığı və imza etdiyi yazılı rəsmi borc təəhhüdüdür.
- Ötürücü veksel (tratta) – kreditor tərəfindən yazılır və ona qaytarılmaq şərti ilə borcluya imza üçün göndərilir. Bu sənəd bir şəxsin başqa bir şəxsə yazılı qəti əmridir, hansı ki, təqdim edilərkən və təyin edilmiş vaxtda təqdim edənə və ya sənəddə göstərilmiş şəxsə müəyyən edilmiş məbləğdə pul verilir. Həmin veksel borclu tərəfindən deyil, kreditor tərəfindən təsis və imza edilir və kreditorun (trassantın) borcluya (trassata), III şəxsə (remitentə) göstərlmiş vaxtda, tələb olunan müəyyən məbləğin ödənilməsi üçün verilən əmridir.

Vekselin arxa üzündə xüsusi təslim aktı (indossament) yazılır.

Çeklər nağd pullarla müqayisədə 2 əsas üstünlüyə malikdir. Birincisi çeki istənilən məbləğə yazmaq olar. İkincisi çeklərlə işləmək daha rahat və əlverişlidir, itdikdə isə onları bərpa etmək olar. Çeklərin növləri:

- adsız çek
- adlı
- orderli
- hesablaşma çekləri
- aksept olunmuş çeklər

İstiqraz qiymətli kağız olub, onun emitentinə pul vəsaitlərinin müəyyən müddətə verilməsini təsdiqləyən və onları hansısa bir gəlir əldə etməklə geri götürmək hüququ verən sənəddir.

Movzu 2

Pul və pul siyasəti haqqında nəzəriyyələr

1. Pulun mahiyyəti və təkamülü haqqında nəzəriyyələr

2. Pul haqqında iqtisadçı alimlərin nəzəri fikirlərinin təhlili

1. Pulun mahiyyəti və təkamülü haqqında nəzəriyyələr. Pulun təbiəti haqqında bir neçə nəzəriyyə mövcuddur. Onları şərti olaraq "əmtəə" və "qeyri-əmtəə" konsepsiyalarına bölmək olar.

Pulun nominalist nəzəriyyəsi. Bu nəzəriyyəyə görə pul öz təbiəti baxımından daxili dəyərə malik olmayan "şərti hesab vahidi olan sadə nişanlar kimi müəyyən olunur. Buna əsaslanaraq belə nəticəyə gəlmək olar ki, pulun alıcılıq qabiliyyəti sanki, onun maddi məzmunundan qətiyyən asılı deyil və yalnız onun nominalı ilə müəyyən olunur. Konsepsiyanın adı məhz buradan götürülmüşdür. Bu nəzəriyyəyə görə pulun dəyərinin pulların çəkisinə görə deyil, üzərində göstərilən nominalına görə qəbul olunması nominalist nəzəriyyənin əsasını təşkil edir.

Metal pul nəzəriyyəsi. Bu nəzəriyyə nominalizm nəzəriyyəsinə tam ziddir. Onun əsas tezisi pulun və qiymətli metalların faktiki olaraq eyniləşdirilməsindən ibarətdir. Metalizm nəzəriyyəsində müəyyən oyanış və neometallizm konsepsiyasının yaradılması 1950-ci illərin ortalarına təsadüf edir. İnkişaf etmiş ölkələrdə müasir dövrdə metal pul nəzəriyyəsi praktiki olaraq tətbiq olunmur. Onun reallaşması ölkənin pul sistemini qızıl istehsalından asılı vəziyyətə salardı.

Pulun miqdar nəzəriyyəsi. Bu nəzəriyyə pulun yeganə keyfiyyətinin (yəni, alıcılıq qabiliyyətinin) onun miqdarında cəmlənməsi təsəvvürləri ilə bağlıdır. Bu nəzəriyyə bu günümüzdə də öz populyarlığınl qoruyub saxlayır. Bu nəzəriyyəyə görə əmtəələrin nisbi dəyəri, pulun alıcılıq qabiliyyəti və onun dəyişmə səbəbləri ilə bağlı bütün suallara cavab verməyə çalışır. Bu konsepsiyanı Monteskyo, Yum, D.Rikardo, Fişer, Keyns, Pipo işləyib hazırlamışdır. Onların fikirlərinə görə pul vahidinin dəyəri və məhsulların qiymət səviyyəsi tədavüldə olan pulların miqdarı ilə müəyyən olunur. Tədavüldə pul nə qədər çoxdursa, qiymətlər də bir o qədər

yüksəkdir və əksinə. Bu nəzəriyyəyə görə əmtəələrin nisbi dəyəri pulun alıcılıq qabiliyyəti və onun dəyişmə səbəbləri ilə bağlı bütün suallara cavab verməyə çalışır.

Pulun funksiyalarının transformasiyası nəzəriyyəsi. Müasir pulların forma və növlərinin təhlili göstərir ki, pul sistemlərinin fəaliyyəti onun ictimaiyyət tərəfindən qəbul edilməsinə söykənir və yalnız obyektiv iqtisadi qanunlarla deyil, eyni zamanda cəmiyyət tərəfindən yaradılan hüquqi qanunlarla da idarə edilir. Bir əmtəənin qiyməti qızılın dəyəri ilə deyil, məcmu əmtəə kütləsi ilə tutuşdurulur. Beləliklə, pulun bu cür formalaşmış dəyər ölçüsü konsepsiyası müasir iqtisadiyyatda meydana gələn yeni məqamları istisna etmir. Bütövlükdə pulun funksiyalarının transformasiyası nəzəriyyələri milli pul sistemlərində baş verən cari dəyişiklikləri əks etdirir.

"Neytral pul" nəzəriyyəsi. Bu nəzəriyyəyə görə puldan yığım vasitəsi kimi istifadə olunması, onun borc kapitalına çevrilməsi iqtisadi böhranlara səbəb olur. Nəzəriyyəyə görə hökumət pul yığımının baş verməməsi və borc faizinin minimuma endirilməsi üçün bütün tədbirləri görməlidir. Yalnız o halda investisiya qoyuluşunun və istehlak tələbinin artması və demokratik cəmiyyətin çiçəklənməsi mümkündür.

"Xüsusi pullar" nəzəriyyəsi. Bu nəzəriyyənin özəyini belə bir müddəa təşkil edir ki, pul-dövlət hakimiyyətinin məhsuludur. Bu zaman dövlət ilk öncə, pulu yaradır, ikincisi onun alıcılıq qabiliyyətini müəyyən edir. Bu cür yanaşmanın əksinə olaraq milli xüsusiyyətlərini itirmiş pul sistemləri nəzəriyyəsi və liberalizm və azad rəqabət prinsipləri əsasında xüsusi pulların yaradılması ideyası irəli sürüldü. Xüsusi pullar nəzəriyyəsinin ilkin yaradıcıları sırasına alman iqtisadçısı Qezel və amerikalı iqtisadçı Rigel aid edilir. Belə ki, Rigel "Xüsusi müəssisələrin pulları: neopolitik pul sistemi" kitabında pul emissiyasını xalqın əlinə verməyi irəli sürür.

2. Pul haqqında iqtisadçı alimlərin nəzəri fikirlərinin təhlili. Klassik iqtisadçı alimlər dedikdə, A.Smit, D.Rikardo, Robert Maltus, Jan Baptist Sey, Con Stüart Mill kimi alimlər yada düşür.

A.Smit (1723-1790). O, ölkə daxilində, ölkələr arasında sərbəst mal hərəkətini prinsip olaraq müdafiə etmiş, bunu beynəlxalq xarici ticarətin əsas

prinsipi olaraq qəbul etmişdir. A.Smit kağız pulun qızıl və gümüş, yəni metal pul qarşılığı çıxarılmasını kağız pulun hər zaman qızıla çevrilməsi önəmliyinin qorunmasını istəmişdir. Smitə görə, kağız pulun metal puldan daha çox çıxarılması durumunda qiymətlər yüksələcək, tədiyyə balansı pozulacaq və ölkədən qızılın çıxması üçün şərtlər ortaya çıxacaqdır.

David Rikardo (1772-1823). Rikardo pul kütləsi mövzusunda 2 nəzəriyyə irəli sürmüşdür: kağız pulun qızıla çevrildiyi ölkələr və kağız pulun qızıla çevrilmədiyi ölkələr. Rikardo xarici ödəmələrdə qızıldan istifadə etmənin zəruriliyini qəbul etmişdir. Rikardo dövlətin və ya bankın kağız pul çıxarma müstəqilliyindən sui-istifadə etməməsi gərəkliyini irəli sürərək, nə dövlət, nə də bank pul çıxarma mövzusunda limitsiz gücə sahib deyildir deyə ifadə etmişdir. Rikardoya görə bütün dövlətlərdə kağız pul emissiyası nəzarət altında olmalıdır. Rikardo dövlətin ehtiyacından çox pul buraxmasının nəticəsində qiymətlərin yüksəlməsinə səbəb olacağını qəbul etmişdir.

Baptist Sey (1767-1832) Sey bazar qanunun kəşfi ilə tanınmışdır. Bu qanun – istehsal edilən bir malın dəyəri qədər bazarda pul tələbi olduğunu ifadə etməkdədir. İstehsalçının ən böyük arzusu istehsal etdiyi malı satmaqdır. İstehsalçı istehsal edilən malın satışından əldə etdiyi pulu başqa bir malı almaqda istifadə edir. Beləliklə, istehsal edilən bir mal digər bir bazarda bu mala uyğun ekvivalent mal tapır. Ümumiyyətlə, bir malın təklifi onun izafi qiymətinə bağlıdır. Malla əlaqədar pul tələb və təklifə, malın izafi qiymətinə görə olur. Halbuki, miqdar nəzəriyyəsində pul tələbi izafi mal qiymətinə görə deyil, mütləq qiymətlərə görə olur. Mala olan tələb pula olan tələb anlamına gəlir. Çünki mala olan ehtiyac pul ehtiyacını yaradır. Bu da pul təklifinə təsir edir. Sey pulun mübadilə üçün istənildiyinə, əl altında tutulmadığını və bunun üçün də tam məşğulluğun saxlandığını qəbul edir. Özəl sektoru müdafiə edən Sey dövlətin sənaye və ticarət işi apara bilməsi üçün pulunun olduğunu, ancaq yaradılacaq işlərin uğur qazanmayacağını, çünki dövlət fərdlərə "iş görməniz üçün uyğun bir mühit yaratdım, indi isə zəngin olmağınıza baxın" deməlidir.

Yeni klassiklərin pul haqqında nəzəri düşüncələri

Pul haqqında nəzəri düşüncələr sırasına daxildir: Lean Valras, İrvinq Fişer, M.Fridmen.

Leon Valras. Valrasa görə pulun funksiyası 3 yerə bölünür: dəyər pulu, yığım pulu və mübadilə pulu. Dəyər pulu bir malın dəyərinin digər malların dəyəri ilə ödənməsinə deyilir. Yığım pulu sərmayə sahiblərinin istehlakı üzərindən gerçəkləşdirdikləri qənaət nəticəsində işgüzar dairələrə verdikləri borc pulu ifadə etməkdədir. Valrasa görə tədavüldəki pul mübadilə pulu, mal və xidmət alınmasına istifadə puludur.

İ.Fişer (1867-1947). Fişerə görə pul və onunla satın alınan mal bərabər dəyərdədir. Fişerə görə tədavüldəki pul miqdarına aşağıdakılar təsir etməkdədir: qızıl alışı və satışı, pul emissiyası; qızılın istehsalı və istehlakı və pul sistemləri.

M.Fridmen. Fridmen pul tələbinə təsir edən 3 faktoru belə sıralayır: gəlir, fərdlərin seçimi və zövqləri, istehlak edilə bilən xidmət və gəlir qaynaqları. O, pul siyasətində pulun miqdarına diqqət edilməsini vurğulamışdır.

İqtisadi inkişaf və istehsal artımına cavab vermək məqsədilə hər il pul miqdarının 0,05% artımı yetərlidir. İnflyasiya olan ölkələrdə mərkəzi banklar emissiyanı durdurmalı və bankların kredit istehsalının qarşısı kəsilməlidir.

Keynsin pul haqqında nəzəriyyəsi

C.M.Keyns (1883-1946) istehlak və investisiya funksiyalarının gəlir səviyyəsi və faizə təsir etdiyini qəbul edir. O, investisiyanın faiz dərəcəsinə və sərmayənin marjinal verimliliyinə bağlı olduğunu ifadə etmişdir. Keynsə görə böhran iqtisadiyyatında xalq, iqtisadiyyatın gələcəyinə güvənmirsə, pullarını investisiya qoymadan hərəkətsiz gizlədə bilərlər.

Ümumiyyətlə, Keyns pul miqdarı artdıqca faiz həddinin düşəcəyini və gəlir səviyyəsinin eyni qaldığını qəbul etmişdir. Faiz dərəcəsinin düşməsi investisiya xərclərini artırmaq sürətilə gəlir səviyyəsinin yüksəlməsinə yol açmaqdadır.

Movzu 3
Pul tədavülü

1. Pul bazarının mahiyyəti və funksiyaları

2. Pul tədavülünün təşkili prinsipləri

3. Pulun buraxılışı və emissiyası

4. Pul tədavülü qanunları

5. Pul kütləsi və onun tənzimlənməsi

6. Pulun dövretmə sürəti və ona təsir edən amillər

1. Pul bazarının mahiyyəti və funksiyaları. Pul bazarı – pul vəsaitlərinin borca verilməsi ilə əlaqədar iqtisadi münasibətlər sistemidir. Bu bazar maliyyə vəsaitləri satılan bazardır. Bu bazarın xarakterik xüsusiyyəti onun vahidliyidir. Pul bazarında borc kapitalı banklarda cəmləşir, ona görə də onun təklifi toplu xarakter daşıyır. Pul bazarında borca verilən vəsaitlər əsas yox, dövriyyə kapitalının, firmaların, bankların, dövlətin qısamüddətli resurslarının hərəkətinə xidmət edir.

Pul bazarının insfitusional quruluşu özünə bankları, şirkətləri, broker və diler firmalarını və başqa maliyyə-kredit idarələrini daxil edir.

Pul bazarının alətləri sonrakılardır: a) hüquqi şəxslərin depozit sertifikatları; b) fiziki şəxslərin əmanət sertifikatları; c) qısamüddətli kreditlər; ç) banklararası kreditlər; d) kommersiya kreditləri.

Pul bazarında kreditorlar və borcalanlar sifətində:

- banklar;
- bank olmayan kredit təşkilatları;
- müxtəlif tipli müəssisə və təşkilatlar – hüquqi şəxslər;
- fiziki şəxslər;
- müəyyən orqanların və təşkilatların simasında dövlət;
- beynəlxalq maliyyə təşkilatları;
- başqa maliyyə-kredit təşkilatları çıxış edirlər.

Maliyyə vasitəçiləri kimi pul bazarında:

- banklar;
- fond bazarının professional iştirakçıları;
- brokerlər;
- dilerlər;
- şirkətlərin idarəediciləri;
- başqa maliyyə-kredit idarələri fəaliyyət göstərirlər.

Pul bazarı geniş təkrar istehsalın başlıca tənzimləyicisi rolunda çıxış edir və bir sıra daxili funksiyaları yerinə yetirir:

- əmtəə istehsalçıları və satıcılarının sərbəst rəqabətinin təşkili
- təsərrüfat strukturları və bankların sahibkarlıq fəaliyyəti sektorlarının və seqmentlərinin yaranması;
- pul vəsaitlərinə tələb və təklifin əsasında ictimai məhsulun təkrar istehsalının proporsiyalarının tənzimlənməsi;

Pul bazarının vəziyyəti 2 amil ilə müəyyən edilir ki, onlara da aiddir:

- iqtisadiyyatın ona olan ehtiyacı;
- dövriyyəyə pulun daxil olması.

Əgər dövriyyədə təsərrüfata tələb olunandan artıq pul mövcuddursa, onda bu, pulun dəyərsizləşməsinə - onun alıcılıq qabiliyyətinin aşağı düşməsinə, inflyasiyaya gətirib çıxaracaq.

Pul təklifinin formalaşmasında 3 subyekt iştirak edir: Mərkəzi bank, kommersiya bankları sistemi, əhali.

Pula tələbin 3 növü fərqləndirilir:

1) tədavül vasitəsi kimi sövdələşmələr üçün pula tələb;

2) aktivlər tərəfindən pula tələb;

3) pula ümumi tələb (birinci 2 növü birləşdirən tələb)

Dövriyyədə pul lazım olan miqdardan nə az, nə də çox olmamalıdır.

Pula tələb aşağıdakı amillərin təsiri altında formalaşır:

1) pula tələbin artması qiymətlərin səviyyəsinin artımına birbaşa mütənasibliyi;

2) faiz dərəcələrinin artımı pula tələbi azaldır, onun aşağı enməsi isə artırır;

3) real ifadədə gəlirlərin artımı pula tələbi artırır, onun aşağı enməsi isə azaldır.

2. Pul tədavülünün təşkili prinsipləri. Pul tədavülü geniş təkrar istehsal prosesinin müxtəlif tərəflərini əks etdirən mürəkkəb mexanizmdən ibarətdir. Pulun ona xas olan funksiyaları yerinə yetirdiyi vaxt baş verən hərəkəti pul tədavülü adlanır və ya pul tədavülü anlayışı altında əmtəələrin satışı, həmçinin təsərrüfatda əmtəə və xidmətlərin hərəkəti ilə əlaqədar olmayan ödəniş və hesablaşmalar ilə əlaqədar pulun ölkənin daxili iqtisadi dövriyyəsində, xarici iqtisadi əlaqələr sistemində nağd və nağdsız formada hərəkəti başa düşülür.

Pul tədavülünün təşkili müəyyən prinsiplərə: a) pul tədavülünün faydalılığı, b) pul emissiyasının qeyri-mərkəzləşdirilmiş və kredit xarakteri prinsiplərinə əsaslanır. Pul tədavülünün faydalılığı prinsipinə riayət edilməsi pulun hərəkəti sürətinin artması, deməli, onun miqdarının azalması və istehsala və pul nişanlarının tədavülünə məsrəflərin ixtisar olunması deməkdir. Müasir şəraitdə həmin prinsip müəyyən üsullar: nağd puldan istifadə olunması sferasının məhdudlaşdırılması və hər vasitə ilə nağdsız hesablaşmaların genişləndirilməsi; müəssisələrin, təşkilat və idarələrin kassalarında nağd pulun minimuma endirilməsi vasitəsilə reallaşdırılır.

Pul emissiyasının qeyri-mərkəzləşdirilmiş prinsipi onunla səciyyələnir ki, BİŞ-də pul emissiyası mexanizmi müəyyən dəyişikliyə məruz qalır.

Pul tədavülünün düzgün təşkili sonrakı əsas prinsiplərə əməl olunmasını tələb edir:

- bütün təsərrüfat subyektləri və idarələr onlara məxsus olan pulları banklarda onlar üçün açılmış hesablarda saxlamalı və pul hesablaşmalarını müəyyən məbləğin standart hesablaşma sənədləri əsasında hesabdan hesaba köçürülməsi vasitəsilə aparmalıdırlar;
- pul ödənişləri bank vasitəsilə nağdsız hesablaşmaların standart formalarından istifadə etməklə yerinə yetirilməli, ödənişlərin vaxtında və tam ödənilməsi üçün məsuliyyəti mal alanlar və müvafiq iş və xidmətlərdən istifadə edənlər daşımalıdırlar;

- hesablardan pul vəsaitlərinin xərclənməsi müəssisə və təsərrüfat təşkilatlarının qərarı üzrə onların fəaliyyəti maraqlarından irəli gələrək həyata keçirilməlidir.
- Təsərrüfat dövriyyəsində iştirak edən bütün təşkilatlar nağd pulu kommersiya banklarında saxlamalı və limitdən artıq bütün nağd pul qalığı müvafiq banklara təhvil verilməlidir.
- Ölkənin ərazisində xarici valyutanın tədavülü qadağandır.

Nağd pul dövriyyəsi bütün nağd pul kütləsini, başqa sözlə, pulun:

- əhali ilə hüquqi şəxslər arasında;
- fiziki şəxslər arasında; hüquqi şəxslər arasında; əhali ilə dövlət orqanları arasında; hüquqi şəxslərlə dövlət orqanları arasındakı hərəkətini özünə daxil edir.

Nağd pul tədavülü müxtəlif növ pulların: banknotların, metal sikkələrin, digər kredit alətlərinin (veksellərin, çeklərin, plastik kartların) köməkliyi ilə həyata keçirilir.

Nağdsız pul tədavülü nağd puldan istifadə etmədən kredit idarələrində açılmış hesablar üzrə pul vəsaitlərinin köçürülməsi ilə əlaqədar və qarşılıqlı ödənişlər vasitəsilə həyata keçirilən hesablaşmalardan ibarətdir.

3. Pulun buraxılışı və emissiyası. Pulun emissiyası tədavülə bütün növ pul nişanlarının buraxılışı deməkdir. Lakin, “pul buraxılışı” və “pul emissiyası” anlayışları eyni məna kəsb etmir. Dövriyyəyə pul buraxılışı daim baş verir. Nağdsız pulların dövriyyəyə buraxılışı kommersiya bankları tərəfindən öz müştərilərinə kreditlər verdikləri vaxt baş verir. Nağd pullar bankların öz kassa əməliyyatlarını həyata keçirdikləri prosesdə öz əməliyyat kassalarından müştərilərə verdikləri vaxtda dövriyyəyə buraxılır. Eyni zamanda müştərilər bank kreditlərini ödəyir və nağd pulları bankların əməliyyat kassalarına təhvil verirlər. Bu vaxt dövriyyədə pulun miqdarı artmaya da bilər. Pul emissiyası anlayışı altında isə dövriyyəyə o cür pul buraxılışı başa düşülür ki, hansı ki, dövriyyədə mövcud olan pul kütləsinin ümumi artmasına istiqamətləndirilir.

Pulun buraxılışı müxtəlif məqsədlər güdə bilər. Birincisi çox işləməkdən köhnəlmiş, yırtılmış pulları yeniləri ilə dövri dəyişmək lazımdır. Bank bu cür pulları tədavüldən geri götürür və onların əvəzinə yenilərini buraxır. İkincisi pulun buraxılışı tədavüldə pulun miqdarının kifayət qədər olmaması və daha iri pul nişanlarına keçirilməsi zərurəti səbəbindən ola bilər. Üçüncüsü pulun emissiyası daxili dövlət borcunun qaytarılması, sosial ödənişlərin həyata keçirilməsi, mövcud olan vəsaitdən artıq dövlət proqramlarının maliyyələşdirilməsi üsulu kimi həyata keçirilə bilər. Nəhayət, pul islahatlarının keçirilməsi ilə əlaqədar və yaxud denominasiya səbəbindən də pulun emissiyası baş verə bilər ki, bu da öz ifadəsini pul vahidlərinin möhkəmlənməsində və eyni zamanda pul nişanlarının nominal dəyərinin dyişilməsində tapmış olur.

Yuxarıda sadalanan, həmçinin digər amillərin fəaliyyəti ilə bağlı pul emissiyasının müxtəlif formalarını fərqləndirirlər. Bunlara aiddir:

1. Pulun banknot emissiyası – pul nişanlarının emissiyası bilavasitə ölkələrin Mərkəzi bankları;
2. Pulun xəzinə emissiyası. Xəzinə biletlərinin və xırda sikkələrin buraxılışı emissiya hüququna malik olan xəzinədarlıq tərəfindən həyata keçirilir.

Mərkəzi Bank tərəfindən müasir banknotların emissiyası 3 yolla həyata keçirilir:

- kommersiya veksellərinin yenidən uçotu formasında kommersiya banklarına kreditlərin verilməsi;
- dövlət qiymətli kağızlarının təminatlığı altında xəzinədarlığın kreditləşdirilməsi;
- banknotların xarici valyutalara mübadiləsi yolu ilə buraxılışı.

Pulun büdcə emissiyası anlayışı altında dövlət büdcəsi kəsrinin Mərkəzi Bank tərəfindən dövlət qiymətli kağızlarının satın alınması yolu ilə dövlət xərclərinin örtülməsinə pulun buraxılışı başa düşülür.

Pulun depozit emissiyası Mərkəzi Bank tərəfindən verilən kreditlərin miqyasının genişləndirilməsi yolu ilə depozit hesablarda pul vəsaitlərinin qalığının artması deməkdir.

Sənayecə inkişaf etmiş ölkələrdə pulun emissiyasının başlıca kanalı depozit – çek emissiyasıdır. Pulun emissiyasının bu formasında müştərilərin hesablarında depozitlərin və buna müvafiq nağdsız tədiyyə dövriyyəsinə xidmət edən çeklərin kütləsinin artması baş verir.

Nağd pullar dövriyyəyə daxil olmazdan əvvəl, kommersiya banklarının depozit hesablarında yazı şəklində əksini tapmalıdır.

Dövriyyəyə nağdsız pul emissiyasının başlıca məqsədi – müəssisələrin dövriyyə vəsaitlərinə əlavə ehtiyaclarını təmin etməkdən ibarətdir.

Nağd pulların emissiyası, onların tədavülə buraxılışı tədavüldə pul kütləsini artırır. Nağd pulun emissiyası qeyri-mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Onu Mərkəzi Bank və onun hesablaşma – kassa mərkəzləri həyata keçirir. Nağd pulun emissiyası üçün hesablaşma – kassa mərkəzlərində ehtiyat fondları və dövriyyə kassaları açılır. Ehtiyat fondlarında tədavülə buraxılmalı olan pul nişanları saxlanılır. Bu pul nişanları tədavüldə olan pullar hesab olunmur, çünki onların hərəkəti baş vermir, onlar ehtiyatdadır.

Hesablaşma kassa mərkəzinin dövriyyə kassasına daim nağd pullar verilir. Beləliklə, dövriyyə kassasında pullar daim hərəkətdə olur, onlar tədavüldə olan pullar hesab olunur.

4. Pul tədavülü qanunları. Tədavül sferasında dəyər qanunu və onun təzahür forması olan pul tədavülü qanunu əmtəə - pul münasibətləri mövcud olan bütün ictimai formasiyalar üçün xarakterikdir. Pul tədavülü qanununu K.Marks kəşf etdi. Bu qanunun mahiyyəti onda ifadə olunur ki, tədavül vasitəsi funksiyasını yerinə yetirmək üçün lazım olan pulun miqdarı satılan əmtəələrin eyniadlı pul vahidi dövriyyəsinin sayına (tədavül sürətinə) bölünmüş qiymət məbləğinə bərabər olmalıdır. Başqa sözlə, pul tədavülü qanununun ümumi ifadəsinə müvafiq olaraq, metal pul tədavülündə dövriyyə üçün lazım olan pulun miqdarı nağd pula satılan əmtəələrin qiymət məbləği və eyniadlı pul vahidinin dövretmə sürəti ilə müəyyən edilir. İlk dəfə Marks tərəfindən müəyyən edilmiş bu qarşılıqlı əlaqə 2 növ iqtisadi qarşılıqlı asılılığın: a) tədavül vasitəsi kimi lazım olan pulun miqdarı ilə satılacaq malların və göstəriləcək xidmətlərin qiymət məbləği arasında birbaşa asılılığın; b) tədavül

vasitəsi kimi tələb olunan pulun miqdarı ilə pulun dövretmə sürəti arasında əks asılılığın məcmusundan ibarətdir. Düstur belə ifadə olunur:

$$PM = QM : PD$$

PM – cari dövrdə tədavül üçün lazım olan pul vahidlərinin miqdarı;

QM – cari dövrdə satılacaq əmtəə və xidmətlərin qiymət məbləği;

PD – pulun dövretmə sürəti.

Düsturdan belə çıxır ki, pul kütləsi ilə əmtəə kütləsi arasında tarazlıq olmalıdır. Buradan sonrakılar irəli gəlir: a) əmtəə kütləsinin artması tədavüldə pulun qarşılıqlı artmasını şərtləndirməlidir; b) əgər pul kütləsi mal kütləsini üstələyərsə, onda qiymət artımı baş verəcək; c) əgər pul kütləsi mal kütləsindən geri qalarsa, pulun dövretmə sürəti dəyişmədiyi bir təqdirdə malların hamısı satılmayacaq.

Kreditin inkişafı və müvafiq olaraq pulun tədiyyə vasitəsi funksiyasının meydana gəlməsi ilə tədavül üçün lazım olan pulun miqdarına, eləcə də həmin dövrdə kreditə satılmış mal və xidmətlərin qiymət məbləği, ödəniş vaxtı çatmış borc öhdəliklərinin məbləği və qarşılıqlı ödənilən tədiyyələrin məbləği təsir göstərir. Beləliklə, pul tədavülü qanununun düsturu sonrakı geniş ifadəni almış oldu:

$$PM = QM – K + Ö – QT : PD$$

PM – həmin dövrdə tədavül üçün lazım olan pul vahidlərinin miqdarı;

QM – reallaşdırılan əmtəə və xidmətlərin qiymət məbləği;

K – kreditə satılmış əmtəə və xidmətlərin qiymət məbləği;

Ö – həmin dövrdə ödəmə müddəti çatası öhdəliklər üzrə ödənişlərin məbləği;

QT – qarşılıqlı ödənilən tədiyyələrin məbləği;

PD – eyni adlı pul vahidinin dövretmə sürəti.

Beləliklə, görürük ki, tədavül üçün lazım olan pulun miqdarına bir sıra amillər təsir göstərir. Bu amillərə aşağıdakılar aiddir:

- istehsalın və xidmətlərin inkişafı şəraitindən asılı olan və tədavül edən malların və xidmətlərin miqdarına təsir edən amillər (birbaşa əlaqə);
- mallara və xidmətlərə qiymət səviyyəsini müəyyən edən amillər (birbaşa əlaqə);

- pulun dövretmə sürətinə təsir göstərən amillər (əks əlaqə). Tədavüldə pulun miqdarı onun dövretmə sürətinə tərs mütənasibdir. Təcrübədə pul kütləsinin orta illik tədavül sürəti ÜDM-un orta illik pul kütləsinə olan nisbəti kimi hesablanır.
- kreditin inkişaf səviyyəsinə təsir edən amillər, hansılar ki, pulun miqdarına əks təsir göstərir: nə qədər mallar kreditə çox satılarsa, bir o qədər tədavül üçün az miqdar pul tələb olunacaq.
- nağdsız hesablaşmaların həcminin inkişafına təsir göstərən amillər.

5. Pul kütləsi və onun tənzimlənməsi. Pul kütləsi dövlətin, hüquqi və fiziki şəxslərin sərəncamında olan, iqtisadi əlaqələrə xidmət edən alıcılıq və ödəniş vasitələrinin məcmu həcmindən, yəni nağdsız pul qalıqlarından və bankdan kənar nağd puldan ibarətdir ki, hansılar ki, əmtəə tədavülünü müşayiət edir və daxili, eləcə də beynəlxalq tədiyyələri təmin edir. Həmin müəyyənləşmədən o irəli gəlir ki, pul kütləsinin tərkibinə:

- əvvəla, bütün təsərrüfat subyektlərinin malik olduqları yüksək likvid vəsaitlər;

- ikincisi, nağd və nağdsız tədavülün müxtəlif formalarında olan pullar;

- üçüncüsü, pulun bütün müasir növləri;

- dördüncüsü, yalnız tədavül vasitəsi və tədiyyə vasitəsi yox, həmçinin, yığım, dünya pulu funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar olan pullar daxildir.

Tədavüldə pul kütləsi, hər şeydən əvvəl, istehsalın, mal dövriyyəsinin həcmindən asılıdır.

<u>Pul kütləsinə</u> 2 amil: tədavüldə pulların miqdarı və onların dövr sürəti təsir göstərir. Tədavüldə pulun miqdarı mal dövriyyəsinin tələbatından və büdcə kəsrindən irəli gələrək dövlət tərəfindən müəyyən edilir. Tədavüldə pulun miqdarı üzərində nəzarət makroiqtisadi sabitliyi təmin etmək üçün çox vacibdir.

Başqa dövlətlərdə olduğu kimi, Azərbaycanda da pul kütləsinin miqdar dəyişikliklərini təhlil etmək üçün pul göstəricilərindən (aqreqatlarından) istifadə olunur. Pul aqreqatları müəyyən tarixə və müəyyən dövr üçün pul tədavülünün

miqdar dəyişikliklərini təhlil etməyə, həmçinin pul kütləsinin artım templərini və həcmini tənzimləməyə imkan verir.

Pul aqreqatı pul kütləsinin həcmi və quruluşunun göstəricisidir. Aqreqatlaşdırma anlayışı altında bir-birindən likvidlik dərəcəsi ilə fərqlənən ayrı-ayrı pulun növləri və pul vəsaitlərinin birləşməsi başa düşülür. Pul aqreqatı – tədavüldə pul kütləsinin ölçüləri xidmətini göstərən likvid aktivlərin hər hansı bir neçə spesifik qruplaşmasından ibarətdir. Pul aqreqatlarını mərkəzi emissiya bankları formalaşdırır və hesablayır.

Azərbaycan Respublikasında məcmu pul kütləsini hesablamaq üçün M0, M1, M2, M3 pul aqreqatlarından istifadə olunur. M0 – dövriyyədə pul, M1 – M0 üstəgəl tələb olunanadək əmanətlər və depozitlər; M2 – M1 üstəgəl müddətli əmanətlər (depozitlər); M3 – M2 üstəgəl istiqrazlar və əmanət sertifikatları, xarici valyutada depozitlər. Pul kütləsinin yerdə qalan komponentləri inkişaf mərhələsindədir.

Pul aqreqatları likvidlik səviyyəsinə görə bir-birindən fərqlənir. Daha yüksək likvidlik səviyyəsinə malik olan M0 aqreqatıdır (nağd pullar), çünki tələb olunanadək əmanətlər əmanətçiyə onun tələbi ilə geri qaytarılmalıdır, müddətli əmanətlər isə bank tərəfindən əmanətin bütün müddəti ərzində istifadə oluna bilər və müddət keçdikdən sonra əmanətçiyə qaytarılır.

M2 pul kütləsi nağd pulun və nağdsız vəsaitlərin hərəkəti ilə müəyyən edilir, hansılar ki, öz növbəsində əhalinin yığımlarından və hüquqi şəxslərin hesablarındakı vəsaitin qalığından birbaşa asılıdır. Əgər əhalinin pul yığımları prosesi intensiv gedirsə, əhali banka inanırsa və öz pullarını onun hesablarında saxlayırsa, onda Mərkəzi Bank pul kütləsini artırmaq imkanına malik olmuş olur. Beləliklə də, əhalinin yığımları dövriyyəni yeni pullarla təmin etmək funksiyasını yerinə yetirmiş olur.

Pul kütləsinin sərbəst komponenti pul bazasıdır. O , pul kütləsinin xüsusi hesablaşma göstəricisidir. Pul bazasına aiddir:

- tədavüldə nağd pullar (M0);
- kommersiya banklarının kassalarında pul vəsaitləri;

- Mərkəzi Bankda kommersiya banklarının məcburi ehtiyatları;
- kommersiya banklarının Mərkəzi Bankdakı müxbir hesablarında vəsaitləri.

6. Pulun dövretmə sürəti və ona təsir edən amillər. Pulun dövretmə sürəti onun tədavül vasitəsi və tədiyyə vasitəsi keyfiyyətində fəaliyyət göstərdiyi vaxt hərəkətinin intensivliyi göstəricisidir. Bu sürət eyniadlı pul vahidinin pul dövriyyəsinin sayı və yaxud bir dövriyyənin sürətliyi (müddətliyi) ilə ifadə olunur. Adətən pulun dövretmə sürəti dövriyyənin tədavüldəki pul qalığına olan nisbəti bazasında hesablanır.

Nağd pul kütləsinin böyük bir hissəsi əhalinin əlində cəmləşir. Buna görə də əhalinin və müxtəlif əhali qruplarının sərəncamında pulun dövretmə sürəti və orta qalığının dəyişilməsinin təhlili mühüm əhəmiyyət kəsb edir. Əhalidə olan pulun dövretmə sürəti başlıca olaraq sonrakı amillərdən:

a) gəlirlərin alınmasının dövriliyindən;

b) pulun xərclənməsinin dövriliyindən və yaxud müntəzəmliyindən;

c) mal dövriyyəsinin və əhaliyə göstərilən xidmətlərin proqnozlaşdırılmasından;

ç) əhali tərəfindən pulun saxlanılması xarakterindən;

d) ölkədə kredit idarələrinin işinin təşkili səviyyəsindən və s. asılıdır.

Əhalinin əlində pulun yığılıb qalması onun dövretmə sürətini ləngidir. Pulun kredit idarələrinə əmanətlər (depozitlər) formasında qoyulması və yaxud qiymətli kağızların alınmasına yönəldilməsi isə onun sürətini artırır. Əgər əhali gəliri tez-tez alsa, onda gəlirin alınması və xərclənməsi müddətləri yaxınlaşmış olar, pul kütyləsinin qalığı azalar və onun dövretmə sürəti artmış olar.

Ümumiyyətlə, pulun dövretmə sürətinin dəyişilməsinə ümumiqtisadi amillər – iqtisadiyyatın silsiləvi inkişafı, iqtisadi artım templəri, texnoloji proseslərin uzunluğu, qiymətlərin hərəkəti və eləcə də, monetar amillər – tədiyyə dövriyyəsinin quruluşu, kredit əməliyyatlarının və qarşılıqlı hesablaşmaların inkişaf səviyyəsi, pul bazarında kreditə görə faiz dərəcələrinin səviyyəsi, bank işində elektron texnologiyalardan istifadə olunması və s. təsir göstərir.

Movzu 4

Pul dövriyyəsi və pul hesablaşmaları

1. Pul dövriyyəsinin iqtisadi mahiyyəti, quruluşu və təşkili prinsipləri

2. Nağd pul dövriyyəsinin təşkili əsasları

3. Nağdsız pul dövriyyəsinin təşkili

4. Ölkədaxili nağdsız hesablaşma formaları

5. Plastik kartlarla hesablaşmalar

1. Pul dövriyyəsinin iqtisadi mahiyyəti, quruluşu və təşkili prinsipləri. Pul dövriyyəsi pulun hərəkət etdiyi müxtəlif kanallardan ibarətdir. Bu kanallara daxildir:

- Mərkəzi Bankla kommersiya bankları;
- kommersiya bankları;
- müəssisə və təşkilatlar;
- bank ilə müəssisə və təşkilatlar;
- əhali ilə bank;
- əhali ilə müəssisə və təşkilatlar;
- fiziki şəxslər;
- müxtəlif maliyyə institutları ilə banklar;
- müxtəlif maliyyə institutları ilə əhali.

Pul dövriyyəsi pulun dövriyyədə iştirak etməsi halı əsasında da təsnifləşdirilir. Bu baxımdan pul dövriyyəsi nağd və nağdsız pul dövriyyəsinə bölünür.

Nağdsız dövriyyə dedikdə, müəyyən dövr ərzində nağd pulların iştirakı olmadan vəsaitlərin müştərilərin bankdakı hesablarından silinərək başqa hesaba köçürülməsi qaydasında həyata keçirilən ödənişlər başa düşülür. Nağd pul dövriyyəsi dedikdə isə, hesablaşmaların yalnız nağd pulun iştirakı ilə aparıldığı dövriyyə başa düşülür.

Kredit əməliyyatları nəticəsində müvafiq hesablarda zəruri pullar yığılır ki, həmin pullar müqabilində dövriyyəyə nağd pullar buraxılır. Nağd pulların banka arasıkəsilməz daxil olması kredit əməliyyatlarının yerinə yetirilməsinin zəruri şərtidir. Nağd pullar banka daxil olarsa, onlar maneəsiz olaraq nağdsız formaya keçə bilir ki, bu da pul dövriyyəsinə müsbət təsir göstərir. Əksinə nağdsız dövriyyənin nağd dövriyyəyə keçməsi dövriyyəyə əlavə pulların buraxılmasına gətirib çıxarır. Bu proses elə aparılmalıdır ki, dövriyyəyə (əlavə pulların buraxılmasına) lazım olduğundan çox pul buraxılmasın.

Pul dövriyyəsinin təşkili prinsipləri bunlardır:

1. Bütün müəssisə və təşkilatlar özlərinin pul vəsaitlərini əsasən banklarda onlar üçün açılmış hesablarda saxlamalıdırlar. Müəyyən məbləğdə nağd pulun müəssisə və təşkilatların kassalarında saxlanılmasına icazə verilir.

2. Müəssisə və təşkilatlar arasındakı hesablamalar əsasən nağdsız qaydada banklardakı hesablardan köçürmələr qaydasında aparılmalıdır.

3. Hesablaşmalarda istifadə olunan hesablaşma sənədləri yalnız bank vasitəsilə aparılan hesablaşmalarda istifadə oluna bilər.

Pul dövriyyəsi bazar münasibətləri sisteminə xidmət göstərərkən aşağıdakı vəzifələri yerinə yetirir:

1. Kapitalın bazar münasibətlərinin bir sferasından digərinə sərbəst keçməsini və onların qarşılıqlı əlaqəsini təmin etməkdir ki, bu da pul dövriyyəsinin 2 hissəsi arasında bölgüsü nəticəsində baş verir.

2. Bazar münasibətlərinin bütün sferalarının ehtiyatlarının ödənilməsi üçün yeni pulların yaradılması.

2. Nağd pul dövriyyəsinin təşkili əsasları. Nağd pul dövriyyəsi müəyyən dövr ərzində pulun tədavül və tədiyyə vasitəsi kimi hərəkətini əks etdirir.

Mərkəzi Bank nağd pul dövriyyəsinin tənzimlənməsi üçün müxtəlif metodlardan istifadə edir.

- müəssisə və təşkilatların kassa qalıqlarının məhdudlaşdırılması.
- satışdan gəlirdən nağd məbləğin istifadə norması;
- satışdan gəlirin banka verilməsi qaydası və müddətinin müəyyən edilməsi.

Nağd pulların dövriyyəsini dövlət Mərkəzi Bank vasitəsilə həyata keçirir və nağd pul dövriyyəsi aşağıdakı prinsiplər əsasında təşkil olunur.

- bütün müəssisə və təşkilatlar özlərinin nağd pullarını kommersiya banklarında saxlamalıdırlar;
- mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələr üçün nağd pul qalığı limiti banklar tərəfindən müəyyən olunur.
- nağd pul tədavülünün idarə olunması mərkəzləşdirilmiş xarakter daşıyır.
- nağd pul dövriyyəsinin təşkilində məqsəd – pul tədavülünün möhkəmliyini, elastikliyini, qənaətcilliyini qoruyub saxlamaqdır.
- müəssisələr nağd pulu yalnız onlara xidmət edən bankdan ala bilərlər.

Nağd pullara olan tələbatın öyrənilməsi və pul tədavülünün stabilləşməsinə yönəldilən tədbirlər planının hazırlanması üçün vacib amillərdən biri kassa dövriyyələrinin proqnozlaşdırılmasıdır.

Kassa dövriyyəsinin proqnozunda aşağıdakılar əks olunur:

1. Bankın kassasına daxil olası nağd pulların həcmi.

2. Daxilolmaların mənbəyi.

3. Müəssisə, təşkilat və fiziki şəxslərə bankdan veriləsi nağd pulun həcmi və məqsədli təyinatı.

4. Emissiya nəticələri – dövriyyəyə nağd pul buraxılışı və ya dövriyyədən götürülməsi.

Kassa dövriyyələri proqnozu 2 hissədən: daxilolmalar və xərclərdən ibarət olmaqla bir rübə tərtib edilir.

3. Nağdsız pul dövriyyəsinin təşkili. Nağdsız hesablaşmaların əhəmiyyəti özünü aşağıdakı kimi göstərir:

1. Nağd pula tələbat azalır, onunla bağlı xərclər aşağı düşür.

2. Müvəqqəti sərbəst pul vəsaitləri bankda cəmləşir ki, bunlardan da kreditləşmə mənbəyi kimi istifadə olunur.

3. Ödəyici və satıcı təsərrüfat müqavilələrinin yerinə yetirilməsinə qarşılıqlı nəzarət etmək imkanı əldə edirlər.

4. Hesablaşmaların əhəmiyyətli dərəcədə sürətlənməsi təmin olunur.

Nağdsız hesablaşmalar sistemi 5 əlaməti birləşdirir:

1. Nağdsız hesablaşmaların təşkili prinsipləri.

2. Hesablaşma sənədlərinin növləri.

3. Ödəniş üsulları.

4. Nağdsız hesablaşmaların formaları.

5. Sənəd dövriyyəsi qaydası.

Nağdsız hesablaşmalar:

- satılmış məhsul, görülmüş işlərin dəyərinin vaxtında daxil olmasını;
- maliyyə, kredit, sığorta, məhkəmə və s. onlara bərabər tutulan ödənişlər üzrə pul vəsaitlərinin vaxtında köçürülməsini;
- mal göndərişi müqaviləsinə və ödəniş intizamına riayət olunmamasına nəzarəti;
- nağdsız hesablaşmaların aparılmasının mövcud qaydalarına riayət edilməsinə bank nəzarətini;
- mal-material göndərilməsi ilə onun dəyərinin ödənilməsi müddətlərinin maksimum yaxınlaşdırılmasını təmin etməlidir.

Nağdsız hesablaşmalar sisteminin qarşısına qoyulan tələblər hesablaşmaların müəyyən prinsiplər əsasında aparılmasını tələb edir:

Bu prinsiplər:

1. Nağdsız hesablaşmalar hüquqi rejimə əsaslanır.

2. Hesablaşmaların bank hesabları üzrə aparılması.

3. Ödənişlərin arasıkəsilməz aparılmasını təmin edən likvidlik səviyyəsinin qorunub saxlanılması.

4. Ödənişə ödəyicinin razılığı.

5. Ödənişin müddətli olması.

6. Bütün hesablaşma iştirakçılarının hesablaşmalarının düzgün aparılmasına, onların aparılması qaydalarına riayət edilməsinə nəzarət.

7. Müqavilə şərtlərinə riayətə görə maddi məsuliyyət prinsipi.

4. Ölkədaxili nağdsız hesablaşma formaları. Bütün nağdsız hesablaşmalar müvafiq sənədlər vasitəsilə aparılır. Nağdsız hesablaşmaların formaları əsasən hesablaşmalarda tətbiq olunan sənədin adı ilə adlandırılır.

Nağdsız hesablaşmalar zamanı:

- ödəmə tapşırıqlarından, çeklərdən, akkreditivlərdən, ödəmə-tələbnamə tapşırıqlarından istifadə edilir.

Hazırda nağdsız hesablaşmaların ən geniş yayılmış forması ödəmə tapşırıqları ilə hesablaşmalardır.

Ödəmə tapşırığı – bankda hesabı olan müəssisənin həmin hesabdan müəyyən məbləğ vəsaitinin silinib, başqa müəssisənin hesabına daxil edilməsi haqda özünə xidmət edən banka verdiyi tapşırıqdır. Həm əmtəə əməliyyatları, həm də qeyri-əmtəə əməliyyatları üzrə olan hesablaşmalarda ödəmə tapşırığından istifadə etmək mümkündür. Ödəmə tapşırıqları 4 nüsxədə tərtib olunur. I nüsxə ödəyici bankda vəsaitin silinməsinə əsas verən sənəd kimi qəbul edilir və həmin bankda saxlanılır.

IV nüsxə ödəmə tapşırıqlarının icraya qəbul edilməsini təsdiq edən sənəd kimi ödəmə tapşırıqları verən müəssisəyə qaytarılır. II və III nüsxə satıcıya xidmət edən banka göndərilir.

<u>Çeklərlə hesablaşmalar</u>.

Çek ödəyicinin onun hesabından müəyyən məbləğin ödənilməsi haqda öz bankına verdiyi yazılı sərəncamdır. Pul və hesablaşma çekləri fərqləndirilir. Pul çeklərindən müəssisənin hesabından nağd pulun alınması üçün istifadə edilir. Əmək haqqına, təsərrüfat ehtiyaclarına, ezamiyyə xərclərinə, pensiya, təqaüd verilməsinə, eləcə də kənd təsərrüfatı məhsullarının satın alınması üçün banklardan nağd pulun alınması pul çekləri vasitəsilə aparılır. Hesablaşma çekləri isə nağdsız hesablaşmaların bir forması kimi tətbiq olunur və hesablaşma çeki dedikdə, ödəyicinin onun hesabından müəyyən məbləğin silinib başqa müəssisənin hesabına köçürülməsi haqda banka verdiyi yazılı sərəncam başa düşülür. Hesablaşma çekləri ödəyici tərəfindən tərtib olunur və öz bankına ödəniş üçün təqdim olunur. Respublika ərazisində limit çeklərindən istifadə olunur. Limitli hesablaşma çekləri dedikdə, çekin elə bir forması başa düşülür ki, bu zaman çekin məbləği çek verən

təşkilat tərəfindən əvvəlcədən ayrıca hesabda bronlaşdırılır, yəni bu vəsait toxunulmazdır. Yalnız həmin çeklər təqdim olunduqda ödəniş aparıla bilər.

Çeklərlə hesablaşma zamanı çek verən, çek doldurulduqdan sonra çek alanla birlikdə həmin çeki benefisiar banka təqdim edir.

Çeklərlə hesablaşma zamanı sənəd dövriyyəsi aşağıdakı kimi həyata keçirilir. Mal-material qiymətlisi alan müəssisə hesablaşma çeki yazaraq onu mal satana təqdim edir. Çekdə ödəniş məbləği, ödəniş alanın adı, çekin yazıldığı yer, ödənişin aparılma tarixi göstərilməlidir. Yazılmış çek çekverənin imzası ilə və möhürü ilə rəsmiləşdirilir. Mal satan mal alandan çeki qəbul etdikdən sonra çekdəki vəsaitin öz hesabına daxil edilməsi üçün onu özünə xidmət edən banka təqdim edir.

Akkreditivlər.

Akkreditiv – alıcı bankının alıcının akkreditiv (vasitəsilə aparılan hesablaşmadır) ərizəsində göstərdiyi şərtlərlə ona göndəriləsi malın və göstərilən xidmətin dəyərinin satıcıya ödənilməsi haqqında satıcı bankına verdiyi tapşırıqdır. Akkreditivin fəaliyyət müddəti bank tərəfindən məhdudlaşdırılır və onun fəaliyyət müddəti satıcı ilə alıcı arasında bağlanan müqavilə ilə müəyyən edilir. Akkreditiv qaydasında hesablaşmanın bir xüsusiyyəti də ondadır ki, ödəniş satıcının yerləşdiyi yerdə aparılır. Akkreditiv vasitəsilə hesablaşmanın üstünlüyü ondadır ki, ödənişə zəmanət verilir, lakin əvvəlcədən ödəniş forması deyildir. Belə ki, akkreditiv məbləği satıcının hesablaşma hesabı olduğu bankda bronlaşdırılır və satıcı əmin olur ki, onun yola saldığı malların dəyəri yola salınma sənədləri banka təqdim olunan kimi ödəniləcəkdir.

Banklar tərəfindən aşağıdakı növdə akkreditiv açıla bilər:

- örtülən (deponlaşdırılmış), örtülməyən (zəmanətli);
- çağrılan və çağrılmayan.

Akkreditiv açmaq üçün aplikant – yəni akkreditivin açılması üçün sərəncamla emitent banka müraciət edən alıcı banka ərizə ilə müraciət edir. Ərizədə aşağıdakılar göstərilməlidir:

- akkreditivin məbləği, akkreditivin müddəti, ödənişin hüquqi əsası, mal və xidmətlərin adı, qiyməti və sayı.

Göstərilən rekvizitdən biri olmadıqda emilent bank tərəfindən akkreditiv açılmır.

Akkreditiv açılması haqda məlumat satıcı təşkilata poçt akkreditivi formasında 2 üsul ilə çatdırıla bilər:

1) xidmət göstərən bank vasitəsilə;

2) benefisiar vasitəsilə təqdim etmək yolu ilə birinci halda akkreditiv ərizəsi 4 nüsxədə, ikinci üsulda isə 3 nüsxədə tərtib edilir: hər 2 halda ərizənin ikinci nüsxəsi bankın möhürü ilə təsdiqlənərək üçüncü nüsxə ilə birlikdə satıcıya çatdırılır. Birinci halda o, hesablaşma – kassa mərkəzi vasitəsilə və ya poçtla, ikinci halda isə aplikantın müvəkkillərinə verilir ki, o da öz növbəsində ərizənin ikinci nüsxəsini benefisiara verir. Üçüncü nüsxəni isə özündə saxlayır.

Ödəniş tələbnamə tapşırığı vasitəsilə aparılan hesablaşmalar bankın inkasso əməliyyatı ilə əlaqədardır.

İnkasso əməliyyatı zamanı ödəmə tələbnamə tapşırığı müəssisə tərəfindən ona xidmət edən banka təqdim olunur və ödəniş üçün həmin hesablaşma sənədləri satıcıya xidmət edən bank vasitəsilə alıcı bankına göndərilir. Satıcı təşkilat həmin sənədi özünə xidmət göstərən banka təqdim etmədən ödəyici təşkilata da göndərə bilər. Göründüyü kimi bu formada hesablaşma əməliyyatları və yaxud hesablaşmanın aparılma təşəbbüsü satıcı təşkilata məxsusdur və ondan başlanır. Ona görə də hesablaşmaların təşkili prinsipinə görə ödəniş üçün təqdim olunan tələbnamələr ödəyicinin razılığı əsasında ödənilməlidir. Yəni ödəyici tərəfindən akseptləşdirilməlidir. Ona görə də hesablaşmanın bu forması aksept hesablaşma forması kimi qəbul edilmişdir. Ödəyicinin razılığını almaq məqsədilə ödəyici bankında həmin tələbnamə xüsusi jurnalda qeydiyyatdan keçirilir və intizam qaydasında akseptləşdirmək üçün, yəni ödənişə münasibətləri bildirmək üçün ödəyici təşkilata verilir.

5. Plastik kartlarla hesablaşmalar. Müştərilərlə elektron pul hesablaşmalarının aparılma aləti kimi plastik kartlar çıxış edir. Hazırda plastik kartlar ödəniş vasitəsi kimi çıxış etməklə yanaşı müəssisəyə, kompyuter şəbəkəsinə giriş, ticarət şəbəkəsindən güzəşt əldə etmək hüququ verən sənəd kimi istifadə

edilir. İşlənmə texnologiyası və məlumat ötürülməsi baxımından plastik kartları: maqnit zolaqlı və mikroprosessor quruluşlu elektron kartlara bölünür. Plastik kartların çoxfunksiyalı lazer və ya optik növləri də mövcuddur.

Bütün plastik kartların üzərində müəyyən rəmz və elementlər mövcuddur:

1. Ödəniş sisteminin rəmzi. Bu rəmz kartın və ya digər ödəniş sisteminə aidiyyətini göstərir. Müştəri öz kartı ilə bankomatlardan nağd pul çıxara, aldığı məhsul və xidmətlərin haqqını ödəyə bilər.

2. Müştəri bankının loqotipi.

3. Kartın nömrəsi. Kartın 16 rəqəmli nömrəsi onun unikallığına zəmanətdir.

4. Kartın qüvvədə olma müddəti 1 ildən 3 ilədəkdir.

5. Kart sahibinin adı və soyadı.

6. Maqnit lenti və ya çip. Bunlar kartın ürəyidir və unikal məlumatın daşıyıcısıdır.

7. Kağız lent. Kartı alarkən bu lentin üzərində qol çəkin.

Plastik kartlarla hesablaşmalar hazırda müəyyən üstünlüklərə malikdir:

- ölkə daxilində və xaricində hər cür alış-veriş əməliyyatları aparmaq imkanı;
- ölkə daxilində və xaricində ATM və məntəqələrdən nağd pul almaq imkanı;
- xarici səfərlərə gedərkən nağd pul aparmağa ehtiyac yoxdur, pulu yerli valyutaya dəyişərkən saxta əskinasları almaq təhlükəsi olmur. ATM-lərdən istifadə edərkən müştəri avtomatik olaraq olduğu ölkənin valyutasını alır. Əməliyyatlar müştərinin olduğu ölkənin Mərkəzi Bankının rəsmi kursu ilə aparılır.
- xarici səfərlərə gedərkən kart müştərini öz pullarını deklarasiya etməkdən azad edir.
- hesabından çıxarış almaqla müştəri büdcəsinə və xərclərinə nəzarət edir.
- ticarət və xidmət müəssisələrinin bir qismi eyni bankın kartlarına sahib olan müştərilərinə bir sıra güzəştlər verir.

- plastik kart müştərini pulların saxlanılması və daşınması zamanı onların oğurlanmasından və itirilməsindən qoruyur.

Kartların növləri.

Debet kartları bankomat və ya bank filiallarının kassalarında yerləşən POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınması üçün istifadə edilirlər. Kartlar debet rejimində işləyir, yəni ancaq kart hesabında faktiki olan məbləğ daxilində xərclər aparmaq və ya bankomatlardan nağd pul çıxarmaq imkanını verir.

Azərbaycanda və dünyanın bir çox ölkələrində debet kartları alınan məhsul və xidmətlərin haqqının ödənilməsi üçün də istifadə edilirlər. Azərbaycanda əsasən aşağıdakı debet kartlardan istifadə olunur:

- VİSA Elektron
- CİRrus Maestro

Bu plastik kart növləri debet rejimində işləyir və banklardan, bankomatlardan (ATM) nağd pul götürülməsi, POS-terminal qoyulmuş mağazalarda, restoran və təşkilatlarda ödənişlərin aparılması üçün istifadə edilə bilər. Bu kartlar dünyada ən geniş yayılmış kartlardır. Əməliyyatlar debet rejimində aparıldıqda müştərinin kart hesabından göstəricilər soruşulur. Yalnız hesabda kifayət qədər vəsait olduqda ödəniş aparılır.

Kredit kartları öz sahibinə daha çox sərbəstlik verir: lazım olduqda kart sahibi hesabında olduğu məbləğdən daha çox vəsait xərcləyə bilər, lakin yalnız bank tərəfindən təyin olunmuş kredit limiti çərçivəsində. Kredit kartları bankomat və ya bankın filiallarının kassalarında yerləşən POS-terminallar vasitəsilə nağd vəsaitlərin alınması üçün istifadə edilə bilər. Kredit kartları öz sahibinin maliyyə cəhətdən sabitliyini göstərir. Kredit kartları həmçinin internet şəbəkəsində də ödəniş üçün qəbul edilirlər.

Elə klassik kartlar vardır ki, istər debet, istərsə də kredit rejimində işləyir, ona görə də dükanlarda, mehmanxana, restoran və təşkilatlarda ödəniş aparılması və ya banklardan, bankomatlardan nağd pul götürülməsi üçün istifadə edilə bilər. Müştərinin Bankda müddətli depoziti olduqda onun istəyi ilə kart üzrə kredit xətti açıla bilər. Bunlardan başqa müştəri bu kartlardan istifadə edərkən İnternet və

telefon vasitəsilə malların və xidmətlərin pulunu ödəməyə, aviabiletləri, mehmanxanalarda otaqları və s. kimi xidmətləri sifariş etmək imkanına malik olur.

Plastik kartlarla iş vaxtı nağd pulun verilməsi və inkasso edilməsi üçün bank avtomatlarından, yəni bankomatlardan istifadə edilir. Kommersiya məqsədilə ATM ilk dəfə olaraq 1968-ci ildə istifadəyə verildi. ATM plastik kartlarla əməliyyatlar zamanı nağd pulların verilməsi, məhsul, iş və ya xidmətlərə görə nağdsız ödənişin həyata keçirilməsi və inkassasiya üçün nəzərdə tutulmuş bank avtomatlarıdır.

Bankomatlar 2 rejimdə işləyə bilir: offline və online

Birinci rejimdə işləyərkən bankomatlar real zaman rejimində Mərkəzi Bank sistemi ilə əlaqədə olmur və müstəqil işləyir. Adətən belə rejimdə işləyən bankomatlar aparılmış əməliyyat haqqında məlumatı öz yaddaşında və kartın maqnit lentində saxlayır. Bu rejimdə işləyən ATM-ə xüsusi işçi – bankın kassiri nəzarət edir və o, vaxtaşırı bankomata pul qoyur, həmçinin bankomatın yaddaşına vaxtı keçmiş hesablar, ödənişlər, itmiş kartlar haqqında məlumatı daxil edir.

Online rejimdə müxtəlif protokollardan istifadə edərək kommutasiya olunmuş xətlərlə və ya telefon kanalları vasitəsilə bankomatlar bank sistemi ilə birbaşa əlaqədə olur. Bu rejimdə bankomat istifadəçiyə onun cari hesabı haqda məlumat verə bilir. Bankomatlarda pullar xüsusi seyflərdə yerləşən kasetlərdə saxlanılır. Kasetlərin sayı bankomatda verilən əskinas nominalının sayı ilə müəyyən olunur.

Movzu 5

Pul sistemi, emissiya və pul kütləsi

1. Pul sisteminin mahiyyəti, elementləri və ünsürləri

2. Emissiya anlayışı və onun növləri

3. Pul kütləsi və onun quruluşu

4. Kağız pullar

5. Kredit pullar

1. Pul sisteminin mahiyyəti, elementləri və ünsürləri. Pul sistemi – bu və ya digər ölkədə tarixən formalaşmış və qanunla təsbit olunmuş pul tədavülünün təşkili formasıdır.

Hər bir ölkənin qanunvericiliyi milli pul sisteminin əsas ünsürlərini müəyyən edir:

- pul vahidinin adı;
- qiymət miqyası;
- qanuni ödəniş qüvvəsinə malik dövlət pul nişanlarını, onların emissiya və tədavülü qaydalarını;
- nağdsız dövriyyənin reqlamentləşdirilməsini;
- pul tədavülünün tənzimlənməsini həyata keçirən dövlət aparatını.

Pul sistemləri daim inkişafdadır və bu da pul sistemi ünsürlərinin dəyişilməsinə səbəb olur. Pul sisteminin ünsürü pulun hansı formada - əmtəə kimi, yoxsa dəyər nişanı kimi funksiyada çıxış etməsindən asılıdır.

Metal dövriyyəsi üçün pul sisteminin 2 ünsürü xarakterikdir: bimetalizm və monometalizm.

Bimetalizm – elə pul sistemidir ki, burada 2 metalın – qızıl və gümüşün – qarşılığında ümumi ekvivalent rolu qanunvericiliklə təsbit olunur, bu metallardan sikkələrin kəsilməsi və tədavülü isə bərabər əsaslarla baş verir.

Monometalizm elə pul sistemidir ki, bu zaman bir metal ümumi ekvivalent rolunu oynayır, dövriyyədə isə qiymətli metallar üçün sikkələr (adətən qızıl və gümüş) və əvəzlənən (xırdalayıcı) dəyər nişanları fəaliyyət göstərir.

Müasir pul sistemlərinin ünsürləri:

1. Pul vahidi
2. Pul nişanlarının təmin edilməsi qaydası
3. Emissiya mexanizmi
4. Tədavüldəki pul kütləsinin quruluşu
5. Proqnoz planlaşdırma
6. Pul-kredit tənzimlənməsi mexanizmi
7. Valyuta kursunun müəyyən edilməsi
8. Təsərrüfatda kassa intizamı qaydası.

Pul sisteminin tipləri

Bimetalizm	Monometalizm
Dövlət pul sistemini ümumi ekvivalentlə 2 metala həvalə etmişdir (mis və gümüş; gümüş və qızıl)	Pul sistemində 1 metal ümumi ekvivalent rolunu oynayır
Xüsusiyyətlər	
1. 2 metaldan sərbəst sikkə kəsilməsi, onların məhdudiyyəti tədavülü. 2. 2 qiymət fəaliyyət göstərir. 3. XVI-XVII əsrlərdə bəzi Qərbi Avropa ölkələrində XIX əsrdə qeyri-məhsuldan hərbi xərclərin iri həcmdə artması və büdcə çatışmamazlığı ilə əlaqədar fəaliyyət göstərmişdir.	1. Bir metaldan sərbəst sikkə kəsilməsi (qızıl və ya gümüş). 2. 1 qiymət fəaliyyət göstərir (qızıl və ya gümüş). 3. Əvvəlcə gümüş, sonra isə qızıl.

Əksər dövlətlərin müasir pul sistemləri üçün xarakterikdir:

- qiymətli metalların daxili və xarici dövriyyədən çıxarılması nəticəsində onlarla əlaqənin kəsilməsi;

- mahiyyətinə görə kredit pullara yxınlaşan qızılla əvəzlənməyən kredit pulların ağalığı;
- ölkənin iqtisadiyyatını kreditləşdirmə qaydası ilə və rəsmi qızıl valyuta ehtiyatlarının buraxılması;
- nağdsız pul dövriyyəsinin geniş inkişafı və nağd pul dövranının ixtisar edilməsi;
- xroniki inflyasiya;
- pul tədavülünün dövlət tənzimlənməsi.

2. Emissiya anlayışı və onun növləri. Emissiya sözün geniş mənasında pulun qiymətli kağızların, tədiyyə-hesablaşma sənədlərinin, plastik kartların və s. dövriyyəyə buraxılması ilə bağlıdır. Faktiki olaraq pul emissiyası bütün formalarda pulun tədavülə buraxılmasından ibarətdir ki, bu da büdcə və kredit emissiyası ola bilər.

Büdcə emissiyası (adətən xəzinədarlıq tərəfindən) xəzinə biletlərinin və dövlət qiymətli kağızlarının dövlət büdcəsinin kəsirlərini maliyyələşdirmək üçün tədavülə buraxılması ilə bağlıdır. Xəzinə biletləri və dövlət öhdəlikləri adətən heç nə ilə təmin olunmayıb və buna görə də kağız pullar adlanır. Bu zaman buraxılmış kağız pulların nominal dəyəri ilə onların hazırlanmasına sərf olunmuş xərclərin fərqi dövlətin büdcə xərclərinin ödənilməsi üçün istifadə olunan gəlirlərindən ibarətdir. Büdcə emissiyası real təsərrüfat dövranının tələbatı ilə deyil, büdcə kəsrinin həcmi ilə şərtlənir. Ona görə də dövriyyəyə çıxarılan əlavə pul nişanları bütün pul kütləsinin qiymətdən düşməsinə səbəb olur.

Kredit emissiyası (banklar tərəfindən həyata keçirilən pul emissiyası) kredit münasibətləri əsasında əmələ gələn kredit pullarının dövriyyəyə daxil olması ilə bağlıdır. Kredit pullar ödəniş vasitəsi kimi pulun funksiyasının bazasında inkişaf etmişdir və bu zaman mübadilə kontragentlərindən biri sonradan ödəniş şərti ilə əmtəəni digər kontragentə verməyi mümkün hesab edir.

Kredit emissiyasının əsas məqsədi pul dövriyyəsinin bankların hesablarında qalıq şəklində olan zəruri miqdarda ödəniş vasitəsilə təmin etməkdən ibarətdir. Kredit emissiyalarına nağdsız formada pul dövriyyəsinin ödəniş vasitəsi məbləğilə

nağdsız formada doldurulması kimi baxılır və banknotların pul dövriyyəsinə əlavə buraxılışı formasında ödəniş vasitəsilə məbləğinin pul dövranının tamamlanması hesab edir.

Kredit pullar, onların məbləği təsərrüfat dövriyyəsinin artımı bərabər inkişaf edirsə, onda "tamdəyərli" sayılır. Kredit pullarının təsərrüfat dövriyyəsi tələbatından artıq buraxılması inflyasiyaya səbəb olur. Bu, xüsusilə qısamüddətli dövlət öhdəlikləri, ümidsiz borcların meydana çıxması, kreditlərin vaxtının uzadılması ilə bağlıdır. Son hesabda bütün bunlar pul kütləsinin əsaslandırılmamış artımına səbəb olur.

Nağd pulların emissiyası ilk növbədə cari qiymətdə əmtəə dövranının artması ilə bağlıdır, çünki bu pullar əsasən istehlak bazarındakı əməliyyatlara xidmət edirlər. Ona görə də dövriyyəyə buraxılan nağd pul nişanlarının həcmi, bir tərəfdən nominal əmtəə mübadiləsinin artımına, digər tərəfdən isə - əhalinin nağd pula olan tələbatına proporsionaldır. Nağd pulların həcmi qiymətlərin miqyasının genişlənməsi ilə artır, lakin bu halda müəyyən əks fəaliyyət göstərən amil rolunu pul nişanlarının dövriyyəsinin sürətinin artması təşkil edə bilər. Eyni zamanda inflyasiya şəraitində əhali əmək haqqı və digər gəlirləri artır. Bu zaman əhali tərəfindən alınan pullar, bir qayda olaraq ticarət təşkilatının onu alıb banka ötürməsindən daha artıq müddət ərzində onların özlərində qalır. Ona görə də nağd pul kütləsinin daha əhəmiyyətli səbəbi, istehlak qiymətlərinin artmasından daha çox əhalinin müəyyən miqdarda nəğd pulların lazımi hissəsinin onda qalmasına olan tələbatının artmasıdır, hərçənd özlüyündə ikincisi birincinin qanunauyğun nəticəsidir.

İnkişaf etmiş dövlətlərdə qanunverici hal kimi dövlətin nümayəndəsi olaraq Mərkəzi Bankın emissiya inhisarçılığı yalnız banknotlar və bir sıra hallarda sikkələr üzərində qoyulur.

Banknot emissiyası dövlətin borc öhdəliklərinin buraxılmasından onunla fərqlənir ki, banknotlar qanuni ödəniş vasitəsi kimi istifadə oluna bilər və onlar üçün faiz ödəmək lazım deyil. Adətən MB bütün ölkə ərazisində banknot emissiyası üçün inhisara malikdir.

3. Pul kütləsi və onun quruluşu. Pul kütləsi məfhumu bazar iqtisadiyyatının makroiqtisadi təhlili üçün baza sayılır. Pul kütləsinə tədavüldəki nəğd pullar daxildir. Bankların kassalarında olan nağd pulları pul kütləsinə daxil etmirlər, çünki onlar hələlik pul dövriyyəsinə daxil edilməyiblər. Nağd pullarla yanaşı pul kütləsini əhalinin, müəssisə, idarə və təşkilatların bank depozitləri və əmanətləri əmələ gətirir. Bunlar öz likvidliklərinə görə pul kütləsinə daxil edilir. Eyni zamanda təkrar hesablamadan yayınmaq məqsədilə hökumətin və bankların depozitləri pul kütləsinə daxil edilmir, amma bankların digər öhdəlikləri (depozit sertifikatları), qiymətli kağızlar və s. pul kütləsinə daxil edilir.

Pul kütləsi məfhumu pul aqreqatları adlandırılan müxtəlif qruplu likvidlik aktivlərin köməyi ilə konkretləşdirilir. Ona görə də məcmu pul dövriyyəsinin və onun ayrı-ayrı komponentlərinin kəmiyyət xarakteristikası təsərrüfat dövranına xidmət göstərilməsi üçün istifadə oluna biləcək həm real, həm də potensial pul vəsaitlərinin daxil olduqları pul kütləsinin müxtəlif aqreqatlarının fərqləndirilməsinin əsas meyarı likvidlikdir.

Müasir depozitlərin həcmi bankların anbarlarındankı banknotların kəmiyyətindən artıqdır, yəni yeni pul formasını nəinki sadəcə yerləşdirir, həm də "köhnə" pulları multiplikasiya edirlər. Bu, M_1 – dövriyyədəki nağd pullar + tələb olunanadək depozitlər (faiz gətirməyən) + digər çek depozitləri (faiz gətirənlər) pul aqreqatının formalaşmasına gətirib çıxarmışdır.

Kredit pulların meydana gəlməsi məhdud likvid passivlərin formalaşmasını tələb etdi ki, bu da M_2 – M_1 üstəgəl olmadan müddətli əmanətlər (faiz gətirənlər) üstəgəl çeklərdən istifadə etmək hüququ tələb olunanadək əmanətlər (faiz gətirənlər) üstəgəl pul bazarının qarşılıqlı fondları və depozit hesabları üstəgəl geriyə alma haqqında bir günlük razılaşmalar üstəgəl avrodollarda birgünlük borclar pul aqreqatının yaranmasına səbəb oldu.

Kredit resurslarına olan tələbatın artması M_2-yə daxil olan elementlərin multiplikasiyasının nəticəsi kimi heç də az likvidli olmayan pul formalarının yaradılmasını tələb etdi. Bütün bunlar M_3 = M_2 + depozit sertifikatları +

avrodollarda müddətli borclar + pul bazarının qarşılıqlı fondlar aksiyası pul aqreqatının yaranmasına gətirib çıxardı.

Pul dövriyyəsində baş verən proseslərin təhlili üçün nağd pulların bankın kassalarına qayıtması və aşağıdakı düsturla müəyyən edilən "yığıma meyl" göstəricisindən istifadə etmək olar:

$$S_v = \frac{\frac{M_n + M_k}{2} \cdot K_d}{P_k}$$

burada , S_v – nağd pulların bankın kassalarına qayıtma sürəti, gün;

M_n və M_k – müvafiq olaraq dövrün başlanğıcı və sonuna olan nağd pullar;

K_d – hesabat dövrü üzrə kassa dövriyyəsi üzrə geniş mədaxildir.

$$S_s = \frac{V_n}{P_{n.d.}}$$

burada S_s - əhalinin yığıma meylliliyi, V_n - əhalinin banklardakı əmanətləri, $P_{n.d.}$- milli gəlirin artmasıdır.

Pulun bankın kassalarına qayıtması sürətinin azalması əlavə nağd pulların tədavülə buraxılmasını, qayıtmanın sürətlənməsi isə əksinə, onların buraxılmasını azaltmağı tələb edir.

Azərbaycanda pul dövriyyəsinin xüsusiyyətlərini nəzərə alan pul aqreqatlarının təsnifatı aşağıdakı kimidir:

M_0 - əhalinin əlində və təsərrüfat sübyektlərinin kassalarındakı da daxil olmaqla dövriyyədəki nağd pullar.

M_1 - dövriyyədəki nağd pullar (M_0) + əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının tələb olunanadək depozitləri.

M_2 (genişləndirilmiş pullar) - M_1 + əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının müddətli depozitləri.

M_3 (milli valyutada pul kütləsinin ümumi məbləği) - M_2 + digər (məqsədli yığım üçün) bank depozitləri və əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının kağız pullardakı vəsaitləri.

M_4 (xarici valyuta da daxil olmaqla pul kütləsinin ümumi məbləği). M_3 + əhalinin, təsərrüfat subyektlərinin və yerli idarə orqanlarının (tələb olunanadək, müddətli və digər) xarici valyutadakı depozitləri.

Bu halda M_0, M_1, M_2 aqreqatları pul kütləsinin daha çox likvid hissəsini xarakterizə edir, yəni pul dövriyyəsinin ilkin satış, konversiya və ya hər hansı digər maliyyə əməliyyatı olmadan bütün vəsaitləri hesablaşmalarda istifadə olunur. Hazırda pul kütləsinin strukturunda ən çox xüsusi çəkisi olan dövriyyədə, hüquqi şəxslərin hesablaşma və cari hesablarında, əhalinin kommersiya banklarındakı əmanətlərində olan nağd pullardır. Pul kütləsinin diğər aqreqatları (M_3, M_4) əsasən inkişaf mərhələsindədir.

4. Kağız pullar. Kağız pulların meydana gəlməsi sənaye və ticarətin daha da inkişaf etməsi ilə bağlı idi. Təmiz metal dövriyyəsi dövlətə çox baha başa gəlirdi və son hesabda imkansızlıqla nəticələnirdi, belə ki, qiymətli metalların hasilatı həmişə təsərrüfatın tədavül vasitələrinə tələbatına olan artımdan geri qalır. Ona görə də metal pulların kağız dəyər nişanları ilə dəyişdirilməsi tədavül xərclərinə qənaət etməyə imkan verir.

Kağız pulların təbiəti ondan ibarətdir ki, onların sərbəst dəyəri yoxdur, belə ki, onların çap olunması ilə bağlı əmək itkisi onların dəyərini ifadə etdiyi mallarla müqayisədə cüzidir. Ona görə də kağız pullar öz dəyəri sayəsində dövriyyə edən qızıldan fərqli olaraq, yalnız özlərinin dövriyyəsi prosesində əsl dəyərini alır.

Kağız pullar tam dəyəri ilə dəyər ölçüsü funksiyasını yerinə yetirə bilməz, çünki özlərinin dəyəri yoxdur. Onlar tədavül vasitələri və ödəniş vasitələri funksiyasını yerinə yetirirlər, qızıl standart ləğv edildikdən sonra isə yüksək inflyasiya olmadıqda həm də yığım funksiyası rolunu oynayır.

Öz təbiətlərinə görə kağız pullar qeyri-sabitdir, belə ki, onların özlərinin dəyəri yoxdur, tam dəyəri olmayan pulların emissiyası heç də həmişə tədavülün pula olan real tələbatı ilə tənzimlənmir, bu zaman tədavüldə olan pul kütləsinin kortəbii tənzimlənmə mexanizmi fəaliyyət göstərmir, çünki kağız pullar metal pullar qədər yığım funksiyası rolunu oynamır. Ona görə də kağız pullarla pul tədavülü qanunlarının fəaliyyəti qiymətyaratma mexanizmi vasitəsilə həyata

keçirilir. Məsələn, kağız pullar kütləsinin tədavülün tələbatından artıq çoxaldıqda onların nüfuz dəyərləri azalır və pulların qiymətdən düşməsi baş verir.

Kağız pulların dayanıqlığının təmin olunması ilk növbədə dövriyyədəki pul kütləsi ilə ona qarşı olan əmtəə kütləsi və pullu xidmətlər arasında obyektiv şərtlənmiş mütənasibliyin göründüyü halda xarakterikdir. Pul kütləsi ilə əmtəə kütləsi arasında mütənasibliyin qorunması dövlət büdcəsinin kəsirsizliyini şərtləndirir. Kəsrin olduğu halda isə onu daxili borc və "artıq" pul emissiyası ilə kompensasiya etmək lazım gəlir.

5. Kredit pullar və ya kredit tədavül aləti – kredit əsasında meydana gələn kağız dəyər nişanlarıdır.

Müasir şəraitdə kredit pulların böyük hissəsi müxtəlif hesablardakı vəsaitlərdən ibarətdir. Kredt pulların əsas emitenti bank sistemidir və o, pul kütləsini təkcə müxtəlif borc öhdəliklərinin buraxılması ilə deyil, həm də xəyali əmanətlər yazmaq yolu ilə formalaşdırır. Əmanətin xəyali xarakterinə baxmayaraq, o real pul formasını ala bilər. Kredit pulların və ya kredit tədavül alətlərinin 3 əsas növü göstərilir: veksel, banknot və çek.

Veksel – çox ciddi formada müəyyən olunmuş yazılı borc öhdəliyidir ki, bu da sahibinə müəyyən müddət keçdikdən sonra borcludan göstərilən pul məbləğini qeyri-şərtsiz tələb etmək hüququ verir.

Banknot kredit pulların əsas növlərindəndir. Qızıl monometalizm şəraitində banknot bankirə verilən vekseldən başqa bir şey deyil və təqdimatçı istənilən vaxtda onunla pul ala bilər və ya bankir özəl vekselləri dəyişdirir. Bu müəyyənləşdirmədə klassik banknotun 2 xarakterik əlaməti aydın göstərilib ki, banknot kommersiya vekselləri əvəzinə emissiya bankı tərəfindən buraxılır və ilkin tələblə qızılla əvəzlənir.

Qızıl monometalizm şəraitində banknotlar kredit pullardan fərqlənir: buraxılış subyektinə görə, təminata görə, buraxılış qaydasına görə, tədavül qanunauyğunluğuna görə.

Çek bankda cari hesab sahibinin nəğd və ya başqa şəxsin cari hesabına köçürmə yolu ilə müəyyən məbləğdə banknotun köçürülməsi haqqında yazılı

əmridir. Çekin əsasında banknot təminatı durur. Çek bankda cari hesabdan nağd pullar almaq vasitəsilə, tədavül və alınmış malın ödənməsi vasitəsi, eləcə də borcun ödənilməsi və nağdsız hesablaşma vasitəsi sayılır. Çek dövriyyəsi kredit əməliyyatlarının genişləndirilməsi, bank sisteminin mərkəzləşdirilməsi və Mərkəzi Bankın kredit sisteminin əsasına çevrilməsi bazasında meydana çıxmış və inkişaf etməkdədir.

Movzu 6

İnflyasiya. Pul islahatları və digər antiinflyasiya tədbirləri

1. İnflyasiyanın mahiyyəti, səbəbləri və amilləri

2. İnflyasiyanın hesablanması

3. İnflyasiyanın növləri, təzahür formaları

4. İnflyasiyanın nəticələri

5. İnflyasiyanın tənzimlənməsi

1. İnflyasiyanın mahiyyəti, səbəbləri və amilləri. Latın mənşəli söz olan inflyasiya anlayışı "şişmə", "köpmə" mənasını verir.

Müasir dövrdə inflyasiya istənilən iqtisadi inkişaf modeli üçün səciyyəvidir. Son nəticədə inflyasiya milli valyutanın dəyərsizləşməsi prosesidir. Ümumi mənada, ənənəvi olaraq, inflyasiya tədavüldəki pul kütləsinin əmtəə dövriyyəsinin tələbatlarından artıq olması və bunun davamı olaraq pul vahidinin dəyərsizləşməsi və qiymətlərin müvafiq qalxması kimi səciyyələndirilir.

İnflyasiya inkişaf səviyyəsindən və xüsusiyyətlərindən asılı olmayaraq bütün bazar iqtisadiyyatlı ölkələrdə pul tədavülü qanununun pulun dəyərsizləşməsində və qiymətlərin ümumi səviyyəsinin qalxmasında təzahür olunan pozulmasıdır.

İnflyasiya mexanizmi aşağıdakı amillərlə bağlıdır:

1) iqtisadiyyatın silsiləvi inkişafı

2) inhisarçı qiymət əmələ gəlməsi

3) iqtisadiyyatın hərbiləşdirilməsi səviyyəsi

4) dövlət maliyyəsinin böhranı

5) iqtisadiyyatın dövlət tənzimlənməsi

6) kredit ekspansiyası və hədsiz investisiyalar

7) tədavüldəki pulun miqdarı

8) xərclərin artması

9) inflyasiyanın xarici iqtisadi amilləri

2. İnflyasiyanın hesablanması. Müasir iqtisadiyyatda xroniki inflyasiyanın müəssisələrin və maliyyə-kredit təşkilatlarının fəaliyyət nəticələrinə dövlət və

əhalinin gəlirlərinə təsirinin nəzərə alınması zərurəti yaranır. İnflyasiyanın kəmiyyətcə qiymətləndirilməsi üçün aşağıdakı göstəricilərdən istifadə olunur.

1) inflyasiyanın səviyyəi.

İnflyasiyanın səviyyəsi qiymətlərin orta səviyyəsinin nisbi dəyişməsidir. İnflyasiyanın səviyyəsi qiymətlərin müəyyən dövr ərzində neçə faiz qalxmasını göstərir:

$$R = \frac{P_1 - P_0}{P_0} \cdot 100\%$$

P_0 və P_1 – qiymətlərin keçən ilki və bu ilki səviyyəsidir.

Açıqlaması: cari ilin inflyasiya sürətini hesablamaq üçün cari ilin qiymətlər indeksi ilə keçən ilin indeksi arasındakı fərqi keçən ilin indeksinə bölürük.

2) inflyasiyanın indeksi.

Bu indeks qiymətlərin müəyyən dövr ərzində neçə dəfə qalxdığını göstərir:

$$İ = İ + R/100$$

Daha çox ÜDM indeksi, topdansatış qiymətləri indeksi və istehlak qiymətləri indeksindən istifadə edilir.

Qiymətlərin ümumi səviyyəsinin ölçülməsi üçün ÜDM qiymətləri indeksindən istifadə edilir. O, ÜDM deflyatoru adlanır. Bu indeks cəmiyyətdə istehsal edilmiş bütün yekun mal və xidmətləri əhatə etdiyindən cəmiyyətdəki qiymət dəyişikliklərini daha dolğun əks edir. ÜDM-in faktiki qiymətlərlə həmçinin həmin ÜDM-in baza qiymətlərdəki həcminə nisbətini ifadə edən ÜDM deflyatoru Paase indeksi üzrə aşağıdakı kimi hesablanır.

$$\text{ÜDM deflyatoru} = (\text{Nominal ÜDM} / \text{Real ÜDM}) \times 100\%$$

Nominal ÜDM cari ildə cari qiymətlərlə xərcləri, real ÜDM isə cari ildə baza ilin qiymətləri ilə xərcləri bildirir.

Topdansatış qiymətləri indeksi qiymətlərin zamana nisbətini ifadə edir.

İstehlak qiymətləri indeksi orta istehlakçının büdcəsinə daxil edilən və onun yaşayış minimumunu təşkil edən mal və xidmətlərin müəyyən dövr üçün qiymətlərinin orta səviyyəsinin ölçülməsi üçün tətbiq edilir. Bu göstəricini həm də həyatın dəyəri indeksi də adlandırırlar.

İstehlak qiymətləri indeksi Laspeyres indeksi üzrə aşağıdakı kimi hesablanır:

Qiymətlər indeksi = (Cari ilin bazar səbətinin qiyməti / Baza ilin bazar səbətinin qiyməti) × 100%

3. İnflyasiyanın növləri, təzahür formaları. İnflyasiyanın təsnifatı müxtəlif meyarlara əsaslanır. İnflyasiyanın pul və qeyri-pul amillərinin təsiri altında yaranması mümkünlüyü onun 2 növünün fərqləndirilməsinə səbəb olur:

1) tələb inflyasiyası. O, pullu tələbin əmtəə təklifindən çox olmasını yaradan pul amillərinin təsirindən irəli gəlir.Başqa sözlə, məcmu tələbin istehsalın real həcmi ilə müqayisədə artıq olması tələb inflyasiyasını ortaya çıxarır. Səbəb odur ki, məcmu tələbin genişlənməsi şəraitində istehsal güclərinin tam yüklənməsi səbəbindən təklifi artırmaq mümkün olmur. Pullu tələbin genişlənməsi iqtisadiyyatın hərbiləşdirilməsi və hərbi xərclərin artması, dövlət büdcəsi kəsri və daxili borcunun böyüməsi, bankların kredit ekspansiyası, hədsiz investisiyalar, idxal edilmiş inflyasiya üzündən əmələ gəlir.

2) xərclər inflyasiyası. Onun yaranması və inkişafı maddi istehsal müstəvisində olan amillərin təsiri ilə baş verir. O, xammal, material və yanacağın bahalaşması, həmkarlar ittifaqının təzyiqi altında əmək haqqlarının qalxması, inhisarçı qüvvələrin təsirinin güclənməsi səbəbindən xərclərin, yəni maya dəyərinin artmasına və qiymətlərin qalxmasına, bunun ardınca isə pul kütləsinin genişlənməsinə səbəb olan qeyri-pul amillərindən irəli gəlir. İstehsal edilən məhsulun hər vahidinə düşən xərclərin artması qiymətlərin mövcud səviyyəsi şəraitində istehsalçıların təklif etdikləri məhsulun həcmini azaldır.

Lakin qiymətqoyma prosesinə başqa qeyri-pul amilləri də təsir göstərə bilər:

a) əmək məhsuldarlığının aşağı düşməsi və istehsalın azalması;

b) xidmət sahəsinin məhsuluna tələbin artması;

c) qlobal enerji böhranları.

Qiymətlərin artım sürətindən asılı olaraq inflyasiyanın 3 növünü fərqləndirirlər:

1) mötədil (mülayim) inflyasiya. Qymətlərin orta illik artım sürəti 100%-ə qədərdir.

2) çaparaq inflyasiya. Qiymətlərin artım sürəti 10%-dən 100%-ə çatır. İqtisadiyyat üçün təhlükəlidir, təcili antiinflyasiya tədbirləri görülməlidir.

3) hiperinflyasiya. Qiymətlərin orta illik artım sürəti 100%-dən çoxdur.

Antiinflyasiya siyasətinin məzmunundan, təsir gücündən, tətbiq edilən metod və alətlərdən asılı olaraq açıq və gizli inflyasiyanı göstərmək olar. I halda qiymətlərin davamlı artımı və milli valyuta məzənnəsinin enməsi heç nə ilə məhdudlaşdırılmır və sərbəst baş verir.

II halda dövlət əmtəə qıtlığı şəraitində qiymətlərə sərt nəzarət tətbiq edir. Məsələn, dövlət qiymətləri "dondurur". Lakin qiymətlər dəyişmədiyi halda əmtəələrin keyfiyyəti aşağı düşür. Yaxud guya yeni olan əmtəələrə daha yüksək qiymətlər təyin edilir. Qara bazar yaranır. Mal qıtlığı və növbələr adi hala çevrilir.

Yayılma miqyasına görə lokal, regional və qlobal inflyasiyanı göstərmək olar.

Lokal inflyasiya zamanı qiymətlərin qalxması konkret ölkənin sərhədləri ilə məhdudlaşır.

Qlobal inflyasiya dünyanın konkret coğrafi məkanında yaransa da tezliklə bütün dünyaya yayılır.

İqtisadiyyatın qiymət artımına nə dərəcədə uyğunlaşmasından asılı olaraq tarazlaşdırılmış və tarazlaşdırılmamış inflyasiyanı fərqləndirirlər.

I halda müxtəlif əmtəə qruplarının ayrı-ayrılıqda qiymətləri dəyişsə də, qiymətlər arasındakı nisbətlər dəyişməz qalır. Qiymətlərin illik artımına müvafiq olaraq faiz dərəcələri qaldırılır ki, bu da qiymətlərin sabit olduğu iqtisadi duruma uyğun gəlir.

Tarazlaşdırılmamış inflyasiya zamanı müxtəlif əmtəələrin qiymətləri bir birinə qarşı daima və fərqli nisbətlərdə dəyişir. Belə də, sənayenin inkişaf imkanları məhdudlaşır, yaranmış şərait isə, daha çox möhtəkirlik və vasitəçilik fəaliyyəti üçün əlverişlidir.

Qiymət artımının gözlənilmə dərəcəsinə görə gözlənilən və gözlənilməz inflyasiyanı göstərmək olar. Gözlənilən inflyasiya müəyyən dövr üçün proqnozlaşdırılır.

Gözlənilməz inflyasiya qiymətlərin qəfildən sıçrayışıdır ki, bu da ilk növbədə pul tədavülü və vergi sisteminə mənfi təsir göstərir.

4. İnflyasiyanın nəticələri. Dünya təcrübəsi sübut edir ki, hətta nəzarət edilən inflyasiya tədricən nəzarətdən çıxır və dərinləşdikcə labüd olaraq iqtisadi, inkişafı süni stimullaşdırmaq əvəzinə onu ləngidir, çətinləşdirir. Bunun səbəbi bu cür inflyasiya səciyyəli inkişafın inflyasiya səbəblərinin və amillərinin təsirini gücləndirən mənfi sosial və iqtisadi nəticələrdir. Bu nəticələr aşağıdakılardır:

1) İnflyasiyanın köklü səbəbi iqtisadiyyatın quruluşundakı qeyri-tarazlıqlardır. Buna görə də inflyasiya ilk növbədə bu qeyri-tarazlıqları gücləndirir. İnflyasiya qiymətlərin ümumi artımı kimi başa düşülsə də, bu artım iqtisadiyyatın sahə və bölmələri üzrə qeyri-bərabər baş verir və bu sahələrdə istehsalın genişlənməsinə, digərlərində isə onun azalmasına gətirib çıxarır. Nəticədə iqtisadiyyatdakı qeyri-tarazlıqlar güclənir. İnflyasiya təsərrüfat fəaliyyətinin nəticələrini dəyərsizləşdirir və son nəticəyə olan marağı zəiflədir. O, təkcə əhalinin deyil, həm də müəssisələrin pul yığımlarını dəyərsizləşdirir və bu səbəbdən pul, kapital yığımını və deməli, uzunmüddətli investisiyalar etmək stimulları zəifləyir.

2) İnflyasiya kapitalın istehsal sahəsindən tədavül sahələrinə axıb getməsinə gətirib çıxarır. Qiymətlərin sürətli və qeyri-bərabər hərəkəti təkcə əhali arasında deyil, həm də müəssisələrdə qərarlar qəbul edən şəxslər arasında da gələcəyə inamsızlıq yaradır. Uzunmüddətli planlaşdırma çətinləşir. Risk artdıqca onu tarazlaşdıran yüksək mənfəət tələbləri də artır. Bununla əlaqədar qəbul edilən qərarlar daha qısamüddətli və möhtəkir meylli olur, investisiyalar isə azalır. Bu investisiyalar əsasən tədavül sahələrinə edilir, çünki buna da kapital daha sürətlə dövr edir və daha tez mənfəət gətirir. Öz növbəsində istehsalın həcmi məhdudlaşır ki, bu da uzunmüddətli perspektivdə əhalinin məşğulluğuna və rifahına təhlükə yaradır.

3) İşsizliyin artması. Yüksək inflyasiya işsizliyin aradan qaldırılması imkanlarını zəiflədir. İşsizlik səviyyəsinin dəyişməsi qiymətlərin və əmək haqqının artması ilə müşayiət olunur. Başqa sözlə, işsizliyi azaltmaqdan ötrü inflyasiyanı sürətləndirmək lazımdır.

4) İnflyasiya əhalinin bütün təbəqələrinin gəlirlərinin alıcılıq qabiliyyətini aşağı salır. Bu, ilk növbədə real əmək haqqının və zəhmətkeşlərin bütün gəlirlərinin azalması deməkdir. Bu proses işsizliyin artması nəticəsində daha da güclənir. Real ödəniş qabiliyyətli tələbin azalması əmtəələrin satışını çətinləşdirir və deməli, iqtisadiyyat sahələrinin istehsal fəaliyyətinə mənfi təsir göstərir. Öz növbəsində, əhali gəlirlərinin alıcılıq qabiliyyətinin aşağı düşməsi daxili bazarın həcmini və tutumunu məhdudlaşdırır.

5) İstehlakçı tələbin quruluşundakı dəyişikliklər. İnflyasiya cəmiyyətin bütün təbəqələrinin gəlirlərinin alıcılıq qabiliyyətinə mənfi təsir göstərir. Lakin ayrı-ayrı təbəqələrin buna reaksiyası fərqlidir. Az təminatlı təbəqələr ərzağın xeyrinə özlərinin qeyri-ərzaq istehlakını azaldır. Az təminatlı ailələr üçün ilkin zərurət əmtəələri olan malların qiymətlərinin qalxmasına baxmayaraq onların istehlakı azalmır, əksinə başqa malların hesabına daha da artır.

Cəmiyyətin varlı təbəqəsi isə qızıl, zinət əşyaları, torpaq sahələri, daşınmaz əmlak və s. əldə edir.

6) Tələbin quruluşundakı məzmunca müxtəlif olan bu cür dəyişikliklərin mümkünlüyü inflyasiyanın növbəti nəticəsi ilə səbəblənir: gəlir və kapitalların əhalinin daha təminatlı təbəqələrinin xeyrinə köklü şəkildə yenidən bölüşdürülməsi. Uzunmüddətli kollektiv müqavilələrə əsasən təsbit edilmiş gəlirlərə malik olanlar gəlirlərin alıcılıq qabiliyyətinin aşağı düşməsinə məruz qalır. Buna əmək haqqının artırılması və yaxud təklif etdikləri xidmətlərin qiymətlərinin qaldırılması yolu ilə təmin etmək imkanına malik olanlar özlərinin alıcılıq qabiliyyətini qoruyub saxlamaqdan ötrü daha üstün imkanlara malik olur.

Əmanətləri və yığımları olanlar da inflyasiyanın mənfi təsirinə məruz qalır, çünki əmanət və yığım dəyərsizləşir. Sabit gəlirləri olan şəxslər qiymətli kağızlara sərmayə etdiyi kapitalın bu hissəsini inflyasiya nəticəsində itirmiş olurlar. Eyni zamanda verilən borcların da dəyəri azalır ki, bu da kreditlər üçün mənfi haldır. Əksinə, borclu olanlar üçün bu sərfəlidir.

İnflyasiya nəticəsində gəlir və kapitalların yenidən bölüşdürülməsi işgüzarların müxtəlif qrupları arasında da baş verir. Bundan ən böyük xeyri iri

şirkətlər, ilk olaraq inhisarçı qiymətlərin əmələ gəlməsini əsaslandırmaq, özlərinin milli və beynəlxalq bazarlarda iştirakını möhkəmləndirmək və genişləndirmək naminə inflyasiyadan istifadə edən transmilli şirkətlər, milli valyutanın xarici dəyərsizləşməsi ilə əlaqədar – iri ixracatçılar, həm kənd təsərrüfat fəhlələrinin real əmək haqqlarının azalması, həm də ipoteka borclarının dəyərsizləşməsi ilə əlaqədar – torpaq sahibləri görürlər. Bu isə o deməkdir ki, inflyasiyanın nəticələrindən biri də kapitalın təmərküzləşməsinin güclənməsidir.

7) Sosial vəziyyətin gərginləşməsi;

8) Dövlət maliyyəsinin böhranı. İnflyasiya sürətinin artmasının büdcə kəsrinin artmasına təsiri haqqında deyilmişdir. Büdcə kəsri ya dövlət borcunun genişləndirilməsi, ya da yeni pul emissiyası hesabına ödənilir. II yol inflyasiya problemini daha da kəskinləşdirir. Dövlət borcunun böyüməsi isə borc üzrə faizlərin ödənilməsinə edilən büdcə xərclərini artırır. Bu, inflyasiya amillərindən biri olan büdcə kəsrinin azaldılmasını çətinləşdirir ki, nəticədə dövlət daxili bazarda yeni borclar götürür. Güclənən inflyasiya dövlətin qiymətli kağızlarının yerləşdirilməsindən əldə edilən məbləğləri dəyərsizləşdirir. Bunun özü də yeni borclara tələbatı artırır. Borc kapitallar bazarında dövlət iştirakının genişlənməsi onun borc alan özəl şəxslərlə rəqabətini gücləndirir.

9) Pul-kredit sisteminin fəaliyyətinin pozulması. Pulun dəyərsizləşməsi pul yığımları etmək stimullarını zəiflədir. Bu isə kredit-maliyyə qurumlarının resurs mənbəyini sarsıdır. Bundan başqa, kapitalın dövran sürəti zəiflədikcə borc kapitalının təklifi azalır, kredit qurumlarından əmanətlərin çox vaxt kütləvi şəkildə geri götürülməsi baş verir. Bunun səbəbi odur ki, inflyasiya gücləndikcə kredit qurumları depozitlərə cəlb etdikləri vəsaitlər üzrə müsbət real faiz təmin edə bilmir, bu isə vəsaitlərin bu qurumlarda saxlanılmasını əlverişsiz edir. Vəsaitlərin çıxıb getməsinə yol verməməkdən ötrü kredit qurumları verdikləri kreditlər üzrə faiz dərəcələrini qaldıra bilərlər. Lakin kredit faizlərinin artırılması inflyasiyanı daha da sürətləndirir və əvvəllər verilmiş kreditlərin məbləğini daha da dəyərsizləşdirir. Kreditorlar dəyərsizləşmiş pullar ilə kreditlərini geri aldıqda itkilərə məruz qalır. İnflyasiya gücləndikcə faizin artması istehsal məqsədləri üçün

kreditə olan tələbatı azaldır. Eyni zamanda, kredit-maliyyə qurumlarının resurslarından möhtəkircəsinə istifadə edilməsi fəaliyyəti genişlənir.

10) Ölkənin xarici iqtisadi mövqelərinin pisləşməsi. Qeyd olunan bütün nəticələr milli iqtisadiyyatın tənəzzülü deməkdir. Valyuta məzənnəsinin inflyasiyanın sürətindən uzunmüddətli asılılığı mövcuddur. Lakin müxtəlif ölkələrdə bu asılılıq müxtəlif cür özünü göstərir. İnkişaf etmiş ölkələrdə valyuta məzənnəsi ilə pul vahidinin alıcılıq qabiliyyəti arasındakı bağlılıq hər zaman nəzərə çarpmır, çünki milli pul vahidinin valyuta məzənnəsinin formalaşmasında digər amillər də iştirak edir. Lakin qeyd olunan asılılıq inkişaf etməkdə olan ölkələrdə özünü daha tez və aydın göstərir. Belə ölkələrin əksəriyyəti üçün səciyyəvi olan pul emissiyası hesabına kəsirli maliyyələşdirmə valyuta məzənnəsini aşağı salır. Hökumət məzənnənin aşağı düşməsinə yol verirsə, çox vaxt daxili əmtəə qiymətləri milli pul vahidinin dəyərsizləşməsi ilə paralel artır. Daxili qiymətlərin artması milli əmtəələrin rəqabət qabiliyyətini aşağı salır, onların ixracını çətinləşdirir, ixracdan olan valyuta gəlirlərini və onların alıcılıq qabiliyyətini azaldır, eyni zamanda idxalı həvəsləndirir. Bu, ticarət balansının vəziyyətinin pisləşməsinə səbəb olur. İdxalın genişlənməsi isə ölkədən xarici valyutanın axıb getməsi deməkdir.

İnflyasiya gücləndikcə milli kapital daha mənfəətli tərbiq yerlərini tapmaq məqsədilə xaricə yönəlir, bunun ardınca isə ölkədə olan xarici kapitalın axıb getməsi baş verir. Nəticədə ölkənin xarici, hesablaşmalar balans pisləşir, bu isə tədiyə balansının vəziyyətinin pisləşməsi və ölkənin rəsmi qızıl və valyuta ehtiyatlarının azalması ilə birlikdə ölkənin kredit və ödəniş qabiliyyətinin zəifləməsi deməkdir.

5. İnflyasiyanın tənzimlənməsi. İnflyasiya ilə necə mübarizə aparmalı? İnflyasiyanın şərti olaraq tələb inflyasiyasına və xərclər inflyasiyasına ayrılması ilə əlaqədar antiinflyasiya tədbirləri 2 əsas istiqamətdə həyata keçirilir.

1) deflyasiya siyasəti. Tələb inflyasiyasına qarşı yönəlmişdir. Pul-kredit və vergi mexanizmləri vasitəsilə dövlət xərclərinin müəyyən maddələrinin və dövlət büdcəsi kəsrinin azaldılması, kredit faizlərinin qaldırılması, vergilərin artırılması,

pul kütləsi artımının məhdudlaşdırılması və digər yollarla pullu tələbin məhdudlaşdırılmasına istiqamətlənən tədbirləri əhatə edir. Deflyasiya siyasəti tədbirləri bütövlükdə iqtisadi konyukturanı sıxdığına görə onların yalnız iqtisadi yüksəliş mərhələsində və qısa müddətdə tətbiq edilməsi məsləhət görülür.

2) gəlirlər siyasəti. Xərclər inflyasiyasına qarşı yönəlmişdir. Gəlirlər siyasəti tədbirləri iqtisadi silsilənin istənilən mərhələsində tətbiq edilə bilər. Paralel şəkildə qiymətlərin qalxmasının və əmək haqqlarının artmasının məhdudlaşdırılmasına, milli valyuta məzənnəsinə nəzarət olunmasına, inhisarçı qiymətqoyma fəaliyyəti ilə mübarizəyə istiqamətlənən tədbirləri əhatə edir. Gəlirlər siyasətinin aparılmasının bir yolu da vergi variantıdır ki, bu da qiymətlərin qalxması və əmək haqqlarının artması sürətindən asılı olaraq mənfəətdən verginin cərimələndirici, yaxud həvəsləndirici dərəcələrinin təyin edilməsini nəzərdə tutur.

İnflyasiya ilə mübarizə üsulları birbaşa və dolayı üsullara ayrılır. İqtisadi vəziyyət nə qədər böhranlı olsa da iqtisadiyyata və deməli, pul kütləsinə dövlət təsirinin birbaşa üsulları bir o qədər zəruri olur.

Pul vahidinin alıcılıq qabiliyyətinin tənzimlənməsinin, yəni inflyasiya ilə mübarizənin, birbaşa üsullarına aiddir:

1) kreditlərin və bununla da pul kütləsinin dövlət tərəfindən birbaşa və bilavasitə tənzimlənməsi;

2) qiymətlərin dövlət tənzimlənməsi;

3) həmkarlar ittifaqları ilə razılaşma əsasında əmək haqqının dövlət tənzimlənməsi;

4) xarici ticarətin, kapitalın, idxal və ixracın, valyuta məzənnəsinin dövlət tənzimlənməsi.

İnflyasiya ilə mübarizənin dolayı üsulları aşağıdakıları əhatə edir:

1) Mərkəzi Bank tərəfindən banknot emissiyasının idarə edilməsi vasitəsilə pul kütləsinin tənzimlənməsi;

2) bankların tətbiq etdikləri faiz dərəcələrinin Mərkəzi Bank tərəfindən tənzimlənməsi;

3) kommersiya banklarının məcburi ehtiyatlarının tənzimlənməsi;

4) açıq bazarda Mərkəzi Bankın qiymətli kağızlarla əməliyyatlar keçirməsi.

Antiinflyasiya tədbirlərini ümumi şəkildə aşağıdakı kimi təqdim etmək olar:

1) uzunmüddətli tədbirlər əhali arasında cari tələbatı şişirdən inflyasiya gözləmlərini ciddi zəiflədir. Bundan ötrü mərkəzi hökumət ardıcıl antiinflyasiya siyasəti aparmaqla əhalinin etibarını qazanmalıdır. Bunun yolları istehsalın həvəsləndirməsi, antiinhisar tədbirlərin qəbul edilməsi və həyata keçirilməsi, qiymətlərin liberallaşması, inzibati gömrük təzyiqinin zəiflədilməsi, bazarın səmərəli fəaliyyətinə imkan yaradılmasıdır.

2) büdcə kəsrinin Mərkəzi Bankın kreditləri hesabına maliyyələşdirilməsinin inflyasiyaya xidmət etdiyindən kəsrin vergilərin artırılması və dövlət xərclərinin azaldılması hesabına məhdudlaşdırılması.

3) pul kütləsinin illik artımına sərt limitlərin qoyulması vasitəsilə inflyasiyanın səviyyəsinin nəzarət altına alınması.

4) xarici amillərin təsirinin zəiflədilməsi.

Pul islahatları pul sisteminin nizama salınması və möhkəmləndirilməsinə nail olmaqdan ötrü pul tədavülü sahəsində dəyişikliklərin edilməsi istiqamətindəki tədbirlər toplusudur. Pul islahatlarının əsas məqsədi inflyasiyanın mənfi nəticələrinin aradan qaldırılmasıdır. Lakin islahatların həyata keçirilməsinin üsulları ölkənin iqtisadi və siyasi inkişafından, ölkədə konkret iqtisadi, siyasi və sosial vəziyyətdən, inflyasiyanın müxtəlifliyindən və səbəblərindən, pulun dəyərsizləşməsi dərəcəsindən, inflyasiya nəticələrinin səciyyəsindən, cəmiyyətin müxtəlif təbəqə və siniflərinin mənafeləri və qüvvələri arasındakı nisbətdən və s. asılı olaraq fərqlənirlər. İlk növbədə tam miqyaslı və natamam pul islahatlarını fərqləndirirlər. Pul sisteminin bütün ünsürlərinin yerləşməsini nəzərdə tutan tam miqyaslı pul islahatının nəticəsində yeni pul sistemi yaradılır. Adətən bu dövlət quruluşunun köklü dəyişməsi, yeni siyasi-iqtisadi quruluşlu cəmiyyətin yaradılması ilə əlaqədar olur.

Natamam pul islahatları pul sisteminin ayrı-ayrı ünsürlərinin yerləşməsini nəzərdə tutur. Bu tip islahatın isə müxtəlif növləri məlumdur. Belə ki:

1. Pul sisteminin bir tipindən digərinə keçid. Bu 1 pul əmtəəsinin digəri ilə əvəzlənməsidir.

2. Sikkələrin, yaxud pul nişanlarının yeniləri ilə əvəzlənməsi.

3. Pul emissiyası sistemində dəyişikliklər.

4. Pul tədavülünün nisbi sabitləşdirilməsi. Pul sisteminin sabitləşdirilməsi və ya nizamlanması metodları bunlardır:

- Denominasiya, yəni pul nişanlarının nomunal dəyərinin dəyişdirilməsi.

- Nulifikasiya, yəni yüksək inflyasiya nəticəsində dəyərsizləşmiş kağız pulların dövlət tərəfindən etibarsız elan edilməsi.

- devalvasiya, yəni xarici valyutalara nisbətən milli valyuta məzənnəsinin düşməsi və milli valyutanın revalvasiyası, yəni xarici valyutalara nisbətən onun məzənnəsinin qalxması.

Həyata keçirilmə müddətinə görə qısa və uzunmüddətli pul islahatları məlumdur. Keçirilmə məqsədlərinə görə köklü məqsədli və məhdud məqsədli pul islahatları məlumdur. Köklü məqsədli pul islahatı yeni tipli milli pul sisteminin yaradılmasına yönəlir. Buna tam miqyaslı pul islahatları uyğun gəlir.

Məhdud məqsədli pul islahatları cəmiyyətin siyasi-iqtisadi quruluşunu, o cümlədən pul sistemini kökündən dəyişmədən, yalnız milli pulun sabitləşdirilməsi məqsədini güdür.

Movzu 7
Borc kapitalı

1. Borc kapitalının səciyyəsi

2. Borc kapitalları bazarı

3. Borc faizi

1. Borc kapitalının səciyyəsi. Borc kapitalının meydana gəlməsində, fəaliyyətinin davam etdirilməsində başlıca amil kapital kimi istifadə edilə biləcək vəsaitlərin mövcudluğudur. Borc kapitalının yaranma mənbələri sırasında əsas yeri sənaye kapitalı tutur. Daha doğrusu, sənaye kapitalının dövriyyəsi əsasında müəssisələrdə müvəqqəti olaraq tətbiq edilməyən sərbəst pul vəsaiti əmələ gəlməsi borc kapitalı üçün başlıca mənbədir.

Yaranan sərbəst pul kapitalları hüquqi şəxslərin özləri tərəfindən pula ehtiyacı olan başqa müəssisələrə borc olaraq verilir, yəni borc kapitallarına çevrilir. Borc kapitalının tətbiqi istehsalı təşkil etmək və mənfəət əldə etmək məqsədlərini daşıyır.

Banklar borc kapitallarının əsl sahibləri ilə bu borcları alan sahibkarlar arasında vasitəçi kimi hərəkət edirlər. Bankların borc kapitalları ilə bağlılığı ən müxtəlif mülkiyyətçiləri, ən müxtəlif həcmli kapitalları əlaqələndirir.

Bütünlükdə cəmiyyət və müəssisələr üçün borc kapitalının yaranması və səmərəli istifadəsi zəruridir.

Borc kapitalının puldan fərqinə gəldikdə onu demək olar ki, pul yalnız müəyyən halda – borc olaraq verildikdə, borc alan tərəfindən isə qoyulduqda borc kapitalı qismində olur. Adi hallarda pul ayrıca müstəqil iqtisadi kateqoriyadır.

Borc kapitalı müəyyən haqq alınmaqla öz sahibləri tərəfindən müvəqqəti istifadə olunmaq şərtilə verilən pul kapitalıdır.

Borc kapitalı əmtəə pul münasibətlərinin inkişafı üçün mühüm vasitədir. Borc kapitalının hərəkəti forması olan kredit pul münasibətlərinin mühüm tərəfidir. Onun vasitəsi ilə müəssisələrin və təşkilatların, dövlətin, eləcə də əhalinin sərbəst

pulları səfərbərliyə alınır, borc pul vəsaiti kimi ehtiyacı olan müəssisələrə onlarda təkrar istehsalın həyata keçirilməsi üçün geri qaytarmaq şərti ilə müəyyən müddətə və haqq alınmaqla verilir.

Borc kapitalı makro və mikro artımın sürətləndirilməsində mühüm vasitələrdən biridir. Odur ki, o, maddi və maliyyə resurslarından səmərəli istifadə olunmasına və məşğulluğa təsir göstərir.

Borc kapitalının əsasında duran məqsəd və tələblər faiz kateqoriyasının qalmasını zəruri edir. Kapitalizmdə faiz borc kapitalına bağlıdır. Borc kapitalından istifadə edənlər işgüzar fəaliyyətdən əldə etdiyi mənfəətin bir hissəsini faiz kimi ödəyirlər. Bu da öz növbəsində mənfəət kütləsini artırmağa xidmət edir. Borc kapitalının dəyərli xarakteri kapitalın digər formaları ilə bağlı olması faizdə qalaraq surətdə ifadə olunmuşdur.

Borc kapitalının cəmiyyətdə fəaliyyət göstərən kapitallar sırasında özünəməxsus yeri olduğu kimi, spesifik xüsusiyyətləri də bəllidir. Həmin xüsusiyyətlər borc kapitalının mahiyyətindən irəli gəlir və iqtisadiyyatın inkişaf səviyyəsi və tələblərindən irəli gəlməklə təkmilləşir.

2. Borc kapitalları bazarı. Borc kapitalı bazarı – kapitala olan tələb və təklif əsasında vasitəçilərin köməyilə kreditorlar və borcalanlar arasında kapitalın yenidən bölüşdürülməsi mexanizmidir. Borc kapitalı bazarı maliyyə münasibətlərinin borc kapitalının dövriyyəsinin təmin edilməsi prosesi ilə əlaqədar xüsusi sferadır. Borc kapitalı müəyyən edilmiş faizlə geri qaytarmaq şərti ilə borca verilmiş pul vəsaitidir.

Borc kapitalının dövretmə prosesi borc kapitalı bazarında həyata keçirilir.

Borc kapitalının mənbələri sırasında dövlət mülkiyyəti sferasında yaranan vəsaitlərin rolu böyükdür. Mənbələr sırasında dövlət büdcəsinin sərbəst pul vəsaitlərinin, sığorta fondlarının, pensiya fondunun, həmkarlar ittifaqları və digər ictimai təşkilatlarda sərbəstləşən pul vəsaitlərinin də yeri var. Borc kapitalı bazarı – saziş obyekti borca təqdim olunan pul kapitalı olmaqla, tələb və təklifin formalaşdığı kapitalist əmtəə münasibətlərinin xüsusi sferasıdır. Funksional baxımdan borc kapitalı bazarı kapitalist istehsalının kreditlə təmin olunması

məqsədilə pul kapitalının toplanmasını və yenidən bölüşdürülməsini təmin edən bazar münasibətləri sistemidir.

Borc kapitalı bazarı vasitəsilə müəssisələrin, dövlətin və fərdi şəxslərin cari tələbatlarından artıq qalan hissədən əmələ gələn pul yığımları cəlb olunur və kreditə verilir.

İnstitusional baxımdan borc kapitalı bazarı borc kapitalının hərəkətini həyata keçirən maliyyə-kredit təşkilatlarının, fond birjalarının məcmusundan ibarətdir.

Borc kapitalı bazarının əsas xüsusiyyəti odur ki, bu bazar bircinslidir. Belə ki, əmtəə yalnız pul şəklində çıxış edir. Borc kapitalı bazarında borc kapitalının hərəkəti pul axınlarının bank sistemindən keçməsi ilə müəssisələr və digər hüquqi şəxslər arasında hərəkəti ilə həyata keçirilir.

Borc kapitalı bazarının iştirakçıları aşağıdakılardır:

- ilkin investorlar – sərbəst maliyyə resurslarının sahibləri.
- Ixtisaslaşmış vasitəçilər – pul vəsaitlərini toplayan və onları borc kapitalına çevirən maliyyə-kredit təşkilatları.
- Borcalanlar (hüquqi və fiziki şəxslər, dövlət) – maliyyə resurslarına ehtiyac olan bu kapitaldan istifadəyə görə haqqı ödəməyə hazır olanlar.

Borc kapitalının bazarında kapitalın satıcısı sifətində pul kapitalistləri, maliyyə-kredit institutlarının geniş yayılmış sistemi, alıcı sifətində isə özəl və dövlət müəssisələri, dövlət və ya xüsusi şəxslər, əhali çıxış edir.

Müasir borc kapitalı bazarı müddət və təsisat əlamətlərinə görə xarakterizə olunur. Müddətə görə pul bazarı və kapital bazarı fərqlənir. Pul bazarı dövriyyə kapitalının hərəkətini təmin edən bütün qısamüddətli kredit əməliyyatlarını əhatə edir və burada dövriyyəyə bir neçə həftədən bir ilə kimi olan kreditlər buraxılır.

Kapital bazarı isə əsas vəsaitlərinin hərəkətini təmin edən orta müddətli və uzunmüddətli əməliyyatları əhatə edir ki, burada 1 ildən 5 ilə qədər və 5 ildən yuxarı müddətə pul vəsaitləri hərəkət edir.

Funksional və təsisat əlamətləri ilə müasir borc kapitalları bazarı kredit sistemi və qiymətli kağızlar bazarını əhatə edir.

Qiymətli kağızlar bazarı isə ilkin və ikincili bazara bölünür. İlkin bazarlarda yeni emissiya olunmuş qiymətli kağızlar, ikincili bazarlarda isə əvvəl buraxılmış qiymətli kağızlar alınıb satılır. Bunlardan başqa, birjadankənar bazarlar da vardır. Burada o qiymətli kağızlar reallaşır ki, həmin qiymətli kağızlar birjada tədavül etmir.

Borc kapitalı bazarının funksiyaları olaraq aşağıdakılar qəbul edilir:

- o, kredit vasitəsilə əmtəə tədavülünə xidmət edir;
- sahibkarların, əhalinin, dövlətin həmçinin xarici müştərilərin pul əmanətlərinin toplanması və yığılmasını təmin edir;
- onun pul sayəsində fondlarının bilavasitə borc kapitalına çevrilməsi və istehsal prosesində xidmət etməsi üçün kapital qoyuluşu şəklində istifadə oluna bilir.
- 0, dövlət və istehlak xərclərinin ödənilməsi üçün kapital mənbəyi kimi əhaliyə və dövlətə xidmət funksiyası vasitəsilə büdcə kəsrinin örtülməsində rol oynayır.
- O, kapitalın mərkəzləşdirilməsi və təmərküzləşdirilməsinin sürətləndirilməsi funksiyasını daşıyır.

Borc kapitalı bazarının milli və beynəlxalq borc kapitalı bazarı kimi səciyyələndirilməsi mümkündür. Milli kapital bazarı – ölkənin orta və uzunmüddətli kredit bazarlarından, həmçinin ipoteka və qiymətli kağızlar bazarlarından ibarətdir.

Beynəlxalq borc kapitalı bazarı borc kapitalına olan tələb və təklifdən asılı olaraq borc kapitalının ölkələr arasında hərəkətini həyata keçirən maliyyə-kredit müəssisələrinin məcmusundan ibarətdir. Buraya iri banklar, əsasən transmilli banklar, aparıcı fond birjaları və s. aiddir.

3. Borc faizi. Borc kapitalı onun sahibləri tərəfindən borc verildikdə müqabilində müəyyən məbləğin ödənilməsi şərtləndirilir. Bu əsasla borc kapitalı öz dəyərində olmaqla borcluya keçir. Borc kapitalına görə ödənilən vəsaitin digər ödənişlərdən fərqli spesifik anlayışı – borc faizi öz mahiyyət və məzmunu ilə iqtisadi kateqoriyalar sırasında tanınmış yer tutur. Borc faizinin ən qabarıq

təzahürləri ümumi mənada sahibkar adlandırılan kapitalistlər ilə borc kapitalistləri arasındakı münasibətlərdə ortaya çıxır. Borc faizinin yaranması və ödənilməsi ilə bağlı olan münasibətlərin əsasında geniş mənada əmtəə-pul münasibətlərinin durması qəbul ediləndir. Borc faizi sahibkar kapitalistlərin borc kapitalından müvəqqəti istifadəyə görə bu kapitalın mülkiyyətçilərinə mənfəətdən verilən paydır. Borc faizi borc kapitalının tətbiq edildiyi təsərrüfat fəaliyyətindən əldə edilən mənfəətin bir hissəsidir.

Borc faizi təbii ki, iqtisadi kateqoriyalardan biri olmaqla müəyyən funksiyalar daşımaya bilməz. Borc faizinin mənfəətin bölüşdürülməsi və tənzimləmə funksiyalarını daşıması qəbul edilir. Faizin stimullaşdırıcı funksiyanı daşıması da bəzi mənbələrdə qeyd edilir.

Faiz səviyyəsinin faiz norması adı altında hesablanması ssuda məbləği ilə gəlir arasındakı nisbəti səciyyələndirir. Ssuda kapitalından əldə edilən gəlirin borc verilən kapitalın məbləğinə bölünməsi və 100-ə vurulması ilə alınan nəticə faiz normasını əks etdirir. Həmin hesablama üsulu faiz səviyyəsini güzgü kimi göstərdiyi üçün heç bir əks reaksiyaya səbəb olmur.

Azərbaycan Respublikasında müasir dövrdə faiz dərəcələri aşağıdakılarla təmsil olunur:

- Depozit və əmanətləri üzrə faiz dərəcələri
- Verilmiş kreditlər üzrə faiz dərəcələri
- Banklararası kreditlər üzrə faiz dərəcələri

Depozit və əmanətlər üzrə faiz dərəcələri hüquqi şəxslər və fiziki şəxslər üzrə faizlər olmaqla 2 böyük qrupa ayrılır.

Eyni zamanda manatla və xarici valyuta ilə olmaqla fərqləndirilir. Verilmiş kreditlər üzrə faiz dərəcələri də analoji olaraq hüquqi şəxslər üzrə və fiziki şəxslər üzrə faiz dərəcələrinə, onlar da öz növbəsində manatla kreditlərə görə və xarici valyutada kreditlərə görə faizlə ayrılır.

Banklararası kreditlər üzrə isə, faiz dərəcələrinin kreditlərin milli pula və xarici valyutada olmasından asılı olaraq fərqləndirilməsi vardır.

Movzu 8

Kreditin mahiyyəti, funksiyaları, formaları və növləri

1. Kreditin zəruriliyi və mahiyyəti

2. Kreditin funksiyaları

3. Kreditin formaları və növləri

4. Kreditin iqtisadiyyatda rolu

1. Kreditin zəruriliyi və mahiyyəti. Kreditin varlığı onun zəruriliyi ilə bağlıdır. O, heç zaman ötəri xarakter daşımamışdır, tək-tək şəxslərlə, ayrı-ayrı təsərrüfat subyektləri ilə, habelə bu və ya digər ölkə ilə məhdudlaşmamışdır. Bu və ya digər şəraitdə kreditin həcmcə azalmasına gəldikdə isə, bu müxtəlif səbəblərdən irəli gəlir və başqa bir şəraitdə onun artması ilə inkişafı davam edir.

Kredit zərurətlə yarandığı kimi onun inkişafı da zərurətdən irəli gəlmişdir. Kredit münasibətləri başlanğıcda pulsuz müəyyən maddi dəyərə malik əşyanın bir şəxsdən digərinə borc olaraq keçməsi şəklində fərz edilə bilər. Sonra həmin borcun eyni məhsulla razılaşdırılan kimi qaytarılması olmalı idi ki, cəmiyyətdə borc vermək və borc olaraq lazım gələn məhsulları əldə etmək adətləri yaranıb möhkəmlənsin. Kreditin zəruriliyi məsələsində əhəmiyyətli cəhətlərdən biri cəmiyyətdə borc almağa ehtiyacın yaranmasıdır. Əgər ehtiyac olmasa borc alınmaz. Kredit münasibətləri baxımından borc vermək imkanı olanlar olmasaydı ehtiyaclar ödənilə bilməzdi. Pulun meydana gəlməsi kredit münasibətlərinin inkişafında böyük rol oynamışdır. Pul şəklində kreditlər cəmiyyət üçün daha əlverişli və deməli, daha zəruri olmuşdur.

Kredit münasibətlərinin pul münasibətləri ilə müqayisəsində onların bir sıra fərqləri müəyyən edilmişdir. Kredit pul münasibətlərinin yalnız bu hissəsini təşkil edir və həcm etibarilə heç də onunla tənləşə bilməz. Pul öz funksiyalarını yerinə yetirməklə özünəməxsus mahiyyətini ortaya qoyur, əmtəə və xidmətlərin ödənilməsində ekvivalent kimi çıxış etməklə cəmiyyət üçün olduqca faydalı iqtisadi alət olduğunu göstərir. Pulun kredit qismində hərəkəti isə tamamilə başqa münasibətləri səciyyələndirir. Əgər pul funksiyalarının yerinə yetirilməsi

konkretləşdirilmiş ifadə ilə deyilsə, satıcı və alıcı arasındakı münasibətləri ifadə edirsə, kredit münasibətlərində iştirak edən tərəflər kreditor və borcalanlar sifətilə qarşılaşırlar. Sadəcə əlahiddə alqı-satqıda iştirak edənlər arasındakı sövdələrdə, başqa şərtlər sabit qaldıqda ekvivalent mübadilə baş verir.

Kredit münasibətlərində isə, əvvəla faiz şəklində əlavə gəlir əldə edilməsi baş verir, digər tərəfdən haqq-hesab başa çatana qədər tərəflər arasında qanunlara uyğun olmaqla əlaqələr davam etdirilir.

Kreditin meydana gəlməsi üçün, hər şeydən əvvəl ona əlverişli mühit olmalıdır.

Kreditləşmə müəyyən prinsiplərə əsaslanmaqla həyata keçirilir ki, bunlara da aşağıdakıları aid etmək olar:

- kreditlər borclu tərəfindən kreditora qaytarılmalıdır;
- kredit maddi təminata malik olmalıdır. Təminatsız kreditlər müstəsna hallarda ola bilər;
- alınan kreditlərə görə haqq ödənilməlidir;
- hər bir kredit əqdinin müddət müəyyənliyi olmalıdır.

2. Kreditin funksiyaları. Kreditin funksiyaları kreditə xas olan elə əlamətləri özündə birləşdirir ki, onlar bu kateqoriyaya xas olmaqla daimi olaraq onda qalır. Funksiyalar kreditin bütün formalarının qarşılıqlı təsirlərini səciyyələndirir. Bəzi müəlliflər kreditin 2 funksiyasının üzərində dayanır, bəziləri 3, bəziləri daha çox sayda funksiyasının olmasını təkid edirlər. Əksər hallarda müəlliflərin göstərdiyi funksiyalar sırasında onlardan 2-nin öz yerini saxladığı göstərilə bilər. Bunlar kreditin yenidən bölüşdürmə funksiyası və həqiqi pulların kredit əməliyyatları ilə əvəz olunması funksiyasıdır. Həmin funksiyalar müəyyən mənada mübahisə doğurmadan kreditin xarakteristikasına yazıla bilər.

Kreditin yenidən bölüşdürülmə funksiyasında kredit vasitəsilə kreditor borcluya bir halda müvəqqəti istifadə edilmək üçün əmtəə-material dəyərliləri, başqa halda isə pul vəsaitini verir.

Kreditin yenidən bölüşdürmə funksiyası üçün dəyərin yenidən bölüşdürülməsi əsasdır. Kreditor və borclunun harada olmasından asılı olaraq yenidən bölüşdürmə ərazilərarası bölüşdürmə xarakterini alır.

Kredit vasitəsilə vəsaitlərin yenilənən bölüşdürülməsinə müxtəlif səviyyələrdə baxıla bilər. Müəssisələr səviyyəsində onlar kredit münasibətlərinin subyektləri hesab edilməklə fərdi dövriyyə çərçivəsində əmtəə-material dəyərliləri və pul vəsaitləri hərəkət edir.

Kredit resurslarının yenidən bölünməsi funksiyasının mühüm cəhəti odur ki, o, həm yeni yaradılan dəyərə və həm də əvvəlki dövrlərdə yaradılmış dəyərə şamil edilir.

Kreditin yenidən bölüşdürülməsi funksiyasının xarakterinə gəldikdə göstərmək olar ki, kreditor borc alana kredit verir, o isə bu krediti özündə vəsait azad olduqda qaytarır. Borcalan özündə vəsaitin azad edilməsi baş verənə qədər krediti qaytara bilməz.

Kreditin yenidən bölünməsi dəyərin yalnız müvəqqəti azad olan hissəsinə aid edilə bilər. Başqa bir halda bu yenidən bölüşdürmə həm də realizasiya prosesinin davamı ola bilər.

Kreditin kommersiya formasında istehsalçı müəssisə öz məhsulunu alıcıya ödənişin təxirə salınması yolu ilə satır, yəni kredit əsasında verir. Satılan əmtəələrin nisyə verilməsi, başqa sözlə, ödənişdə möhlətin verilməsi üçün bu məhsulun dəyəri ödənilənə qədər kreditor müəssisənin özünün kifayət qədər vəsaiti olmalıdır. Yaxud da başqa mənbədən vəsait almalıdır. Bütün bu hallarda yenidən bölüşdürülən dəyər təsərrüfatın müxtəlif halqalarında yaradılmış dəyərdən ibarət ola bilər.

Yenidən bölüşdürmə funksiyasının başqa bir cəhəti də nəticə etibarilə məhsuldar xarakter daşımasıdır. Borcluya verilən kredit onun vasitəsilə təsərrüfat dövriyyəsinə qoşularaq gəlirlərin yaranmasında iştirak edir.

Kreditin II funksiyası həqiqi pulların kredit əməliyyatları ilə əvəz olunmasından ibarətdir. Təsərrüfatlara kreditin verilməsi prosesində belə əvəz edilmə üçün zəruri şərait vardır. Metal pulların kredit ilə əvəzlənməsi prosesi qızıl

sikkələrin yerinə banknotların tədavül etməsində təzahür edirdi. Lakin qızılın tam demonetizasiyası, yəni qızıl sikkələrin banknotlarla tam əvəzlənməsi və banknotların öz qızıl əsasını itirməsi vəziyyətin buna uyğun düşməsinə gətirib çıxartmadı. Əksinə, kreditin artması, onun əmtəə təsərrüfatının inkişafında mühüm vəzifəyə çevrilməsi nəticəsində borcalanın cəlb edərək təsərrüfat dövriyyəsinə daxil etdiyi dəyər pula xas olan vəzifələri icra etməyə başlayır. Bunun nəticəsində ictimai kapitalın hərəkəti sürətlənir. Tədavül vaxtı minimuma endirilir və tədavül xərclərinə qənaət edilir ki, bu da kapitalın fəaliyyət səmərəsinin yüksəlməsi deməkdir, çünki kapitalın məhsuldar fəaliyyəti genişlənir.

Qeyd olunan 2 funksiyadan başqa kreditin daha 2 funksiyasını da göstərə bilərik:

1) kreditlərin təmərküzləşməni sürətləndirməsi funksiyası;

2) müvəqqəti azad pul vəsaitlərinin akkumulyasiyası funksiyası.

Kredit mexanizmi vasitəsilə izafi dəyərin kapitallaşması prosesi daha sürətlə baş verir. Kapitalın təmərküzləşməsinin güclü amili kimi çıxış etməklə kredit fərdi yığımın hüdudlarını genişləndirir. Kreditin köməyilə fərdi kapitallar onlara digər fərdlərin kapitallarını əlavə etməklə artırılır. Bu mənada kredit fərdi müəssisələrin səhmdar cəmiyyətə çevrilməsi və yeni şirkətlərin yaradılması, inhisarların və beynəlxalq şirkətlərin meydana gəlməsi amillərindən biridir. Kredit ondan istifadə edənlərin imkanlarını artırır.

Buradan da onun müəssisələrdə rəqabət qabiliyyətinin güclənməsinə təsiri meydana çıxır. Kreditin müvəqqəti azad pulların akkumulyasiyası funksiyasının məzmunu onunla izah edilir ki, müəyyən dövr ərzində gələcək investisiyalar üçün pul yiğilması prosesi gedir. Bu vəsaitin toplanaraq müəyyən qədər yüksək səviyyəyə çatdıqda böyük məbləğlə investisiyaya qoyulması nəzərdə tutulur. Hesab edilir ki, kreditin bu funksiyasının arxasında “yığılma – investisiyalaşdırma” durur. Tədriclə yığılan pullar onların investisiya olaraq istifadəsinə qədər azad bir şəkildə qala bilir. Buradan belə bir nəticə hasil olur ki, həmin azad vəsaitlər kredit resursu kimi akkumulyasiya edilə və yerləşdirilə bilər.

3. Kreditin formaları və növləri. Adətən kreditin formaları olaraq kommersiya krediti, bank kredit, dövlət krediti, istehlak krediti və beynəlxalq kredit formaları nəzərdən keçirilir. Bunlara ipoteka krediti və banklararası kreditlər də əlavə edilməklə kreditin bu formaları bu variantda bitirilə bilər.

Kommersiya krediti kreditin elə formasıdır ki, burada borc verilən dəyər daşıyıcısı əmtəələrdən ibarətdir və o, satıcı tərəfindən alıcılara verilir. Bunun xeyri ondadır ki, müvafiq əmtəəni almaq istəyənlər bundan ötrü pul məbləğinin olmadığı, yaxud çatışmadığı bir vaxtda həmin əmtəəni əldə edə bilir. Pulun alınması həmin vaxtda deyil, gələcəkdə olacağı razılaşdırılır. Deməli, kommersiya kreditinin əsasında satıcı müəssisəsinin əmtəənin dəyərinin ödənilməsi üçün alıcıya möhlət verməsi və müddət çatdıqda onun alıcı tərəfindən ödənilməsi durur. Müddət çatdıqdan sonra əmtəə dəyərini ödəmək öhdəliyi kimi alıcı müəssisənin verməsi durur.

Bank krediti ən geniş yayılmış formadır. Məhz banklar krediti əlavə maliyyə vəsaitinə ehtiyacı olanlara verir. Çünki əsas fəaliyyəti kredit işi olan banklar akkumulyasiya etdikləri pul vəsaitlərini, geri qaytarılma əsasında ssudalar verməklə kreditləşdirməni həyata keçirir.

Ödənclik kreditin bank formasının ayrılmaz şərtidir. Həm də bank krediti faizi həmişə kommersiya krediti faizindən yüksək olur. Bu ondan irəli gəlir ki, bank əsasən kənardan cəlb etdiyi vəsaitlərdən kredit resursu kimi istifadə etdiyindən verdiyi kreditlər üzrə faizi mümkün səviyyədə saxlamağa məcburdur.

Bank kreditini kommersiya kreditindən fərqləndirən əsas əlamət odur ki, burada vəsaitin mənbəyi ticarət və sənaye kapitalından ayrılmış pul kapitalıdır. Kommersiya kreditinin həcmi hər bir azad ticarət sənaye kapitalı ehtiyatlarıdır və o, məhduddur.

Bank krediti kommersiya kreditinə xas olan məhdudiyyətləri aradan qaldırır. O, kreditləşmənin istiqamətləri, məbləği və müddəti ilə məhdudlaşmır.

Kreditin geniş yayılmış forması bank kreditidir. Fərqlərə baxmayaraq kommersiya və bank kreditinin ümumi cəhətləri də mövcuddur. Çünki onların təbiəti eyni anlayışa – kreditə bağlıdır.

Dövlət-krediti adətən kredit münasibətlərinin o cəhətini əhatə edir ki, burada dövlət özü iştirak edir. Dövlətə məxsus olan vəsaitlər kredit olaraq müvəqqəti istifadə üçün müəyyən borcalanlara verilir. Yerli hakimiyyət orqanlarının da kredit münasibətlərində iştirak etməsinə yol verilir. Digər bir xüsusiyyət ondan ibarətdir ki, bir dövlət digər dövlətlərə də kredit verə və onlardan kredit ala bilər.

İstehlak krediti forması prinsipcə əhaliyə istehlak məqsədləri üçün verilən kreditləri təmsil etməlidir. Bu halda vurğulanmalı cəhət odur ki, insanlar öz istehlakı üçün zəruri olan əmtəələri ödənişlərdə möhlət verilməsi şərti ilə əldə edə bilirlər. İstehlak kreditinin ticarət firmaları tərəfindən, banklar və digər kredit-maliyyə qurumları tərəfindən verilməsi qaydası dünya təcrübəsində qəbul edilən istehlak kreditinin verilməsi qaydasına, ölkələrin müvafiq qanunlarına əsaslanır.

İndiki dövrdə istehlak kreditinin verilməsi kreditorla borcalan arasındakı müqaviləyə əsaslanır.

Əgər istehlak krediti formasında əmtəə almaq lazım gəlirsə, bu halda ticarət təşkilatlarının xidmətlərindən yararlanmaq olar.

Banklar isə istehlak məqsədləri üçün pul ssudaları verə bilər.

İpoteka krediti formasının izahı elə ipoteka anlayışına bağlıdır. Belə kreditləri mənzil tikintisi, mənzil almaq və torpaq sahəsinin alınması üçün dünya təcrübəsində bu sahədə ixtisaslaşan ipoteka bankları tərəfindən verilir.

Beynəlxalq kredit də kreditin əsasında duran ümumi xarakterli cəhəti özündə saxlayır. Ən başlıca fərq kreditor və borclunun müxtəlif ölkələrdən olmasındadır. Kreditor və ya borcalan sifətində banklar, müəssisələr, beynəlxalq valyuta – kredit təşkilatları, əhali və dövlət beynəlxalq kredit münasibətlərində iştirak edirlər. Banklararası kredit kommersiya banklarının öz aralarında qarşılıqlı və ya birtərəfli əsaslarda vaxtaşırı olaraq kredit münasibətlərinə girməsini təmsil edir. Başqa bir vəziyyətdə kommersiya bankları sonuncu instansiya olaraq kredit almaqçün Mərkəzi Banka müraciət edir. Bu halda verilən ssuda Mərkəzi Bankın kreditləri adlanır.

Bəzi hallarda kreditin formaları borca verilən dəyərin növünə görə müəyyən edilir. Bu zaman o, kreditin əmtəə forması, kreditin pul forması və qarışıq forması olaraq təqdim olunur.

1. Sahəvi istiqamətindəmn asılı olaraq kreditlər növlərə ayrıla bilər: sənaye kreditləri, kənd təsərrüfatı kreditləri, ticarətə kreditlər və bu kimi istiqamətlər ssudaların sahələr üzrə istifadəsini səciyyələndirə bilər.

2. Borclarının hansı qrupa aid olmasından asılı olaraq kreditlər təsərrüfatlara, başqa hüquqi şəxslərə və əhaliyə verilən ssuda növlərinə ayrılır.

3. Müddətinə görə uzun, orta və qısa müddətli.

4. Təminatına görə kreditlər tam təminatlı, qismən təminatlı və təminatsız.

4. Kreditin iqtisadiyyatda rolu. Kreditin roluna ilk növbədə kreditorun və borclunun mövqeyindən baxılmalıdır. Eləcə də ümumilikdə təkrar istehsal üçün kapitalın hərəkəti nöqteyi-nəzərindən kreditin rolu böyükdür. Bu o deməkdir ki, kreditin rolu həm ictimai təkrar istehsal prosesində makroiqtisadi səviyyədə və həm də konkret təsərrüfat subyektlərinin maliyyəsinin təşkilində iştirak etməsi sayəsində pul dövriyyəsində əks olunur. Kreditin təsərrüfatlarının maliyyə vəsaitləri ilə təmin edilmə mənbəyindən ibarət olmaqla rolu onunla tamamlanır ki, tədavülə pulun kreditləşdirmə kanalı ilə daxil olması baş verir. Məsələnin digər tərəfi odur ki, kredit əməliyyatlarının baş verməsi sayəsində ölkədəki müvəqqəti azad pul vəsaitlərinin real təsərrüfat tədbirlərinə yönəldilməsi baş verir. Bu mənada kreditin rolu kredit resurslarının yaranması ilə onların yerləşdirilməsi arasında uyğunluqla bağlıdır.

Bir çox hallarda kreditin rolu onun tətbiqinin nəticələri ilə - ümumiyyətlə təsərrüfatla dövlətə və əhaliyə onun xeyri ilə əlaqələndirilir. Əlbəttə ki, kreditin rolunun özünü göstərdiyi başlıca istiqamət onun təsərrüfat fəaliyyəti sferasında tətbiqidir.

Uzunmüddətli kredit növündən istifadə edilməklə istehsalın genişləndirilməsi və yeni əsas fondların yaradılmasında kreditin rolu böyükdür. Kredit bu halda öz rolunu investisiya mənbələrindən biri xidmətini göstərməklə yerinə yetirir. Bununla istehsalın texniki səviyyəsinin yüksəldilməsi sürətləndirilir, habelə sosial

səmərəyə nail olunur. Konkret olaraq bu zaman aparılan kapital qoyuluşu sayəsində kredit istehsalın inkişafı və genişləndirilməsi üçün zəruri olan maşın və avadanlıqların alınması sahəsində müəssisələrin imkanlarını artırır, texniki tərəqqi amillərindən biri rolunu oynayır. Ölkə iqtisadiyyatında bank kreditləri də böyük rol oynayır. Ümumiyyətlə, fəaliyyətdə olan müəssisələrdə dövriyyə fondlarının təşkili problemlərinin həlli mənbələrindən biri bank kreditidir. Bank kreditlərindən istifadə zamanı müəssisə bazarın tələbatı və öz iradəsi ilə sərbəst hərəkət edir, bank tərəfindən edilən təklifləri müstəqil tərəfdaş kimi götür-qoy edir, fəal surətdə məqsədlərinə çatmağa çalışır, kreditin rolunu dərk edir.

Kreditin rolu onun formalarının tətbiqində, ayrı-ayrı kredit növlərinin təsərrüfatlarda istifadəsində üzə çıxır. Kreditin rolu onun bütün formalarında və növlərində, kreditin istifadə edildiyi bütün müəssisələrdə, əhali tərəfindən kreditlərin istifadəsində özünü göstərir.

Kreditin rolu eləcə də iqtisadiyyatın tənzimlənməsində ondan istifadə edilməsində özünü göstərir. Dövlət kreditdən iqtisadiyyatın tənzimlənməsinin güclü aləti kimi istifadə edə bilər və edir.

Kredit münasibətləri təkcə ölkə daxilində deyil, ölkələr arasındakı əlaqələrdə mühüm yer tutur.

Movzu 9
Kredit nəzəriyyələri

1. Kreditin tədqiqində nəzəri cərəyanların metodoloji əsasları

2. Klassiklərin faiz haqqında nəzəri düşüncələri

1. Kreditin tədqiqində nəzəri cərəyanların metodoloji əsasları. Kreditin əsas fərqli cəhəti faizdir. Kredit nəzəriyyələri bu baxımdan təhlil edilir.

Kreditin əhəmiyyətinin şərhində 4 nəzəri istiqaməti göstərmək olar:

1) kredit sosial-iqtisadi sistemə bütövlükdə təsir edir;

2) kredit sosial-iqtisadi sistemə müsbət təsir edir, iqtisadi artımı təmin edir.

3) kredit iqtisadi sistemə münasibətdə neytraldır;

4) kredit iqtisadi sistemdə investisiyaların fasiləsiz təmin edilməsinin ayrılmaz bir elementi kimi çıxış edir.

Kreditin tədqiqində elmi cərəyanların əsasını pul konsepsiyaları təşkil edir. Kredit nəzəriyyəsindəki hər bir cərəyanın özünə uyğun "pul" nəzəriyyəsi var idi. I cərəyan adətən əmtəə pullar və əmtəə pul sistemləri ilə; II cərəyan – tam dəyərli pullar və onların təmsilçiləri ilə; III cərəyan – metal pul sistemləri ilə; IV cərəyan isə dəyişdirilməyən pullar ilə bağlı idi.

Kreditin kapitalyaradıcı nəzəriyyəsi kreditin sosial-iqtisadi sistemə müsbət təsiri olduğunu israr edir, belə ki, kredit kapitalyaradıcı effektə malikdir. XVIII əsrin əvvəllərində kapitalyaradıcı nəzəriyyələrin praktiki olaraq reallaşdırılmasında ən məşhur şəxs Con Lo (1671-1729) idi. XIX əsrdə İngiltərədə bu konsepsiyanın tərəfdarı Q.D.Makleod idi. XX əsrdə Y.Şumpefer onu təbliğ etməyə çalışırdı. C.Lonun mühakimələrinin ilkin bəndini metal pulların təhlili təşkil edirdi. Burada əsas 2 fakta diqqət yetirilirdi: Birincisi, metal sikkə, təbii xüsusiyyətlərinə görə kortəbii surətdə ayrılmış və likvidliyə malik olan əmtəədir. Bununla bərabər pul metalı əlavə dəyər əldə etmiş olur. Əgər metaldan sikkə kəsilməsi dayandırılarsa, metal sahibləri ciddi itkilərə məruz qalarlar. Ona görə də kağız pullar metal sikkələrə nisbətən daha sərfəlidir, çünki onlar əlavə dəyərə malik deyillər. II fakt:

metal pullar əmtəə mübadiləsində nəinki ümumi vasitəçidir, o həm də əmtəələrin dəyər ölçüsüdür. Daxili dəyərə malik olan pul materialı əmtəələrin qiymətinə təsir göstərir ki, bu da ticarətə mənfi təsir edir. Praktiki nəticə aşağıdakılardan ibarətdir: əmtəələrin dəyər ölçüsünün nədən hazırlandığının heç bir əhəmiyyəti olmamalıdır.

C.Lo pulun hər cür istifadəsinin gəlir gətirdiyini israr edərək, belə nəticəyə gəldi ki, tədavüldəki pulun miqdarının artırılmasında ən yaxşı vasitə emissiya banklarıdır. Bank nə qədər çox kredit verirsə, bir o qədər də ölkəyə gəlir gətirən sikkələrin sayı artır, eyni zamanda nəinki məşğulluq artır, ticarət genişlənir, həm də bank gəlir əldə edir.

"Lo sisteminin" ən mənfi nəticəsi o oldu ki, Fransanın maliyyə sistemində hər hansı islahata qarşı qəti şəkildə nifrət yarandı.

1920-ci illərdə Albert Hannın nəzəriyyəsi geniş yayıldı. Onun ilkin bəndi aşağıdakı müddəadan ibarət idi: tələb istehsala nisbətən ilkindir, onu banklar yaradır və bankların qüdrəti məhz burdan irəli gəlir. Hannın fikrinə görə bankların əmanətləri aktiv əməliyyatların yekunu, bank tərəfindən yaradılan kreditin və ya etibarın nəticəsi idi. Bu halda bank müştərisinin cari hesabına verilən kreditin köçürülməsi nəticəsində yaranan törəmə əmanətlərlə əməliyyat aparmış olur.

Klassiklər metal pullara qənaət edilməsində kreditin rolunu göstərdilər. Konsepsiyanın ilkin bəndinə görə kredit verilən pullardan səmərəli istifadə olunduğuna görə A.Smit borc verilən kapitala görə alınan faizi əldə olunan mənfəətlə bağlayır və başqasının kapitalından istifadəyə görə normal ödəniş haqqı hesab edirdi.

Klassik siyasi iqtisadçıların əsas xidməti ondan ibarətdir ki, ilk dəfə onlar kreditlə istehsalın qırılmaz bağlılığını göstərdilər. Smit və Rikardo haqlı olaraq göstərdilər ki, kredit verilən pul digər pullardan fərqlənir, belə ki, onların hərəkəti məhsuldar kapitalın hərəkətindən ayrılıqda ola bilməz və borc götürülən pullar bu və ya digər iş üçün istifadə olunduğundan faiz gətirir. C.Lodan fərqli olaraq klassik iqtisadçılar kreditə yeni kapital yaradıcısı kimi deyil, iqtisadiyyatda artıq mövcud olan kapitalın yenidən bölüşdürülməsi üsulu kimi baxırdılar. Onların inkarolunmaz xidməti o idi ki, onlar faizin borcalan – sahibkar tərəfindən əldə edilən gəlirin bir

hissəsi olduğunu və faiz norması ilə gəlir norması arasındakı asılılığı göstərdilər. Zamanına görə bu, iqtisad elminə çox mühüm töhfə idi və onun kredit nəzəriyyəsinin sonrakı inkişafına təsiri bu problemin tədqiqi ilə məşğul olan alimlərin əsərlərində bir neçə onilliklər ərzində öz əksini tapmışdır.

2. Klassiklərin faiz haqqında nəzəri düşüncələri. Klassik iqtisadi nəzəriyyəyə görə faiz yığımın, yəni istehlakın qənaətinin qarşılığıdır. Bu səbəbdən faiz həddi ilə yığım həcmi arasında bir əlaqə vardır. Bu əlaqə iqtisadi dildə yığım həcminin faiz həddi qarşısında elastik olduğunu nəzərdə tutur.

Wiksellin "Borc verilə bilir" fondlar nəzəriyyəsi. Wikselə görə fondlar təklifi, yalnızca yığımların deyil, yeni yaradılan pulun da məhsuludur. İsveçli K. Wiksell – pul təklifindəki artımın bazar faiz həddini düşürə biləcəyini, bunun da investiziyaları stimullaşdıracağını və nəticədə istehsal tempinin yüksələcəyini irəli sürmüşdür. Wiksell 2 çeşid faiz həddi qavramını açıqlamışdır. Bunlardan birini təbii faiz həddi digərini isə bazar faiz həddi olaraq qəbul etmişdir. Təbii faiz həddi investisiya tələbi ilə yığım təklifinin bir-birinə bərabərliyinə, bazar faiz həddi isə banklar tərəfindən müəyyən edilən faiz həddini göstərir. Wiksellə görə, borc verilə bilən fond təklifi ilə borc verilə bilir, fond tələbinə görə təşkil edilən kredit faiz dərəcələrinin sərmayənin gəlirliyinə bağlı olub, real yığım və real investisiya bərabərliyini – saxlayan təbii faiz nisbətlərindən, aşağı (və ya da yüksək) olması məcmu tələbi artıraraq (və ya azaldaraq) qiymət səviyyəsinə təsir edəcəkdir. Beləliklə, klassik miqdar nəzəriyyəçilərinin pul kütləsinin iqtisadiyyatın real sektoruna təsir etmədiyi yolundakı baxışlarına Viksell qatılmır və bankların kredit siyasəti ilə real sektora təsir edə biləcəyini müdafiə etmişdir.

Movzu 10

Qiymətli kağızlar və onların bazarı

1. Qiymətli kağızların sosial-iqtisadi xarakteristikası

2. Qiymətli kağızlar bazarı. Fond birjası

3. Qiymətli kağızlarla birja əməliyyatları

4. Qiymətli kağızların birjadankənar bazarı

5. Qiymətli kağızlar bazarının idarə olunması

1. Qiymətli kağızların sosial-iqtisadi xarakteristikası. Qiymətli kağızlar kapitalın əmtəə və pul formatlarından fərqlənir. Qiymətli kağızlar mülkiyyət, borc, alqı-satqı və s. kimi müəyyən sosial iqtisadi münasibətlərin təsbitlənməsi formasıdır. Qiymətli kağızların getdikcə artan hissəsi nağdsız şəkildə buraxılır ki, bu zaman kağızın özü mövcud olmur. Bütün qiymətli kağızların malik olduğu fundamental keyfiyyətlərdən ilk növbədə qiymətli kağızların tədavül etməsi, likvidliyi və riskliliyini göstərmək lazımdır.

Qiymətli kağızların tədavül etməsi onun bazarda alınıb-satılmaq, həmçinin bir çox hallarda digər əmtəələrin tədavülünü asanlaşdıran müstəqil tədiyyə aləti kimi çıxış etmək qabiliyyətidir.

Likvidlik qiymətli kağızların onun sahibi üçün böyük itkilərsiz, bazar qiymətinin cüzi dəyişməsi və cüzi satış xərcləri ilə qısa vaxtda alınıb-satılmaq qabiliyyətidir.

Risk qiymətli kağızlara edilən investisiyalarla bağlı və onlar üçün labüd olaraq səciyyəvi olan, bazar konyunkturasının dəyişməsi nəticəsində itki vermək ehtimalıdır.

Maliyyə kapitalının ifadə etdiyi münasibətlərin maddi daşıyıcıları qiymətli kağızlardır. Bu, səhm və istiqrazlardır. Səhm və istiqrazlar korporativ qiymətli kağızlar qrupunu təşkil edir.

Səhmdar cəmiyyət, yaxud korporasiya bir tərəfdən kapitalın təmərküzləşməsi formasıdır, digər tərəfdən isə ümumi kapitala səhmdarların pay qoyuluşu yolu ilə təşkil edilən kapitalist təsərrüfatçılığının başlıca istiqamətidir.

Qapalı səhmdar cəmiyyətlərin səhmlərinin mülkiyyət hüququ şəhadətnamələri kimi ictimaiyyətə açıq, sərbəst satışı qadağandır. Fond bazarlarında sərbəst tədavül edən səhm və istiqrazları isə yalnız açıq səhmdar cəmiyyətin buraxır.

Səhmlərin nağd, yaxud nağdsız şəkildə buraxılmasından asılı olmayaraq adlı səhmlərin sahiblərinin adları səhmdar cəmiyyətlərin reyestrlərində əks edilməlidir. Təqdimatlı səhmlər üzrə isə sahibin kim olması heç cür aşkarlanmır.

2. Qiymətli kağızlar bazarı. Fond birjası. Qiymətli kağızlar əmtəədir və hər bir əmtəə kimi onların öz bazarı var. Buna qiymətli kağızlar, yaxud fond bazarı deyilir. Bu bazar vasitəsilə ən yüksək gəlirliliyi təmin edən sahələrə kapital axını baş verir. Qiymətli kağızlar bazarı ənənəvi olaraq ilkin və ikincili bazara bölünür. İlkin bazarda emitentlər tərəfindən buraxılan qiymətli kağızların ilkin yerləşdirilməsi keçirilir.

II bazarda əvvəl buraxılmış və ilkin yerləşdirmə mərhələsini keçmiş qiymətli kağızların dəfələrlə yenidən alınıb-satılması vasitəsilə tədavülü baş verir. II bazarın ən mühüm cəhəti onun likvidliyidir. Burada məzənnələrin cüzi tərəddüdlü və aşağı satış xərcləri ilə müvəffəqiyyətli və geniş fond ticarətinin mümkünlüyü başa düşülür. II bazarın digər cəhətlərindən isə investisiya imkanlarının genişliyini və müxtəlifliyini, tədavül edən qiymətli kağızların məzziyyətlərinin çeşidliyini, obyektiv və subyektiv amillərdən asılılığını göstərmək olar. II bazarın tərkibində birja bazarını və birjadankənar bazarı fərqləndirirlər.

Birja bazarı məfhumu fond birjası anlayışı ilə məhdudlaşır. Fond birjası ən yüksək keyfiyyətli qiymətli kağızların tədavül etdiyi və əməliyyatların qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən aparıldığı təsisat şəklində təşkil edilmiş xüsusi bazardır. Fond birjaları bazarın daimiliyini likvidliyini və tənzimlənməsini, qiymətlərin tənzimlənməsini, qiymətlərin müəyyən edilməsini, bazar konyukturasının nəzərə alınmasını təmin etməlidir.

Fond birjasının bir neçə funksiyası mövcuddur. I funksiya ondan ibarətdir ki, birja şəxsi yığımları səfərbər etməyə və onları qiymətli kağızlarla əməliyyatlar vasitəsilə uzunmüddətli investisiyalara çevirməyə imkan verir. Fond birjası

qiymətli kağızların tələb olunan likvidliyini təmin edir və qısamüddətli yığımların uzunmüddətli maliyyələşməyə cəlb olunmasına imkan yaradır.

Birjada tədavül edən qiymətli kağızların qiymətləndirilməsi, qeydiyyatdan keçirilməsi və məzənnə bülletenlərində dərc edilməsi fond birjasının digər funksiyasıdır. Birjada formalaşan məzənnələr kapital qoyuluşlarının mənfəətçiliyinin və əsas kapitalın dəyərinin qiymətləndirilməsi mexanizmində etalon meyar rolunu oynayır.

Bu funksiyadan fond birjasının yenidən bölgü funksiyası irəli gəlir. Birjada hər gün artıq istehsala investisiya edilmiş və yeni edilən kapital qoyuluşlarının həcm və istiqamətlərinə təsir edən kapitalın yenidən qiymətləndirilməsi baş verir. Yalnız səhmləri birjada yüksək qiymətləndirilən müəssisələr yeni səhm buraxılışı hesabına istehsalın genişləndirilməsini maliyyələşdirmək imkanına malik olur.

Ən nəhayət, birja nəzarət səhm zərflərinin formalaşdırılması yolu ilə kapitalın mərkəzləşdirilməsi prosesinin sürətləndirilməsində mühüm rol oynayır.

Birjaların tarixən fərqləndirici cəhəti onların fəaliyyətinin qeyri-kommersiya səciyyə daşımasıdır. Bu səbəbdən onlar hüquqi şəxslərdən gəlir vergisindən azad edilmişlər. Lakin bu, o demək deyildir ki, birjanın gəlirləri yoxdur. Fond birjalarının gəlirləri müxtəlif mənbələrdən formalaşır:

- birjada vasitəçilik edən firmaların yerinə yetirdikləri hər bir sifarişdən tutulan rüsum;
- səhmlərinin birja siyahısına daxil edildiyinə görə emitent şirkətlərin ödəmələri;
- birjaya yeni qəbul olunmuş yeni üzvlərin qəbul edilmələri;
- birja üzvlərinin üzvlük ödəmələri və s.

Qiymətli kağızlarla edilən əməliyyatlar birja əməliyyatları adlanır. Birja əməliyyatlarının və yaxud ticarətinin mühüm tərkib hissələrindən biri listinqdir. Listinq qiymətli kağızların fond birjasının xüsusi qiymətləndirmə siyahısına, yəni listinə daxil edilməsidir. Listə daxil edilmiş qiymətli kağızlar satışa buraxılır.

Birja satışına buraxıldıqdan sonra qiymətli kağızların kotirovkası, yəni qiymətləndirilməsi keçirilir.

Bütün birja əməliyyatları ödəmə şərtlərinə görə kassa və müddətli əməliyyatlara ayrılır.

Kassa əməliyyatları əsasən investisiyaların edilməsi ilə əlaqədardır. Kassa əməliyyatında alınıb-satılan qiymətli kağızların ödənilməsi əqd bağlanan kimi dərhal (faktiki 1-2-3 iş günü ərzində) edilir. Alınıb-satılan qiymətli kağızlar dəsti böyük olduqda hesablaşma müddəti uzun olur.

Müddətli əməliyyatlar üzrə isə hesablaşmalar tərəflərin əvvəlcədən müəyyən etdiyi müddətdən sonra əqd bağlanan ana olan məzənnə ilə keçirilir. Deməli, müddətli əqdlər üzrə müqavilənin bağlanıldığı, qiymətin müəyyən edildiyi hesablaşmanın aparılacağı müddətlər əvvəlcədən dəqiq müəyyən olunur. Müddətli əqdlər üzrə hesablaşmalar ya ayın ortasında, ya da ayın sonunda keçirilir.

Müddətli əməliyyatların növləri kimi fyuçers və opsionlar geniş yayılmışdır.

Fyuçers əməliyyatları satıcı və alıcı arasında bağlanan, gələcəkdə müəyyən müddət ərzində əvvəlcədən qəti müəyyən olunmuş məzənnə ilə qiymətli kağızların müəyyən miqdarını müvafiq olaraq satmaq və almaq öhdəlikli, standart müddətli müqavilədir.

Opsion alıcıya müəyyən müddət ərzində müəyyən qiymətlə əmtəənin standart miqdarını almaq hüquqi, satıcıya isə satmaq hüququ verən əqddir.

4. Qiymətli kağızların birjadankənar bazarı. Qiymətli kağızlarla ticarət təkcə birjalarda deyil, onlardan kənarda, yəni birjadankənar bazarda da aparıla bilər. Birjadankənar bazar qiymətli kağızlarla fond birjasından kənarda keçirilən əməliyyatları əhatə edir. Qabaqcıl ölkələrdə fond qiymətli kağızlarının ilkin yerləşmələrin əksəriyyəti, həmçinin birjadan qeydiyyatdan keçmiş kağızlarla müqayisədə aşağı keyfiyyətli olan qiymətli kağızlarla ticarət də məhz bu bazar vasitəsilə edilir.

Birjadankənar bazar ilkin və II qiymətli kağızlar bazarına nisbətən “III bazar” da adlandırılır.

İnformasiya inqilabının təsiri ilə qiymətli kağızların birjadankənar ticarətinin yeni sistemləri meydana gəlmişdir. Onlar kompyuter bünövrəyə malikdir və ərazicə bölüşdürülmüş elektron birjaları kimi çıxış edir. Bu cür sistemin ilki 1971-ci

ildən ABŞ-da fəaliyyət göstərən milli qiymətli kağız dilerləri assosiasiyasının avtomatlaşdırılmış qiymətləndirmə sistemidir, yəni NASDAQ.

Sənayecə inkişaf etmiş ölkələrdə "III bazar" halqası daxilində yeni bir sistem formalaşır ki, onu da artıq "IV bazar" adlandırırlar. Bu sistem qiymətli kağızların böyük dəstlərinin satıcı və alıcılarını kompyuter sistemi vasitəsilə birbaşa, heç bir ənənəvi vasitəçiyə müraciət etmədən birləşdirir. Onların əsasını müxtəlif elektron səhm ticarəti sistemləri təşkil edir (İnstinet, Post). Bir neçə elektron sistemi qiymətli kağızların investorlar tərəfindən şəbəkəyə çıxarılan böyük dəstlərinin alqı satqı axınlarını idarə edir.

5. Qiymətli kağızlar bazarının idarə olunması. Qiymətli kağızlar bazarı çox mürəkkəb sistem olduğundan onun səmərəli idarə olunmasının təmin edilməsi bütövlükdə bazar iqtisadiyyatının ahəngdar fəaliyyətinin mühüm şərtlərindən biridir.

Hər bir idarəetmə sistemi kimi qiymətli kağızlar bazarının tənzimlənməsi sistemi onun məqsədləri, strategiyası və vəzifələrinə uyğun qurulur. Qiymətli kağızlar bazarının idarə olunması sisteminin məqsədi bazarın sabitliyinin, tarazlığının və səmərəliliyinin təmin edilməsidir. Məqsədin müəyyən edilməsi ilə bərabər bazarın idarə edilməsi prosesi tənzimləmə mexanizminin yaradılmasını da nəzərdə tutur. Tənzimləmə mexanizminə isə idarəetmə vasitələri, hüququ, normativ və informasiya təminatı daxildir.

Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi əsasən aşağıdakıları əhatə edir:

- xüsusi normativ-hüquqi aktların hazırlanması və həyata keçirilməsi;
- standartların, yəni bazar iştirakçıları və maliyyə alətləri üçün məcburi olan tələblərin və başqalarının hazırlanması;
- əsas qaydaların nizamlanması və bazar iştirakçıları tərəfindən mövcud qanunvericiliyə riayət olunmasına dövlət nəzarəti.

Qiymətli kağızlar bazarının daxili özünütənzimləmə sistemi də olmalıdır. Bu mənada, qiymətli kağızlar bazarının idarə olunmasında fond bazarı peşəkarlarının birliklərinin rolu böyükdür.

Movzu 11
İnvestisiya sferasında pul-kredit münasibətləri

1. İnvestisiya fəaliyyəti, onun məqsəd və vəzifələri

2. İnvestisiya sferası, onun obyekt və subyektləri

3. Kapital qoyuluşu, sahələrin inkişafında onun rolu və kapital qoyuluşlarının maliyyələşmə mənbələri

4. Layihə-smeta sənədləri, onların tərtibi, təsdiqi və qiymətləndirilməsi.

1. İnvestisiya fəaliyyəti, onun məqsəd və vəzifələri. İnvestisiya prosesi pul vəsaitlərinin toplanmasından başlayaraq real aktivlərin – bina və qurğuların, avadanlıq və texnoloji proseslərin, məişət sosial infrastrukturun yaradılması ilə başa çatır. İnvestisiya sözü uzunmüddətli kapital qoyuluşu anlamında – yeni obyektlərin istifadəyə verilməsi, ölkə daxilində və xaricdə müxtəlif təyinatlı layihələrin həyata keçirilməsi məqsədilə qoyulan yatırımlardır. İqtisadi ədəbiyyatda daha çox investisiyanın aşağıdakı növlərini fərqləndirirlər:

- avadanlıqların təzələnməsi və işçi vəziyyətində saxlanması məqsədlə investisiya ;
- istehsalın genişlənməsi vasitəsilə istehsal güclərinin artırılmasına investisiya;
- elmi-tədqiqat işləri və yeni məhsul istehsalına investisiya;
- reklam işlərinə investisiya;
- ətraf mühitin mühafizəsi və sosial sferaya investisiya;
- strateji investisiya (vəsaitin xarici ölkədə istifadəsi).

"İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununda istifadəsinə görə investisiya 2 kateqoriyaya bölünür:

1) kapital yaradan investisiya – buraya əsas fondların yaradılması və təkrar istehsalına vəsait qoyuluşu aiddir. Təcrübədə bu real investisiya adlanır.

2) Portfel (maliyyə) investisiyaları – buraya qiymətli kağızlar, səhm, istiqraz və digər maliyyə aktivlərinə qoyulan vəsait aid edilir.

Real investisiyalar əsasən uzunmüddətli kapital qoyuluşundan ibarətdir. Bu vəsaitlər əsas fondun yaradılması və təkrar istehsalına, sənaye, kənd təsərrüfatı, elm, təhsil və digər sosial sahənin inkişafına yönəldilir. Burada əsas məqsəd cəmiyyətin sosial-iqtisadi tələblərini ödəməkdən ibarətdir.

Portfel investisiya – bu faktiki kapital olub, onun səhm, istiqraz, veksel və digər qiymətli kağızlara istifadəsidir.

Beləliklə, investisiya istifadə məqsədinə görə kapitalın 2 istiqamətdə:

a) əsas kapitala investisiya qoyuluşları

b) portfel investisiyası – səhm, istiqraz, pay və digər qiymətli kağızlara qoyuluşlar

Mənsubiyyətinə görə investisiyalar aşağıdakı kimi təsnifləşdirmək olar:

- dövlət, bələdiyyə, xüsusi, ictimai birliklər, qarşılıqlı formada, xarici, xaricilərlə qarşılıqlı formada.

İstifadə məqsədlərinə görə obyektlər aşağıdakı əlamətləri üzrə fərqləndirilir:

- istehsal təyinatlı tikintilərə;
- mədəni-məişət və digər qeyri-istehsal təyinatlı obyektlərin tikintisinə;
- geoloji kəşfiyyat və axtarış işlərinə;
- layihə və axtarış işlərinə;

Maliyyələşmə mənbələrinə görə investisiyalar 2 qrupa bölünür:

1) Mərkəzləşdirilmiş vəsaitlər

2) Qeyri-mərkəzləşdirilmiş vəsaitlər.

2. İnvestisiya sferası, onun obyekt və subyektləri. Bütövlükdə investisiya sferasının tərkibi aşağıdakılardan ibarətdir:

- əsaslı tikinti sferası
- innovasiya sferası
- maliyyə kapitalının tədavül etdiyi sfera
- investisiya fəaliyyəti subyektlərinin əmlak hüququnun reallaşdırıldığı sfera.

İnvestisiya fəaliyyəti obyektləri ilk növbədə daşınmaz əmlak obyektlərini əhatə edir. Bu fəaliyyətə aşağıdakıları aid etmək olar:

1) mülkiyyət formasından asılı olmayaraq yeni yaradılmış əsas fondlar;

2) iqtisadiyyatın bütün sferalarında mövcud dövriyyə vəsaitləri;

3) müəssisə və təşkilatlarda əsas istehsal fondlarının modernizasiyası və yenidən qurulması;

4) elmi-texniki məhsul və investisiya layihələndirilməsi;

5) torpaq sahələri.

İnvestisiya fəaliyyətinin subyekti kimi aşağıdakı hüquqi şəxslər çıxış edir:

- investorlar. Bunlar mövcud qanunvericilik səviyyəsində öz vəsaiti və cəlb edilmiş vəsaitləri ilə kapital qoyuluşu həyata keçirən hüquqi və fiziki şəxslərdir.
- sifarişçilər – investisiya layihələrini reallaşdırmaq məqsədilə səlahiyyətə sahib olan hüquqi və fiziki şəxslərdir.
- podratçılar – podrat müqavilə və dövlət kontraktları vasitəsilə investisiya layihələrini reallaşdıran hüquqi və fiziki şəxslərdir.
- layihə - smeta sənədlərini tərtib edən təşkilatlar.
- Kapital qoyuluşu obyektlərinin istifadəçiləri – hüquqi və fiziki şəxslər, dövlət təşkilatları, yerli özünüidarə təşkilatları, xarici ölkə və beynəlxalq təşkilatlar.

Ümumiyyətlə, investisiya fəaliyyəti obyektləri tərkibinə "pul əmanətlərini" də aid etmək olar. İnvestisiya fəaliyyətinin subyektləri investisiya sferasında, bilavasitə investisiyanın reallaşdırılmasında iştirak edir.

3. Kapital qoyuluşu, sahələrin inkişafında onun rolu və kapital qoyuluşlarının maliyyələşmə mənbələri. Kapital qoyuluşu bilavasitə əsas fondların təkrar istehsalı, artırılması və təkmilləşdirilməsinə çəkilən xərclərdir. Bu xərclərin başlıca hissəsi sahələr üzrə əsas fondların təkrar istehsalına istifadə edilir ki, bunun da başlıca mənbəyi milli gəlirdir. Daha doğrusu, milli gəlir dövlət kapital qoyuluşunun maliyyələşdirilmə mənbəyinin əsasıdır. Milli gəlir ölkə üzrə məcmu ümumi məhsulun həcmindən və onun istifadəsindən asılıdır. Məcmu ümumi məhsul özlüyündə müəyyən dövrdə ölkə ərazisində maddi istehsal sahələrinin – sənaye, kənd təsərrüfatı, tikinti, yük nəqliyyatı, rabitənin, maddi sahələrə xidmətindən, həmçinin ticarət, ictimai iaşə, kənd təsərrüfatı məhsullarının tədarükü

və digər maddi sahələrin yaratdıqları məhsullar toplusudur. Milli gəlir isə bütün bunlardan onların istehsalı üçün çəkilən xərclər (xammal, yanacaq, əmək haqqı, enerji və s.) çıxıldıqdan sonra qalan yeni yaradılmış dəyərdir. Yığım fondu və istehlak fonduna ayrılan milli gəlir, bir qayda olaraq, dövlət büdcəsində cəmləşdiyi üçün bir çox hallarda buna kapital qoyuluşunun büdcədən maliyyələşən mənbəyi deyirlər. Milli Gəlirin bir hissəsi də müəssisə və təşkilatların hesabında və əhalidə qalır. Kapital qoyuluşu mülkiyyət formasından asılı olaraq:

- dövlət kapital qoyuluşuna;
- müəssisə və təşkilatların, ictimai təşkilatların, səhmdar cəmiyyətlərinin və digər mülkiyyətçilərə məxsus kapital qoyuluşu;
- əhaliyə məxsus kapital qoyuluşu.

Kapital qoyuluşunun maliyyələşmə mənbələrindən biri də müəssisə və təşkilatların gəlirləri, habelə amortizasiya fondlarıdır.

Müəssisə və təşkilat öz gəlirlərinin bir hissəsini müəssisələrin inkişafı məqsədilə xüsusi təyinatlı fondların yaradılmasına istifadə edirlər. Bunlardan:

- Istehsalın inkişaf fondunu, elm və texnikanın inkişaf fondunu, kapital qoyuluşunun maliyyələşdirilməsi fondunu, sosial inkişaf fondunu göstərmək olar.

Kapital qoyuluşunun maliyyəsi 2 mənbədən: mərkəzləşmiş və qeyri-mərkəzləşmiş mənbələrdən həyata keçirilir. Bir qayda olaraq mərkəzləşmiş mənbələr dövlət plan tapşırıqlarında nəzərdə tutulmuş obyektlərin maliyyələşdirilməsində istifadə olunur. Bu məqsədlər üçün büdcə vəsaitlərindən istifadə olunur.

Qeyri-mərkəzləşmiş mənbələrdən kapital qoyuluşunun maliyyələşməsi – amortizasiya ayırmaları hesabına, kommersiya təşkilatlarının gəliri hesabına və bank krediti hesabına həyata keçirilir. Büdcə vəsaitləri, bir qayda olaraq, dövlət əhəmiyyətli yeni tikintilərin maliyyələşdirilməsində istifadə olunur.

Mövcud müəssisələrin genişləndirilməsi və yenidən qurulması üçün başlıca maliyyələşmə mənbəyi – amortizasiya ayırmalarının əsas fondların təzələnməsinə nəzərdə tutulmuş hissəsidir.

4. Layihə-smeta sənədləri, onların tərtibi, təsdiqi və qiymətləndirilməsi. İstənilən bina və ya qurğu böyük və kiçikliyindən asılı olmayaraq layihə-smeta sənədi olmadan tikilib istifadəyə verilə bilməz. Layihə dedikdə, tikiləcək müəssisə və ya obyektin konstruktiv, texnoloji, həcmi-planlaşdırma və təşkili həllərini göstərən, onun texniki-iqtisadi göstəricilərini və dəyərini əhatə edən, qabaqcadan işlənib hazırlanmış və müvafiq qaydada təsdiq edilmiş, qarşılıqlı əlaqəli sənədlərin toplusu başa düşülür. Bu kompleks sənədlərin qarşılıqlı işlənib hazırlanma prosesinə layihələndirmə deyilir. Layihələndirmə tikinti prosesinin ilkin mərhələsidir. Layihə-smeta sənədləri xüsusi layihə təşkilatları, layihə sənədlərini tərtib etməyə xüsusi icazəsi olan digər hüquqi və fiziki şəxslər tərəfindən işlənib hazırlana bilər. Bunun üçün sifarişçi təşkilatla müqavilə bağlanmalıdır. Müqavilə tərəflərin hüquqi və maliyyə münasibətlərini tənzimləyən əsas sənəddir. Sifarişçi layihə təşkilatına layihələndirməyə aid tapşırıqları aşağıdakı ilkin sənəd və materialları da verməlidir:

- obyektin tikintisi üçün investisiyanın əsaslandırılması;
- yerli icra orqanları tərəfindən obyektin tikiləcəyi ərazinin icazəsi;
- obyektin mühəndis şəbəkəsinə və kommunikasiyalarına birləşdirilməsinin texniki şərtləri;
- sosial-iqtisadi vəziyyət, təbii mühit, tikinti rayonunun sanitar-epidemioloji şəraitini xarakterizə edən materiallar və s.

Layihə-smeta sənədlərinin tərtibi və layihə həlləri dövlət normaları, qaydaları və standartlarına uyğun olmalıdır. Layihə sənədləri maliyyə mənbələrindən və dövlət mülkiyyətindən asılı olmayaraq dövlət ekspertizasından keçməlidir. Layihə hazırlığı 3 əsas dövrə bölünür. I dövrdə kapital qoyuluşunun məqsədi, tikiləcək obyektin gücü və vəzifəsi, buraxılacaq məhsulun çeşidi və ya göstəriləcək xidmətlərin siyahısı, obyektin yerləşəcəyi ərazi, maliyyələşdirmə mənbələri və nəzərdə tutulmuş texniki-iqtisadi göstəricilərə nailolma imkanları qiymətləndirilir. II dövr investisiyanın təsərrüfat zəruriliyi, texniki mümkünlüyü, kommersiya və iqtisadi cəhətdən məqsədəuyğunluğu haqqında qərar qəbul etmək məqsədilə aparılır. III dövr sifarişçi tərəfindən hazırlanmış "əsaslandırmanın" razılaşdırılması, ekspertizası və təsdiqini əhatə edir.

Movzu 12

Bankların yaranması, fəaliyyət spefikası və onların inkişafında gedən başlıca proseslər

1. Bankların və bank işinin yaranması

2. Bankların fəaliyyət spefikası

3. Bankların inkişafında əsas mərhələlər

4. Qloballaşma şəraitində bankların inkişafının əsas prioritetləri

1. Bankların və bank işinin yaranması. Bank fəaliyyətinin rüşeymləri hələ quldarlıq cəmiyyəti dövründən məlumdur. İlk bank təcrübəsi kimi pul dəyişən sərrafların və məbədlərin pul saxlanması fəaliyyətini misal göstərmək olar. Sonralar bu fəaliyyət bir qədər təkmilləşərək, sələm kapitalının və sələmçiliyin meydana gəlməsinə səbəb olmuşdur.

Artıq orta əsrlərdə Şimali İtaliyanın şəhərlərində (ilk olaraq Lombardiya əyalətində), daha sonralar Niderlandın və Almaniyanın ticarət mərkəzlərində bank xüsusiyyətlərini özündə əks etdirən müəssisələr yaranmağa başlanmışdır.

Bank termini italyan sözü olan "banco" və ingiliscə "bank", yəni stol sözlərindən götürülmüşdür. Klassik xarakterli banklar ilk dəfə İngiltərədə XVII əsrin sonlarında meydana gəlmiş və ticarət-sənaye burjuaziyasını kreditləşdirmək kimi əsas bank fəaliyyətini yerinə yetirmişlər.

Bank sisteminin təkamülü Qərbi Avropa dövlətlərində kapitalizmin inkişafı ilə sıx bağlı olmuşdur. Bu zaman artıq bank sistemi və sahibkarlıq investisiya qoyuluşunun xüsusi sferasına çevrilə bilmişdilər. Bankların sayı artır və yerinə yetirdikləri əməliyyatlar genişlənirdi.

Kommersiya bankları bu dövrdə kredit pulların, banknotların emissiyasına başladı. Banknotlar o vaxtadək tədavüldə olan xüsusi vekselləri müvəffəqiyyətlə əvəz edirdi. Bir sıra ölkələrdə çeklərin köməyilə nağdsız hesablaşmaların həyata keçirilməsinə başlanıldı.

XVII əsrin sonlarında bankların yaranması ilə paralel bank tipli səhmdar cəmiyyətlər də meydana gəlir. Artıq XIX əsrdə banklar iqtisadiyyatda ölkələrin

əksəriyyətində güclü təmərküzləşməyə meyllidirlər. Bankların mühüm istiqamətlərindən biri də onların beynəlxalq fəaliyyətlərinin genişlənməsidir. Sənayedə və digər sahələrdə olan beynəlxalq korporasiyalarla yanaşı, son zamanlar dünya iqtisadiyyatında transmilli bankların da formalaşması və diversifikasiyası genişlənmişdir.

2. Bankların fəaliyyət spefikası. Banklar cari fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyasının, Mülki Məcəllənin, "Banklar haqqında Qanun"un, Mərkəzi Bankın normativ xarakterli aktlarının, bankın nizamnaməsinin tələblərinə, onlara verilmiş bank lisenziyasında və ya icazədə göstərilən bütün məhdudiyyətlərə müvafiq surətdə etibarlı qaydada həyata keçirməlidir.

Banklar Mərkəzi Bankdan aldığı bank lisenziyasında qadağan edilməyən aşağıdakı fəaliyyət növləri ilə məşğul ola bilər:

- tələbli və müddətli depozitlərin və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- kreditlərin verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşmə növləri;
- fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən müxbir hesablarının açılması və aparılması;
- klirinq, hesablaşma – kassa xidmətləri, pul vəsaitlərinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlər göstərilməsi;
- ödəniş vasitələrinin buraxılması;
- öz hesabına və ya müştərilərilərin hesabına maliyyə vasitələrinin, xarici valyutanın, qiymətli metalların və qiymətli daşlar, valyuta və sair vasitələrinin, səhmlərin və digər qiymətli kağızların, habelə forvard kontraktlarının, svoplara dair sazişlərin, fyuçerslərin, opsionların valyutalara, səhmlərə, istiqrazlara, qiymətli metallara və faiz dərəcələrinə aid digər törəmə vasitələrin satın alınması və satılması;
- qiymətli metalların əmanətlərə cəlb edilməsi və ya yerləşdirilməsi;
- öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

- qiymətli kağızlar bazarında peşəkar fəaliyyət;
- maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi:
- xidmətlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək;
- qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkassasiya edilməsi və göndərilməsi

Banklar tərəfindən həyata keçirilməyən fəaliyyət növləri isə aşağıdakılardır:

- banklar topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməzlər.

Bank ən azı 3 hüquqi və ya fiziki şəxs tərəfindən açıq səhmdar cəmiyyəti formasında yaradılır. Siyasi partiyalar, ictimai birliklər, fondlar və digər qeyri-kommersiya təşkilatları bankın səhmdarı ola bilməzlər. Banklar yalnız adlı səhmlər emissiya edə bilər.

Bankın təsisçiləri Azərbaycan Respublikası Mülki Məcəlləsinə müvafiq olaraq öz nizamnamələrini tərtib və təsdiq edirlər.

Hər bir bank öz nizamnaməsinə uyğun olaraq aşağıdakıları müəyyən edən reqlament əsasında fəaliyyət göstərir:

- bankın təşkilatı və idarəetmə stukturu, o cümlədən onun əməliyyat və inzibati şöbələri, onların bölmələri və funksiyaları, tabeçiliyi və hesabat verməsi qaydası;
- bankın idarəetməsi və nəzarəti altında olan şöbələrin və bölmələrin rəhbərlərinin vəzifələri;
- daxili audit xidmətinin, digər daimi komitə və komissiyalarının funksiyaları;
- bankın inzibatçılarının və struktur bölmələrinin rəhbərlərinin bank fəaliyyətinin həyata keçirilməsi üzrə səlahiyyətləri.

3. Bankların inkişafında əsas mərhələlər. “Kommersiya bankı” termini bank işi inkişafının ilkin mərhələsində meydana gəlmişdir. O zaman banklar əsasən ticarət və əmtəə mübadiləsi əməliyyatları üzrə yaranan ödənişlərə xidmət edirdi. Bankların əsas müştəriləri kimi tacirlər çıxış edirdilər. Banklar əmtəə mübadiləsi ilə yanaşı daşınma, saxlama və satış əməliyyatlarını da kreditləşdirirdi. Sənaye istehsalının inkişafı nəticəsində istehsal tsiklinin qısamüddətli kreditləşdirilməsi əməliyyatları bankların əsas əməliyyatlarına çevrilir. Bankların yerinə yetirdikləri əməliyyatlar sferasının genişlənməsi və kreditlərin müddətinin uzadılması prosesi artıq bankları universal işgüzar müəssisələrə çevirdi.

1860-cı ildə çar Rusiyasında Dövlət Bankı təsis edilir. Təhkimçilik hüququnun və iltizam sisteminin ləğvindən sonra Rusiyanın bütün əyalətlərində olduğu kimi Azərbaycanda da əmtəə-pul münasibətləri, sürətlə inkişaf etməyə başladı. O, dövrdə Azərbaycanın kredit sistemi 2 istiqamətdə inkişaf edirdi. Kredit şəbəkəsi səhmdar və dövlət kredit müəssisələrdən ibarət idi.

Ümumiyyətlə isə Azərbaycanın bolşevik inqilabına qədərki kredit sisteminə kommersiya banklarının 23 şöbəsi, 7 ipoteka krediti bankı, 5 bankir kontoru, 13 xəzinədarlıq, 135 kiçik kredit müəssisəsi, cəmi 200-dən çox irili-xırdalı kredit təşkilatı daxil idi.

Göründüyü kimi, Azərbaycanın kredit sistemi Qafqazda ən geniş şəbəkəli kredit sistemi olmuşdur.

O zaman Azərbaycan kredit münasibətləri, I növbədə bankları kifayət qədər pul vəsaitlərinə malik idi. Banklar orta və xırda burjuaziya sinfinə kreditlər verirdi.

Bakı banklarının əsas müştəriləri neft sənayesi və bununla əlaqədar sahələrdə fəaliyyət göstərən iri sənayeçilər və səhmdar firmaları idilər.

Pambıqçılıq, ipəkçilik, üzümçülük, şərabçılıq, çəltikçilik, bağçılıq və taxılçılıq sahələrində məşğul olan orta və xırda kənd burjuaziya nümayəndələri isə başlıca olaraq kiçik kredit cəmiyyətlərinin və ssuda-əmanət yoldaşlıqları və kassalarının müştəriləri idilər.

Yerli sənaye və ticarət dairələrinin kreditlə təchiz olunması əsasən veksellərin uçotu və əmtəə qalıqlarına verilən ssudalar qaydasında həyata keçirilirdi. ADR

(1918-1920) dövründə ölkədə müstəqil pul-kredit siyasəti yürüdülürdü. ADR-in müstəqil pul-kredit siyasətinin əsasını cümhuriyyətin milli pulu olan "bonlar", Dövlət Bankı və kommersiya bankları təşkil etmişdi.

Sovet hakimiyyəti dövründə bank sistemində bir neçə dəfə islahatlar aparılsa da, bütün hallarda SSRİ Dövlət Bankının inhisar hüququ saxlanılmaqla ölkədə daima birpilləli bank strukturu mövcud olmuşdur. Lakin buna baxmayaraq qeyd etmək lazımdır ki, sovet dövlətində bank sistemi bütün digər iqtisadi orqanlar içərisində öz sabit və çevik fəaliyyəti ilə daha çox seçilmişdir.

Azərbaycan dövlət müstəqilliyi elan etdikdən və SSRİ dağıldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1992-ci il tarixli Fərmanına əsasən SSRİ Xarici İqtisadi Fəaliyyət Bankı Azərbaycan Respublikası bankının bazası əsasında Azərbaycan Beynəlxalq Bankı yaradılır. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 1992-ci il tarixli fərmanı ilə keçmiş SSRİ Dövlət Bankı, Sənaye-Tikinti Bankı və Aqrar-Sənaye Bankı Azərbaycan Respublikası banklarının bazası əsasında Azərbaycan Milli Bankı və keçmiş SSRİ Əmanət Bankı Azərbaycan Respublikası bankının bazası əsasında isə Azərbaycanın Əmanət Bankı təşkil edildi.

Bu dövrün xarakterik cəhətlərindən biri 1992-ci ilin fevralından avqust ayına qədər Sənaye-Tikinti Bankının və Aqrar-Sənaye Bankının müəssisə və şöbələrinin bilavasitə Azərbaycan Respublikası Milli Bankının tabeçiliyinə verilməsi olmuşdur. 7 avqust 1992-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Azərbaycan Respublikası Milli Bankı haqqında" və "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" qanunlar qəbul edilmişdir. Həmin qanunların qüvvəyə minməsi ilə əlaqədar olaraq Aqrar-Sənaye Bankı və Sənaye İnvestisiya Bankı Milli Bankın tərkibindən çıxarılaraq respublika səhmdar kommersiya banklarına çevrilirlər. Azərbaycan Respublikasının Əmanət Bankı və Beynəlxalq Bankı da respublika səhmdar-kommersiya banklarına çevrilirlər

2000-ci ildə Aqrar Sənaye Bankı, Sənaye İnvestisiya Bankı və Əmanət Bankı birləşdirilərək Birləşmiş Universal Səhmdar Bankı (BUS Bank) yaradılır. 2004-cü ildə BUS Bankın adı dəyişdirilərək Kapital Bank adlandırılmışdır və hazırda o,

tamamilə özəlləşdirilmişdir. 2009-cu ilin martında keçirilmiş referendum nəticəsində Milli Bankın adı dəyişdirilərək Mərkəzi Bank adlandırılmışdır.

4. Qloballaşma şəraitində bankların inkişafının əsas prioritetləri. Bank sistemində baş verən dəyişikliklər bir sıra amillərlə əlaqədardır ki, buraya ilk növbədə faiz stavkalarını, valyutaların mübadilə kurslarını və əmtəə qiymətlərini aid edirlər. Bu dəyişikliklər aşağıdakı konsepsiyanın qəbul edilməsini şərtləndirir.

- maliyyə əməliyyat şəffaflığı (transparentlik);
- informasiya texnologiyalarının mənimsənilməsi;
- kapital (onun adekvatlığı);
- müştəri uğrunda mübarizə;
- risk dərəcəsi.

Maliyyə xidmətlərinin qloballaşması, müxtəlif bank olmayan kredit təşkilatları tərəfindən rəqabətin gücləndirilməsini şərtləndirmişdir ki, bu da ilk növbədə qeyd olunduğu kimi faiz stavkalarına və mənfəətə təsir göstərmişdir. Bankların ənənəvi fəaliyyət növləri üzrə gəlirliyi azalmışdır. Banklar maliyyə xidmətləri sferasında öz fəaliyyətlərini diversifikasiya etməyə məcbur olmuşlar.

Son illərdə maliyyə xidmətlərinin satış şəbəkəsi genişlənməkdə davam etmişdir. Bankların filial və şöbələrinin sayı artmış, bankomat və post terminal şəbəkəsi əhəmiyyətli surətdə genişlənmişdir. Regionlarda əhalinin maliyyə bank xidmətlərinə çıxış imkanlarının artırılması məqsədilə Mərkəzi Bank Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə Dünya Bankının "Maliyyə xidmətlərinin inkişafı layihəsi" çərçivəsində "Azərpoçt" layihəsini icra etmişdir. Maliyyə xidmətləri üzrə innovasiyalar davam etmiş, bu sahədə banklararası rəqabət daha da güclənmişdir. Bankların beynəlxalq reytinqi yüksəlmişdir. Banklarda risk menecmenti mədəniyyətinin formalaşması və risk menecerlərinin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Bu çərçivədə risk menecerlərinin qabaqcıl səviyyədə sertifikasiyası həyata keçirilmiş, risk menecmenti gücləndirilmişdir.

Movzu 13

Bank və kredit sistemi, onların elementləri

1. Bank və kredit sistemi anlayışı

2. Mərkəzi Bankların ümumi xarakteristikası

3. Mərkəzi Bankın məqsədi, vəzifələri, funksiyaları və əməliyyatları

4. Mərkəzi Bankın pul-kredit siyasəti

5. Azərbaycan Respublikasının Mərkəzi Bankı

1. Bank və kredit sistemi anlayışı. Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikası Mərkəzi Bankından və kredit təşkilatlarından ibarətdir. Ölkəmizdə kredit təşkilatlarının fəaliyyəti Azərbaycan Respublikasının Konnstitusiyası, Mülki Məcəllə, Banklar haqqında, Mərkəzi Bank haqqında, Kredit İttifaqları haqqında, Bank olmayan kredit təşkilatları haqqında qanunlarla, Mərkəzi Bankın bunlara müvafiq olaraq qəbul edilmiş normativ aktları, habelə Azərbaycan Respublikasının tərəfdaş çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Cari bank fəaliyyəti ilə bağlı qərarlar qəbul edərkən kredit təşkilatları dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir və onlar kredit təşkilatlarının fəaliyyətinə qarışa bilməzlər.

Azərbaycan Respublikası ərazisində banklar, qeyri-bank kredit təşkilatları və poçt rabitəsinin milli operatoru bank fəaliyyətini Mərkəzi Bankın verdiyi xüsusi razılıq əsasında həyata keçirə bilər.

Banklar haqda Azərbaycan Respublikası Qanunun I maddəsində kredit təşkilatlarına belə tərif verilmişdir: kredit təşkilatı – bank, xarici bankın yerli filialı və qeyri-bank kredit təşkilatıdır. Qanunla qeyd olunan bu anlayış göründüyü kimi sistem olaraq 3 elementdən ibarətdir. Bank – fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma – kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir. Xarici bankın yerli filialı dedikdə - əsas fəaliyyət yeri Azərbaycan Respublikası

olan bank, filial və ya nümayəndəlik başa düşülməlidir. Qeyri-bank kredit təşkilatı öz vəsaiti və cəlb edilmiş vəsait hesabına yalnız pul formasında kreditlər verməklə məşğul olan hüquqi şəxsdir. Bir sistem olaraq kredit təşkilatının əsas əməliyyatlarından biri kreditlərin verilməsidir. Kredit bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə və faizlər ödənilmək şərti ilə təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, təminat, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

Normativ hüquqi sənədlərin təsnifatına müvafiq olaraq bank müəssisələri istisna olmaqla qeyri-bank kredit təşkilatları və digər maliyyə təşkilatları bank əməliyyatlarını məcmu halda həyata keçirə bilməzlər. Yəni, onlar bank xidmətlərinin bu və ya digər növünü, daha dəqiq desək, yalnız kredit əməliyyatlarını icra edə bilərlər. Qeyri-bank kredit təşkilatları depozit əməliyyatlarını ümumiyyətlə həyata keçirə bilməzlər. Depozit əməliyyatlarını yalnıız banklar və poçt rabitəsinin milli operatoru tərəfindən həyata keçirə bilər.

2. Mərkəzi Bankların ümumi xarakteristikası. Bank sistemi mövcud olan bütün ölkələrdə pul-kredit sisteminin əsas həlqəsini Mərkəzi Bank təşkil edir. Dünya bank sistemi tarixində ilk mərkəzi banklar çox əvvəl yaradılmışdır. İlk Mərkəzi Bank kimi İsveç Mərkəzi Bankı 1668-ci ildə yaradılmışdır. Müəyyən müddət sonra 1694-cü ildə İngiltərə Bankı yaradılmışdır. Bu bank 1848-ci ilədək krallığın xartiyası əsasında fəaliyyət göstərmişdir.

Ölkənin bankları sırasından bir bankın Mərkəzi Bank rolunun oynaması artıq ölkədə 2 pilləli bank sisteminin yaranmasının başlanğıcı deməkdir ki, yuxarı pillədə də Mərkəzi Bank dayanır.

Mərkəzi Bankın yaradılması tarixi zərurət olub azad sahibkarlığı saxlamaqla bazarın kortəbiiliyini buxovlamaq imkanı verir.

Mərkəzi Bank pul tədavülünün stabilləşməsinə yönəldilən pul-kredit siyasətini həyata keçirən bir orqandır. BİŞ-də onun əsas vəzifəsi – pulun alıcılıq

qabiliyyətini və dəyərini qorumaq, maliyyə bazarının fəaliyyəti üçün normal şərait yaratmaqdır. Mərkəzi Bankların meydana çıxması bank emissiyasının mərkəzləşdirilməsi, ölkədə pul tədavülünün təşkilinin zəruriliyi, bütün xalq təsərrüfatı miqyasında kredit siyasətinin həyata keçirilməsi və pul hesablaşmaları sisteminin fəaliyyəti ilə əlaqədardır.

Mərkəzi Bankın mahiyyəti bir sıra amillərlə müəyyən edilir. İlk növbədə Mərkəzi Bank iqtisadi institut kimi xarakteriaə edilir. Mərkəzi Bank, hər şeydən əvvəl, tənzimləmənin iqtisadi metodlarından istifadə edir.

Onun pul-kredit siyasəti puldan, kreditdən, faizdən, valyuta kursundan iqtisadi inkişafın stimullaşdırılması aləti kimi istifadəyə əsaslanır, əmtəə-pul münasibətləri sistemində fəaliyyət göstərməklə Mərkəzi Bank onların inkişafı səviyyəsindən asılı vəziyyətə düşür. Lakin bu əməliyyatla Mərkəzi Bankın mahiyyətini açmaq olmur. Belə ki, iqtisadi fəaliyyət növləri ilə digər iqtisadi subyektlər də məşğul olurlar. Mərkəzi Banklar tərəfindən yerinə yetirilən əməliyyatlar siyahısında digər xüsusiyyətlər də nəzərə çarpır və bu əməliyyatlar əsasən mübadilə ilə əlaqədardır. Ona görə də Mərkəzi Bankı tam əsaslarla mübadilə institutu adlandırmaq olar. Mübadilə institutu kimi xarakterizə edilməsi onun fəaliyyətinin vacib məqamını əks etdirir.

Mərkəzi Bank kommersiya banklarından başqa əlamətinə görə də fərqlənir:

1. Məqsədli təyinatı baxımından kommersiya banklarının fəaliyyətinin əsas məqsədi mənfəət əldə etmək olduğu halda Mərkəzi Bankın əsas məqsədi mənfəət əldə etmək deyildir.

2. Mülkiyyət baxımından Mərkəzi Bank kapitalı dövlətə məxsus olduğu halda kommersiya banklarının kapitalı səhmdar kapitalı formasında yaranır.

3. Miqdar və kapital bazasına görə hər bir ölkədə vahid Mərkəzi Bank fəaliyyət göstərdiyi halda milli ənənələrə, iqtisadiyyatın miqyası, ərazi həcmi baxımından onlarla, yüzlərlə və minlərlə kommersiya bankı fəaliyyət göstərə bilər. Bu baxımdan kommersiya bankları kapital bazasına görə böyük, orta və kiçik kredit idarələrinə bölünürlər. Mərkəzi Bank kapitalın həcminə görə bölünmür, belə ki, hər ölkədə bir Mərkəzi Bank olur.

4. Fəaliyyət istiqamətinə görə də onlar fərqlənirlər. Kommersiya bankları müəyyən xidmət növlərinə malikdirlər. Onlar universal və ixtisaslaşmış banklara bölünürlər. Milli Banklar onlara verilmiş səlahiyyət statusuna görə geniş əməliyyat və xidmət dairəsinə malik universal pul-kredit təşkilatıdır.

5. Sahə istiqamətinə görə də banklar fərqlənirlər. Kommersiya bankları əksərən müəyyən bir sahəyə xidmət göstərirlər və onların adları xidmət sahələrinə uyğunlaşdırılır. Onların müştəriləri əsasən həmin sahələrin müəssisələri olurlar.

6. Region əlamətləri istiqamətində Milli Banklar milli idarədir, ölkənin ərazisindəki bütün iqtisadi subyektləri xidmət göstərirlər. Qarşılarına qoyulan vəzifələrə uyğun olaraq beynəlxalq valyuta-kredit münasibətləri ilə də məşğul olurlar. Kommersiya bankları isə regional, şəhər, regionlararası və beynəlxalq ola bilərlər.

7. Müştəri baxımından da onlar fərqlidirlər.

8. Hüquqi təminat baxımından Mərkəzi Banklar ali hakimiyyət orqanının sərəncamı ilə yaradılır.

9. Milli Bankın fəaliyyəti dövlətin nəzarətindədir.

10. Milli Banklar vergi ödəyiciləri deyillər.

11. Milli Bankların kapitalı dövlətin olduğuna görə o müflis elan oluna bilməz.

3. Mərkəzi Bankın məqsədi, vəzifələri, funksiyaları və əməliyyatları. Mərkəzi Bankların məqsəd və vəzifələri onun mahiyyəti ilə müəyyən edilir. Mərkəzi Bankların məqsədi pul-kredit münasibətləri sferası ilə uyğunlaşır. Bu baxımdan onun qarşısında duran vəzifələr isə maddi istehsal, onun bölgüsü və istehlakı ilə deyil, əmək məhsullarının mübadiləsinin təmin edilməsi ilə müəyyən edilir. Mərkəzi Bankların vəzifəsi ondadır ki, lazım gəldikdə, o son kreditor mərhələsi kimi çıxış etməli, onların likvidliyini qorumalıdır. Nəzarət orqanı kimi fəaliyyət göstərdikdə Mərkəzi Bankların vəzifəsi kredit idarələrinin səmərəli fəaliyyətinin təmin edilməsi ilə əlaqədardır.

Mərkəzi Banklar öz məqsəd və vəzifələrini yerinə yetirmək üçün müvafiq funksiyalara malikdirlər. Bank funksiyalarını 5 əsas qrupda qruplaşdırmaq olar:

1. Pul-kredit tənzimlənməsi
2. Normativ tənzimləmə funksiyası
3. Əməliyyat funksiyası
4. İnformasiya – analitik funksiya
5. Nəzarət funksiyası.

I funksiya çərçivəsində Milli Banklar qanuna müvafiq aşağıdakı funksiyaları yerinə yetirir:

- hökumət ilə qarşılıqlı əlaqədə dövlətin vahid pul-kredit siyasətini müəyyənləşdirib onu həyata keçirir.
- inhisarçı qaydada nağd pulların emissiyasını həyata keçirərək nağd pul dövriyyəsini təşkil edir.
- kommersiya bankları üçün son kreditor mərhələsi kimi çıxış edərək onların yenidən maliyyələşdirilməsi sistemini təşkil edir.

II funksiya çərçivəsində aşağıdakılar nəzərdə tutulur:

- bank əməliyyatlarının aparılma qaydasının işlənib hazırlanması;
- bank sistemi üçün mühasibat uçotu və hesabatlılıq qaydalarının müəyyən edilməsi;
- respublikada hesablaşmaların aparılma qaydalarının müəyyənləşdirilməsi;
- beynəlxalq təşkilatlar, dövlətlər, eləcə də hüquqi və fiziki şəxslərlə hesablaşma qaydalarının işlənib hazırlanması.

III funksiya Mərkəzi Banka:

- sərbəst və ya hökumətin tapşırığına əsasən bütün bank əməliyyatlarını həyata keçirmək;
- ölkənin qızıl-valyuta ehtiyatlarını idarə etmək;
- ölkənin büdcə sisteminin bütün büdcələrinin hesablarına xidmət göstərmək imkanı verir.

IV funksiyanı yerinə yetirməklə Mərkəzi Banklar:

- bütün ölkə və regionlarda iqtisadiyyatın vəziyyətini təhlil edərək proqnozlaşdırır;

- ölkənin ödəniş balansının proqnozlarının işlənilməsində iştirak edir və onun tərkibini təşkil edir;
- milli pul vahidinə nisbətdə xarici valyutaların kursunu müəyyən edir və elan edir.

V funksiya Mərkəzi Banklara aşağıdakıları həyata keçirmək imkanı verir:

- bank qrupları və banklar üzərində nəzarət;
- bankların dövlət qeydiyyatına götürülməsi, bankın əməliyyatlarının aparılmasına lisenziyaların verilməsi, lisenziyaların fəaliyyətinin dayandırılıb, geri götürülməsi;
- qiymətli kağızların emissiyasının banklar tərəfindən qeydiyyata alınması;
- valyuta tənzimlənməsi və valyuta nəzarəti.

Mərkəzi Bankların əməliyyatları aktiv və passiv əməliyyatlara bölünür. Mərkəzi Bankların passiv əməliyyatları pul vəsaitlərinin cəlb olunub ehtiyatlarının artırılmasına yönəldilən əməliyyatlardır.

4. Mərkəzi Bankın pul-kredit siyasəti. Pul-kredit siyasəti dedikdə, ölkədə pul-kredit münasibətlərinin təşkili sahəsində Mərkəzi Bankların hökumət ilə birgə işləyib hazırladığı tədbirlərin məcmusu başa düşülür.

Daha dəqiq desək, Mərkəzi Bankların pul-kredit siyasəti dedikdə,

- iqtisadi artımın tənzimlənməsi;
- inflyasiyanın buxovlanması;
- istehsalın səmərəliliyinin yüksəldilməsi;
- əhalinin məşğulluğunun təmin edilməsi;
- xarici iqtisadi əlaqələrin stabilləşməsinə və s. yönələn pul tədavülü və kredit üzrə Mərkəzi Bankların və hökumətin həyata keçirdiyi tədbirlərin məcmusu başa düşülür.

Pul-kredit siyasətinin iqtisadi və təşkilati əsasının xüsusiyyəti onun obyektləri və subyektlərinin xüsusiyyətləri ilə müəyyən edilir. Pul-kredit siyasətinin obyekti kimi pul bazarındakı tələb və təklif qəbul edilir. Mərkəzi Banklar və kommersiya bankları pul-kredit siyasətinin subyektləri hesab edilir.

Pul-kredit siyasətinin həyata keçirilməsində müəyyən metodlardan istifadə edilir. Pul-kredit siyasəti metodu dedikdə, qarşıya qoyulmuş məqsədlərə nail olmaqçün Mərkəzi Bankların və kommersiya banklarının, yəni pul-kredit siyasəti subyektlərinin obyektlərə təsir göstərə bildiyi üsul və əməliyyatların məcmusu başa düşülür. Pul-kredit siyasəti metodunun qarşıya qoyulmuş məqsədlərlə əlaqəsi baxımından birbaşa və dolayı metodları fərqləndirirlər. Birbaşa metodlar dedikdə, pul-kredit təklifi, maliyyə bazarındakı qiymətlər və s. Mərkəzi Bankların müxtəlif direktivlər formasında gördüyü inzibati tədbirlərdir. Pul-kredit siyasəti tənzimləmənin dolayı metodlarına keçid maliyyə liberallaşması prosesi və iqtisadiyyatda Mərkəzi Bankların sərbəstlik dərəcəsinin və funksiyalarının artması deməkdir. Ümumi və selektiv metodlar da fərqləndirilir.

Ümumi metodlar əsasən dolayı metod hesab edilir və o, ümumilikdə pul bazarına dolayısı yolla təsir edir.

Selektiv metodlar – kreditin konkret növlərini tənzimləyir və əsasən direktiv xarakter daşıyır. Bu metodlardan istifadə etməklə Mərkəzi Banklar kredit resurslarının mərkəzləşdirilmiş qaydada yenidən bölgüsü funksiyasını qoruyub saxlamış olur.

Pul-kredit siyasəti subyektlərinin onun obyektlərinə təsiri xüsusi maliyyə alətlərinin köməyi ilə həyata keçirilir. PKS alətləri dedikdə aşağıdakılar başa düşülür:

- məcburi ehtiyat normalarının dəyişdirilməsi;
- Mərkəzi Bankların faiz siyasəti, yəni kommersiya banklarının Mərkəzi Bankdan borc alma və ya kommersiya bankları vəsaitlərinin Mərkəzi Banklarda deponlaşdırılması mexanizmlərinin dəyişdirilməsi;
- açıq bazarda dövlətin qiymətli kağızlarla əməliyyatları.

5. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Azərbaycan Respublikasının Mərkəzi Bankı respublika prezidentinin 11 fevral 1992-ci il tarixli fərmanı ilə Milli Bank adı altında yaradılmışdır. Milli Bank haqqında 7 avqust 1992-ci il, 10 iyun 1996-cı il, 10 dekabr 2004-cü il tarixində qanun qəbul edilmişdir.

Milli Bankın dünya miqyasındakı fəaliyyətinin daha da genişləndirilməsi məqsədilə respublikada 18 mart 2009-cu ildə keçirilən referendumun nəticələrinə görə 2009-cu ildən Milli Bank Mərkəsi Bank adı altında fəaliyyət göstərməyə başlamışdır.

Mərkəzi Bank hüquqi şəxs olmaqla Azərbaycan Respublikası Vergi Məcəlləsinə müvafiq olaraq vergi güzəştlərinə malikdir, dövlət rüsumu yığımlarının bütün növlərinin ödənilməsindən azaddır.

Mərkəzi Bankın qanunla 3 məqsədi müəyyən edilmişdir:

1. Mərkəzi Bankın əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyini təmin etməkdir.

2. Bank və ödəniş sistemlərinin sabitliyini və inkişafını təmin etmək məqsədi Mərkəzi Bankın məqsədidir.

3. Mənfəət əldə etmək Mərkəzi Bankın əsas məqsədi deyildir. Mərkəzi Bankın funksiyaları aşağıdakılardır:

1) Dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir.

2) Nağd pul dövriyyəsini təşkil edir.

3) Manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir.

4) Qanunvericiliyə uyğun olaraq valyuta tənzimlənməsini və nəzarətini həyata keçirir.

5) Sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir.

6) Hesabat tədiyyə balansını tərtib edir və ölkənin proqnoz tədiyyə balansının hazırlanmasında iştirak edir.

7) Bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, bank fəaliyyətinə nəzarət edir.

8) Ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanunauyğun olaraq həyata keçirir.

9) Bu qanun və digər qanunlarla nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.

Movzu 14

Kommersiya banklarının və ixtisaslaşmış kredit təşkilatlarının fəaliyyətinin əsasları

1. **Kommersiya banklarının əməliyyatları və maliyyə xidmətlərinin göstərilməsində onların rolu**
2. **Kommersiya banklarının əməliyyatları**
3. **Kommersiya banklarının riskləri və onların idarə edilməsi**
4. **İxtisaslaşmış maliyyə-kredit institutları**

1. Kommersiya banklarının əməliyyatları və maliyyə xidmətlərinin göstərilməsində onların rolu. Kredit təşkilatları banklara və bank olmayan kredit təşkilatlarına bölünürlər. Kommersiya bankları öz müştərilərinə - müəssisə və təşkilatlara, eləcə də əhaliyə bilavasitə xidmət göstərən bankdır.

Bank hüquqi və fiziki şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Deməli, aşağıdakı bank əməliyyatlarını məcmu halda yerinə yetirən kredit təşkilatı bank adlanır:

- fiziki və hüquqi şəxslərin pul vəsaitlərini qoyuluşa cəlb etmək;
- cəlb edilmiş vəsaitləri öz adından və öz hesabına qaytarılmalı olan, müddətlilik və ödənclilik şərtləri ilə yerləşdirmək;
- fiziki və hüquqi şəxslərə bank hesabları açıb hesablar üzrə əməliyyatlar aparmaq;

İxtisaslaşma səviyyəsinə görə kommersiya bankları universal və ixtisaslaşmış banklara bölünür.

Bank olmayan kredit təşkilatı öz vəsaiti və ya cəlb edilmiş vəsait hesabına yalnız pul formasında kreditlər verməklə məşğul olur.

Kommersiya bankları öz fəaliyyətlərində aşağıdakı prinsiplərə əsaslanır:

1. Faktiki mövcud vəsait müqabilində fəaliyyət göstərmək;

2. Tam iqtisadi müstəqillik;

3. Kommersiya banklarının müştərilər ilə iqtisadi münasibətlərinin kommersiya əsasında qurulması;

4. Kommersiya banklarının fəaliyyətinin iqtisadi metodlarla nizamlaşdırılması;

Kommersiya bankları öz fəaliyyətində müəyyən funksiyaları yerinə yetirir. Kommersiya bankları fiziki və hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəlb edib onları ehtiyacı olanlar arasında bölüşdürməklə tərəflər arasında vasitəçi kimi çıxış edir. Deməli, banklar kreditləşmə əməliyyatları üzrə vasitəçilik funksiyasını yerinə yetirir. Bankların vasitəçilik funksiyasının xüsusiyyəti ondadır ki, vəsaitlərin yenidən bölgüsü zamanı, həm bankın, həm də vəsait sahiblərinin mənfəətli mənafeyi təmin olunur. Sərbəst pul vəsaitlərinin banklar vasitəsilə bölüşdürülməsi pul itkiləri riskini əhəmiyyətli dərəcədə azaldır.

Bankın kredit prosesində vasitəçiliyi ödəniş vasitələrinin emissiyası ilə əlaqədardır. Müştəri bankdan kredit alıb onu öz hesabına daxil edən zaman ödəniş vasitəsinin həcmi artır ki, beləliklə bank kreditləşmə prosesində yenidən ödəniş vasitəsi yaratmış olur. Kredit ödənilən zaman isə hesablaşma hesabından vəsait silinir, ödəniş vasitələri və ümumi pul kütləsi azalır.

Banklar eyni zamanda təsərrüfatlarda yığımın stimullaşdırılması funksiyasını da yerinə yetirir. Banklar müştəriləri hesablarında əhəmiyyətli dərəcədə pul saxlamağa maraqlandırır. Banklar bu vəsaitlərin toxunulmaz saxlanmasına təminat verməklə onlara yüksək faizlər ödəyir.

2. Kommersiya banklarının əməliyyatları. Kommersiya bankları əsas əməliyyatlar və sövdələşmə əməliyyatlarını yerinə yetirirlər. Aşağıdakı əməliyyatlar əsas bank əməliyyatları hesab edilir:

- fiziki və hüquqi şəxslərin pul vəsaitlərinin qoyuluşa cəlb edilməsi;
- öz adından xüsusi və cəlb etdikləri vəsait hesabına kreditlərin verilməsi;
- fiziki və hüquqi şəxslərə hesablar açıb, onlar üzrə əməliyyatlar aparmaq;
- müştərilərin və müxbir bankların tapşırığına əsas hesablaşmalar aparmaq;

- pul vəsaitlərinin, veksellərin hesablaşma-ödəmə sənədlərinin inkassasiasiya və müştərilərə kassa xidməti;

- vəsait sahibləri və ya onların sərəncamlaşdırıcıları ilə müqavilə əsasında pul vəsaitlərinin idarə olunması;

- nağd və nağdsız formada fiziki və hüquqi şəxslərdən xarici valyutanın alınması və onlara satılması;

- müvafiq qanunçuluğa əsasən qiymətli metallarla əməliyyatlar aparmaq;

- bank əmanətlərinin verilməsi.

Kommersiya banklarının resurslarının formalaşması ilə əlaqədar əməliyyatların məcmusu passiv əməliyyat hesab olunur.

Bankların passiv əməliyyatlarına daxildir: fiziki və hüquqi şəxslərin hesablaşma hesabı və cari hesablarına cəlb edilmiş vəsaitlər, müəssisə və təşkilatların müddətli depozit hesabları, əhalinin əmanətləri, qiymətli kağızlar buraxılışı; digər banklardan alınan borc vəsaitləri.

Kommersiya banklarının resursları təşkili mənbələrinə görə xüsusi vəsaitlərə və cəlb olunmuş vəsaitlərə bölünür.

Xüsusi vəsaitlər: nizamnamə fondu, ehtiyat fondu, bankın mənfəəti hesabına yaradılan xüsusi təyinatlı fondlar, il ərzində bölüşdürülməmiş mənfəət. Aktiv əməliyyatlar cəlb olunmuş vəsaitlərin yerləşdirilməsi ilə əlaqədar olub banka gəlir gətirir. Aktiv əməliyyatlara daxildir: müəssisə və təşkilatların qısa və uzunmüddətli kreditləşdirilməsi, əhaliyə istehlak kreditinin verilməsi; lizinq, faktorinq, forfeytinq əməliyyatları; xarici valyuta və qiymətli kağızlarla əməliyyatlar.

Aktiv əməliyyatlar passiv əməliyyatlardan sonra gələn əməliyyatlardır. Onların həcmi və müddətləri passiv əməliyyatların parametrlərindən asılıdır. Belə ki, kommersiya bankları passiv əməliyyatlar nəticəsində cəlb etdikləri resursları yerləşdirə bilərlər. Passiv əməliyyatların da əsas hissəsini xüsusi vəsaitlər deyil, cəlb edilmiş vəsaitlər təşkil edir. Aktiv əməliyyatlar yerinə yetirərkən banklar vəsaitlərin yerləşdirilmə müddətlərini onların cəlb olunma müddətləri ilə uzlaşdırmalıdır. Yalnız bu halda bank ödəniş qabiliyyətliliyini, maliyyə möhkəmliyini qoruyub saxlaya bilər və əlavə müştəri cəlb edə bilər.

İqtisadi məzmununa görə bankların aktiv əməliyyatları ssuda, hesablaşma, kassa, investisiya, zəmanət və s. bölünür.

Ticarət –komisyon əməliyyatlarına: müştəri üçün qiymətli kağızların, qiymətli metalların alınıb-satılması; faktorinq, lizinq və digər əməliyyatlar daxildir.

Bankların komisyon- vasitəçilik əməliyyatları içərisində əsas yerlərdən birini trast əməliyyatları tutur. Trast əməliyyatları dedikdə, müştəri ilə müqavilə əsasında müştərinin tapşırığına görə onun vəsaitlərinin idarə edilməsi başa düşülür.

Trast əməliyyatlarında:

- əmlakını idarə etmək üçün müqavilə əsasında onu etibarlı mülkiyyətçiyə etibar edən;
- etibarlı idarəedən – trast müqaviləsinə əsasən əmlakı idarə etmək hüququnu öz üzərinə götürən tərəf;
- qazanc əldə edən – xeyrinə əmlakı idarə olunan şəxs iştirak edir.

Trast xidməti 3 əməliyyat qrupunu əhatə edir:

- miras qalmış əmlakın sərəncamlaşdırılması ;
- himayəçilik ilə əlaqədar əməliyyatlar;
- agent xidmət.

Lizinq əməliyyatları öz iqtisadi məzmununa görə aktiv əməliyyat, təşkilati formasına görə vasitəçilik əməliyyatı hesab edilir. Lizinq sahibkarlıq fəaliyyəti olub istehsal təyinatlı əmlakın kirayəyə verilməsi deməkdir. Bu zaman bir şəxs digər şəxsə ona lazım olan əmlakı özünün sərbəst vəsaiti hesabına əldə edərək haqqı ödənilməklə müvəqqəti istifadəyə verir. Lizinq fəaliyyəti – investisiya fəaliyyətinin bir növü olub, əmlakı əldə edib onu lizinqə keçirmək fəaliyyətidir. Lizinqin subyekti kimi – lizinqverən, lizinqalan, satıcı çıxış edirlər.

Faktorinq əməliyyatı hesablaşan tərəflər arasında hesablaşmalarda yaranan problemlərin həlli ilə əlaqədar əməliyyatlardır. Bu əməliyyatların mahiyyəti ondadır ki, bu əməliyyatla məşğul olan firma və ya bank öz müştərilərinin bir-birinə olan borc tələblərini satın alaraq 2-3 gün ərzində onun dəyərinin 70-90%-ni ödəyir. Yerdə qalan 30-10%-ni satıcı ona ödəyicinin onun tələbnaməsini tam

ödədikdən sonra ödəyir. Faktorinq əməliyyatında 3 tərəf: faktor vasitəçi, satıcı və alıcı iştirak edir.

Faktor qismində kommersiya bankları və xüsusi faktorinq kompaniyaları çıxış edə bilirlər. Faktorinq riskli əməliyyat növü olsa da faktorlar bu əməliyyatlardan gəlir götürürlər. Faktorinq əməliyyatının iqtisadi mahiyyəti ondadır ki, müəssisələrin aktivlərinin likvidliyinin təmin olunmasına, kapitalın dövriyyəsinin sürətlənməsinə, rentabelliyinin yüksəldilməsinə kömək edir.

3. Kommersiya banklarının riskləri və onların idarə edilməsi. Risk dedikdə, gəlirlərin azalması, bankın öz mənfəətinin bir hissəsini itirməsi, itkilərin meydana çıxması və ya maliyyə əməliyyatlarının həyata keçirilməsi nəticəsində əlavə xərclərin meydana çıxması ehtimalıdır. Bank fəaliyyətinin riski dedikdə, bankın mənfəətinin nəzərdə tutulduğundan az olması ehtimalı başa düşülür. Bank riskləri aşağıdakı səbəblərdən meydana çıxa bilər:

- ölkənin iqtisadi vəziyyəti;
- bank sisteminin vəziyyəti;
- bank qanunçuluğunun qeyri-təkmil olması;
- bankın maliyyə bazarındakı vəzyyəti və banklararası rəqabətin səviyyəsi;
- bankın müştəri bazasının səviyyəsi;
- bank menecmentinin qeyri-qənaətbəxşliliyi.

Səviyyə baxımından bank riskləri makrosəviyyəli, mikrosəviyyəli və fərdi risklərə bölünür.

Bank risklərinin idarə edilməsi dedikdə, qeyri-müəyyənlik fəaliyyət dövründə bank işçilərinin müsbət maliyyə nəticələrinin əldə edilməsinə imkan verən iş və tədbirlərin məcmusu başa düşülür.

Risklərin idarə edilməsi prosesinin təşkili baxımından aşağıdakı idarəetmə elementlərindən istifadə olunur:

- idarəetmə subyektləri;
- riskin identifikasiyası (risk zonasının müəyyən olunması);
- riskin səviyyəsinin qiymətləndirilməsi;
- riskin monitorinqi.

Bank sisteminin idarə edilməsi sisteminin bütün elementləri bankın işçi heyətinin iş üsulları, metodları və xüsusiyyətlərinin məcmusunu təşkil edir.

Risklərin idarə edilməsi qaydaları. Bankda risklərin idarə edilməsinin düzgün tətbiqini təmin etmək məqsədilə riayət olunmalı prosedurları tam və aydın müəyyən edən daxili qaydalardır. Bank təcrübəsində bankın mikrosəviyyəli risklərinə daha çox diqqət yetirilir. Bura daxildir: kredit riski, kənar risk, əməliyyat riski, faiz riski, likvidliyin itirilməsi riski və s.

4. İxtisaslaşmış maliyyə-kredit institutları. Dünya bank təcrübəsində banklar əsasən 2 qrupa bölünür: universal və ixtisaslaşmış banklara ayrılır. Universal banklar təsərrüfat sahələrindən, müştərilərin tərkibi, bankın passiv və aktivlərinin formalaşma xüsusiyyətlərindən, bankın xidmət regionundan asılı olmayaraq geniş miqyasda müxtəlif bank əməliyyatları və xidmətlərini yerinə yetirirlər.

İxtisaslaşmış banklar isə özünün əksər müştərilərinə bir neçə bank xidməti göstərməklə kifayətlənir. Banklar müəyyən kateqoriyalı müştərilərə və ya sahəyə xidmət üzrə də ixtisaslaşa bilər.

Dünya təcrübəsində əsasən banklar aşağıdakı əlamətlərə görə ixtisaslaşır:

1. Funksional ixtisaslaşma (investisiya, ipoteka, əmanət, klirinq);
2. Sahə üzrə ixtisaslaşma;
3. Müştəri üzrə ixtisaslaşma;
4. Ərazi üzrə ixtisaslaşma.

Bankların funksional göstəricilərinə görə ixtisaslaşması daha geniş yayılmışdır. Belə ki, ixtisaslaşma bankın fəaliyyət xarakterinə prinsipial təsir göstərməklə aktiv və passivlərin formalaşması xüsusiyyətlərini, balansın qurulmasını, eləcə də bankın müştəri ilə münasibətlərini müəyyənləşdirir.

Əmanət bankları əhaliyə müxtəlif xidmətlər göstərir:

- əmanətlərin qəbulu və verilməsi;
- kredit-hesablaşma xidməti;
- III şəxs əvəzinə zəmanət və digər öhdəliklərin verilməsi;
- fiziki və hüquqi şəxslərdən xarici valyutaların alınıb-satılması.

- əmanət bankları eyni zamanda passiv və aktiv əməliyyatları yerinə yetirir:
- xüsusi kapitalın yaradılması;
- əhalidən əmanətlərin qəbul edilib saxlanılması;
- hüquqi şəxslərdən depozitlərin qəbulu;
- dövlət qiymətli kağızlarının, depozit və əmanət sertifikatlarının satılması əmanət banklarının passiv əməliyyatlarıdır.

İnvestisiya bankları – investisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsini həyata keçirən kredit institutlarıdır.

İnvestisiya bankları səhmlərin emissiyası, səhmlərin, ticarət və sənaye kompaniyalarının istiqrazlarının bazarda yerləşdirilməsi funksiyasını yerinə yetirirlər. Digər banklar kimi bu banklar da aktiv və passiv əməliyyatları yerinə yetirir. İnvestisiya banklarının resursları əsasən bankların özlərinin qiymətli kağızlarının yerləşdirilməsi yolu ilə cəlb olunmuş vəsait hesabına formalaşır. Bu banklar kommersiya banklarından fərqli olaraq öz resurslarını qısa və orta müddətli depozitlər hesabına formalaşdıra bilmir. İnvestisiya bankları resurslarını yerləşdirilmiş qiymətli kağızların girovu əsasında kommersiya banklarından aldıqları kredit hesabına da formalaşdıra bilir. Əksər hallarda investisiya bankları bank holdinqlərinin tərkibində fəaliyyət göstərir və ya iri maliyyə kompaniyalarının törəmə cəmiyyətləri sifətilə çıxış edir.

İpoteka bankı daşınmaz əmlakın girovu üzrə kreditləşməyə ixtisaslaşan bankdır. İlkin qaydada ipoteka bankları dövlət bankı kimi fəaliyyət göstərmişdir. Bu bankların yaradılmasında məqsəd iri mülkədar təsərrüfatlarına maliyyə yardımı göstərmək idi.

İpoteka kreditləri sərfəli kredit formasıdır. Kredit və kreditə görə faizlər az məbləğlərlə cari gəlirlər hesabına ödənilir ki, bu da borc alan üçün sərfəli vəsait əldə etmə mənbəyidir.

Kreditlərin verilmə mənbəyi onların buraxdıqları borc öhdəlikləridir. Bankın borc öhdəlikləri onları alana faiz formasında möhkəm etibarlı gəlir gətirir. Buraxılan borc öhdəlikləri bank tərəfindən təqdim olunan zəmanətli ipoteka ilə təmin olunurlar.

Kreditin təhlükəsizliyi girov qoyulan obyektin qiyməti ilə müəyyən edildiyindən hər hansı bir torpaq sahəsi ipoteka bankının obyekti hesab edilməyə bilər.

İpoteka bankları kapital qoyuluşu ilə real kreditor arasında vasitəçi kimi çıxış edir. Girov kağızlarını (borc öhdəlikləri) alanların kapitalı bir obyektlə deyil, bankın bütün obyektlərinin məcmusu ilə təmin olunur. Bu təminat borca zəmanət verir. İpoteka banklarının xüsusi vəsaitlərinin payı digər kommersiya banklarında olduğundan yüksəkdir. İpoteka bankları bu və ya digər formalarda dövlət dəstəyi və dövlət zəmanətinə malik olur. Belə hal bankların özünün kreditlərinin və onların buraxdıqları girov kağızları sahiblərinin riskini xeyli aşağı salır.

İpoteka bankları öz fəaliyyətlərini girov hüququ əsasında həyata keçirir.

Movzu 15

Beynəlxalq valyuta-kredit münasibətlərinin əsasları

1. Valyuta sistemi və onun elementləri

2. Valyutaların konvertasiya qabiliyyəti

3. Valyuta məzənnəsi

4. Valyuta tənzimlənməsi

1. Valyuta sistemi və onun elementləri. Valyuta sistemi – valyuta münasibətlərinin təşkilinin hüquqi formasıdır və tarixən təsərrüfat münasibətlərinin beynəlmiləlləşməsi əsasında formalaşmışdır.

Beynəlxalq valyuta münasibətləri – valyutanın xarici iqtisadi dövriyyədə işlənməsi zamanı yaranan ictimai münasibətlərinin məcmusudur. Valyuta sistemi vasitəsilə iqtisadi resurslar bir ölkədən digərinə axır, istehsal və əməyin beynəlxalq bölgüsü üçün əlverişli şərait yaranır.

Valyuta sisteminin xarakterik cəhəti onun daim dəyişməsi, inkişafıdır. Bu dəyişikliklərin ən ümumi səbəbləri: dünya təsərrüfat münasibətlərinin dərinləşməsi, onun mexanizmlərinin mərhələlərlə dəyişməsi, valyuta münasibətlərinin növlərinin formalaşmasına təsir etmək üçün dövlətlərin iqtisadiyyata müdaxilələri sahəsində müxtəlif istiqamətli proseslər və s.

Milli, regional və dünya valyuta sistemləri fərqləndirilir.

Təsərrüfat münasibətlərinin beynəlmiləlləşməsi əsasında ilk əvvəl milli valyuta sistemi yaranır. Milli valyuta sistemi dedikdə, dövlətin digər dövlətlərlə beynəlxalq valyuta münasibətlərini təşkil etməsinin müəyyən qaydası nəzərdə tutulur. Dövlətin milli valyuta sistemi pul-kredit münasibətlərini əhatə edir və dövlətin xarici iqtisadi münasibətlərinə xidmət etməsi üçün valyutanın işlək olmasını təmin edir. Beynəlxalq valyuta sistemini aşağıdakı elementlər xarakterizə edir:

- Milli valyuta;
- Milli valyutanın konvertasiya edilmiş şərtləri, milli valyutanın valyuta pariteti rejimi – 2 valyuta arası münasibətlər, milli valyutanın məzənnə

rejimi, valyuta məhdudiyyətlərinin olub-olmaması, ölkənin beynəlxalq valyuta likvidliyinin milli tənzimi, beynəlxalq kredit dövriyyə vasitələrindən istifadənin tənzimi, ölkənin beynəlxalq hesablaşmalarının tənzimi, milli valyuta bazarının və qızıl bazarının rejimi, ölkənin valyuta münasibətlərini idarə edən və tənzimləyən milli orqanlar.

2. Valyutaların konvertasiya qabiliyyəti. Milli valyutanın konvertasiya qabiliyyəti – dövlətin müdaxiləsi olmadan onun xarici valyutaya və geriyə mübadilə edilməklə sərbəst çevrilməsidir. Milli valyutaların konvertasiya olunmasına keçməsi keçməsi özünəməxsus prosesdir. Bununçün müəyyən iqtisadi zəmin yaranmalıdır: idxal-ixrac əməliyyatları inkişaf etməli, rəsmi qızıl valyuta ehtiyatları formalaşmalı, inflyasiyanın qarşısı alınmalı, dövlət büdcəsinin kəsirləri azaldılmalı, ödəmə balansı azaldılmalı, ölkənin xarici borcu idarə olunmalı, ölkədəki sosial-iqtisadi vəziyyət stabil olmalıdır.

Konvertasiya qabiliyyəti xarici və daxili ola bilər. Xarici konvertasiya zamanı eyni dövlətin rezidentləri – hüquqi və fiziki şəxsləri – xarici ölkə valyuta sından istifadə edə bilməz, lakin ölkə daxilində pulla qeyri-rezidentə hesablaşma məqsədilə xarici valyutada pul köçürülə bilərlər. Bu xarici investorların aktivliyini stimullaşdırır, ölkənin valyuta məzənnəsinə və valyuta vəziyyətinə müsbət təsir edir.

Daxili konvertasiya rejimində ölkənin rezidentləri daxili valyutanı sərbəst şəkildə xarici valyutaya dəyişə bilərlər, lakin qeyri-rezidentlərin belə hüququ yoxdur.

Konvertasiya edilmə dərəcəsinə görə azad və məhdud konvertasiya edilən valyutalar fərqləndirirlər.

Sərbəst konvertasiya edilən valyuta – xarici valyutalara sərbəst və qeyri-məhdud konvertasiya edilən valyutadır. Sərbəst konvertasiya olunan valyutanın tətbiq dairəsi gündəlik xarici iqtisadi əməliyyatlarla əlaqədar cari əməliyyatlara və həmçinin xarici kreditlərin və ya xarici investisiyaların hərəkəti üzrə əməliyyatlara tətbiq olunur. Belə valyuta dünya valyutası rolunu oynayır, yəni ondan heç də həmişə beynəlxalq ödənişdə və əmtəələrin alınmasında, depozit toplanmasında

istifadə oluna bilməz. Belə qabiliyyətə müəyyən dərəcədə ehtiyat sərbəst dönərli valyutalar malikdir. Bunlar möhkəm maliyyə potensialına malik və güclü bank sistemi olan inkişaf etmiş ölkələrin valyutaları olur. Xarici ölkələrin mərkəzi bankları beynəlxalq hesablaşmalarda istifadə edilməkçün bu valyutalarda ehtiyatlar saxlayırlar.

Məhdud dönərli valyutalı ölkələrdə dövlət valyuta məhdudiyyətlərindən istifadə edir. Valyuta məhdudiyyətinin səbəbi ola bilər: xarici borclanmanın təsiri; ödəniş balansının mənfi saldosu; xarici valyuta qıtlığı, iqtisadiyyata digər mənfi təsirlər.

3. Valyuta məzənnəsi. Valyuta məzənnəsi müəyyən ölkənin pul vahidinin digər ölkənin pul vahidi ilə ölçülən qiymətidir; müxtəlif ölkələrin pul vahidlərinin qarşılıqlı münasibəti və onun alıcılıq qabiliyyətinin müəyyənləşdirilməsidir.

Valyuta məzənnəsi zəruridir:

- əmtəə və xidmətlərlə ticarət və kapital və kreditin hərəkəti zamanı valyutanın qarşılıqlı mübadiləsi;
- dünya və yerli bazarda qiymətlərin, müxtəlif ölkələrin milli və xarici valyutada göstərilən dəyər göstəricilərinin müqayisəsi;
- xarici valyutadan hesabların mütəmadi yenidən qiymətləndirilməsi.

Valyuta məzənnəsinə təsir edən amillərə daxildir:

1. İqtisadiyyatın vəziyyəti: pulun alıcılıq qabiliyyəti, inflyasiya səviyyəsi, müxtəlif ölkələrdəki uçot dərəcələri; ödəmə balansının vəziyyəti; valyuta bazarlarının vəziyyəti və spekulyativ valyuta əməliyyatları; milli valyutanın beynəlxalq hesablaşmalarda istifadə səviyyəsi; valyuta məzənnəsinin dövlət tənzimi.

2. Milli və dünya bazarlarında valyutaya inam səviyyəsi.

Xarici valyutanın vaxtaşırı milli valyutada qiymətləndirilməsi kotirovka adlanır. Tarixən kotirovkanın 2 növü fərqləndirilir: birbaşa və dolayı. Birbaşa kotirovka daha geniş yayılıb – bu zaman xarici valyutanın dəyəri milli valyutada göstərilir. Dolayı kotirovkada isə milli valyuta vahid kimi qəbul olunur və onun

dəyəri müəyyən sayda xarici valyutada göstərilir. Valyuta məzənnəsinin məğzi eyni olduğundan hansı metoddan istifadə fərq etmir.

Beynəlxalq valyuta münasibətləri praktikasında reallıqda fiksasiya və üzən məzənnələr mövcuddur.

Məzənnənin fiksasiyası – valyuta məzənnəsinin əsasında olan və dövlətin dəstəklədiyi qeydiyyata alınmış paritetlər olur. Dövlətlərarası razılaşmalar vasitəsilə edilir.

Üzən valyuta məzənnəsi 2 yerə bölünür:

1. Sərbəst üzən məzənnə - bazardakı tələb-təklifdən asılı olaraq üzən məzənnə;

2. Bazar tələb-təklifindən asılı olaraq dəyişir, amma zaman-zaman kəskin dəyişmələri tənzimləmək üçün mərkəzi bankın müdaxilələri olur.

4. Valyuta tənzimlənməsi. Valyuta siyasətinin əsas formaları: diskont siyasəti, deviz siyasəti, valyuta müdaxiləsi, valyuta ehtiyatlarının diversifikasiyası, valyutanın dönərliliyinin dərəcəsinin tənzimi, valyuta məzənnəsinin tənzimi, devalvasiya, revalvasıya.

Diskont siyasəti – Mərkəzi Bankın uçot dərəcəsi ilə manevr etməsi, hansı ki, kapitalın beynəlxalq hərəkətinə təsir yolu ilə valyuta məzənnəsinin və ödəmə balansının tənzimlənməsinə yönəlmişdir. Uçot dərəcəsinin artırılması daha az uçot dərəcəsi olan ölkələrdən kapital axınını stimullaşdıra bilər. Uçot dərəcəsinin azaldılması xarici kapitalın axınına səbəb ola bilər.

Deviz siyasəti - əsasən valyuta müdaxiləsi yolu ilə həyata keçirilir, yəni dövlət orqanı xarici valyutanın alqı-satqısı ilə məşğul olur.

Valyuta müdaxiləsi – milli valyutanın məzənnəsinə təsir etmək üçün Mərkəzi Bankın valyuta bazarındakı əməliyyatlara birbaşa müdaxiləsidir. Milli valyutanın məzənnəsini artırmaqçün Mərkəzi Bank xarici valyutanı milli valyuta müqabilində alır, azaltmaqçün isə satır. Mərkəzi Bank valyuta bazarında iştirak etməklə valyutaya tələb-təklifi tənzimləyir və valyuta məzənnəsində kəskin dəyişikliklərin qarşısını alır.

Valyuta ehtiyatlarının diversifikasiyası bu və ya digər valyutanın ehtiyat kimi saxlanması risklərini azaldır və valyuta ehtiyatlarının ən səmərəli strukturunu təmin edir. Valyuta tənzimlənməsinin digər tədbirlərinə daxildir: qızıl bazarı konyukturasına istənilən təmin edilməsi üçün qızıl alqı satqısı, valyuta dönərliliyi rejiminin dəyişdirilməsi, valyuta məhdudiyyətlərinin artırıb-azaldılması, beynəlxalq ödənişlərdə yaranan fərqi qapamaq üçün kredit verilməsi və ya alınması, dövlətlərin beynəlxalq ödəmələrin və valyuta əməliyyatlarının keçirilməsinin tənzimlənməsi.

Devalvasiya və revalvasiya – valyuta siyasətinin ənənəvi metodlarıdır. Devalvasiya – milli valyutanın məzənnəsinin xarici və ya beynəlxalq valyutaya nisbətən azaldılmasıdır. Bu, rəsmi məzənnənin bazar məzənnəsinə nisbətən yüksəldilməsi zamanı baş verir.

Revalvasiya – milli valyutanın dəyərinin xarici və ya beynəlxalq valyutaya nisbətən artırılmasıdır.

Movzu 16

Beynəlxalq valyuta-kredit və maliyyə təsisatları

1. Beynəlxalq hesablaşmalar

2. Beynəlxalq kredit

3. Beynəlxalq maliyyə və kredit institutları

1. Beynəlxalq hesablaşmalar. Beynəlxalq hesablaşmalar – dövlətlər və müxtəlif ölkələrin rezidentləri olan hüquqi və fiziki şəxslər arası pul tələb və öhdəlikləri üzrə ödəmələrin tənzimlənməsi sistemidir. Buna əmtəə idxal-ixracı üzrə hesablaşmalar, xidmətlər və qeyri-əmtəə əməliyyatları üzrə hesablaşmalar və s. daxildir.

Hazırda dünya təcrübəsində beynəlxalq hesablaşmaların formalarından istifadə olunur: akkreditiv, inkasso, bank köçürməsi, açıq hesab və avans.

Akkreditiv ödəmə - həm pul, həm də sənədli akkreditivdən istifadəni nəzərdə tutur. Pul akkreditivindən ödəmə almaqçün əlavə komissiya sənədləri təqdim etmək lazım deyil. Sənədli akkreditivdən istifadə zamanı isə akkreditivdə göstərilən sənədləri təqdim etmək lazımdır. Xarici ticarət əməliyyatları zamanı sənədli akkreditivlər istifadə olunur.

Sənədli akkreditiv – razılaşmadır. Ona əsasən emitent bank idxalçının göstərişləri əsasında ixracatçıya ödəniş etməyi öhdəsinə götürür. Bunun üçün akkreditivdə tələb olunan sənədlərin təqdim edilməsi və digər şərtlərə əməl edilməsi şərti ilə ya benefisiarın təqdim etdiyi vekseli aksept edir, ya da ödəyir.

Hesablaşmanın akkreditiv formasında tərəflər yalnız sənədlərlə üzləşirlər və buna görə də, xarici ticarət müqaviləsində akkreditivlə təqdim olunmalı sənədlərin tam siyahısı və təfərrüfatı göstərilməli və akkreditivin açılması təlimatında və akkreditivin özündə isə konkret hansı sənədlər qarşılığında ödəniş ediləcəyi dəqiq göstərilməlidir. Beynəlxalq təcrübədə müxtəlif akkreditivlərdən istifadə olunur.

<u>İnkasso</u> forma – sənədləşməsi asan olduğundan beynəlxalq hesablaşmalarda daha çox istifadə olunur. İnkasso elə bank əməliyyatıdır ki, bank ixracatçının tapğırığı ilə idxalçıdan onun ünvanına göndərilən malların və ya göstərilən xidmətlərin ödənişini qəbul edir və alınan vəsaiti ixracatçının hesabına yerləşdirir.

Akkreditivlə müqayisədə inkasso idxalçı üçün daha faydalı və ixracatçı üçün az faydalı variantdır. İxracatçı üçün vəsaitlərin ləng dövriyyəsi gedir və ödəniş təminatı yoxdur. Ödənişdən yayınma riskini azaltmaqçün ixracatçı inkasso növünə yalnız idxalçının tanıdığı, onun reputasiya və ödəniş qabiliyyəti barədə əmin olduğu halda razılaşmalıdır. Əks halda əlavə şərtlər tələb edə bilər: idxalçının ixracatçının xeyrinə bank təminatı verməsi və s.

Bu hesablama formasının üstünlüyü ixracatçı üçün odur ki, idxalçı malın pulunu vermədikcə onları ala bilməyəcək. Bu təminat onunla şərtlənir ki, əmtəəyə sərəncam vermə barədə sənədlər idxalçıya yalnız ödəniş edildikdən və ya köçürmə vekseli aksept edildikdən sonra verilir.

İnkasso ödənişinin idxalçı üçün üstünlüyü odur ki, həqiqətən çatdırılan mallara görə ödəniş edilir. Akkreditivdən fərqli olaraq, ilkin deponentləşdirmə üçün dövriyyədən vəsait çıxarılması üçün vəsait tələb etmir, yüklənən əmtəəyə mülkiyyət hüququ ödəniş edilənədək və ya veksel aksept edilənədək saxlanır.

Bank köçürməsi – sadəcə bir bankın digər banka benefisiara köçürmə edənin xahişi ilə müəyyən məbləğin ödənilməsi barədə tapşırığıdır.

Xarici ticarət hesablaşmalarında bank ödənişləri istifadə olunur: avans ödənişlərində, inkasso ödənişlərində, açıq hesabda borclanma üzrə, reklam üzrə tənzimləmə və digər əməliyyatlar.

Açıq hesab üzrə ödəmələr. Müasir şəraitdə dünyada xarici ticarət dövriyyəsində geniş yayılıb. Onlardan uzunmüddətli müntəzəm əmtəə çatdırılması üzrə istifadə olunur; bu zaman tərəflər uzun müddət əlaqə saxlayırlar. Bu həm də şirkətlə onun müxtəlif törəmə müəssisələri və filialları arasındakı hesablaşmalarda da istifadə olunur.

Avans formasında ödəniş beynəlxalq təcrübədə əsasən aşağıdakı hallarda işlənir: ödənməmə riski böyük olduqda; müqavilənin icrası müddətinin uzanması, strateji təyinatlı, bahalı və dünyada çatışmayan malların çatdırılması. Avans ödənişlərində idxalçı ixtiratçıya kredit vermiş sayılır.

Avans ödəniş heç nə ilə təmin edilmir və bu zaman idxalçının riskini azaltmaqçün bank təminatından istifadə olunur. İxracatçı malı vermək və ya

müqavilə şərtlərinə əməl etməzsə, belə təminat avansı qaytarmaqçün istifadə olunur. Belə təminat idxalçının xeyrinə və ixraçatçının tələbi ilə onun bankı tərəfindən avans məbləğində verilir.

Valyuta klirinqi . Xarici iqtisadi əlaqələr üzrə ödənişləri etmək üçün 2 və ya daha çox klirinq əsasında hesablaşmaları həyata keçirmək üzrə razılaşma imzalayırlar. Belə hesablaşmalara ehtiyac əsasən milli valyutaları dönərli olmayan, qızıl valyuta ehtiyatı məhdud olan ölkələrdə yaranır.

Valyuta klirinqi – beynəlxalq tələb və öhdəliklərin qarşılıqlı əvəzləşdirilməsidir və hökumətlərarası razılaşma ilə həyata keçirilir. Bu razılaşmalarla müəyyənləşdirilir: klirinq hesabları sistemi, klirinq hesablaşmalarının həcmi, tərəflərin razılaşdırdığı valyuta hesablaşması olan valyuta klirinqi; yol verilən borclanma saldosu, klirinq hesabının saldosunun tənzimlənməsi metodu; hökumətlər arası razılaşmanın müddəti bitdikdə yekun əvəzləşdirmə metodu ;

Qarşılıqlı tələblər və öhdəliklərin əvəzləşdirilməsini klirinq bankları həyata keçirə bilərlər. Valyuta qismində həmin banklar istənilən milli və ya kollektiv valyutadan istifadə edə bilər.

2. Beynəlxalq kredit. Beynəlxalq kredit – valyuta və əmtəə ehtiyatlarının ödənmə, müddətlilik, ödənişin təminatı, məqsədyönlülük, maddi təminat şərtləri ilə verilməsi ilə əlaqədar borc kapitalının beynəlxalq iqtisadi münasibətlərdə hərəkətidir.

Beynəlxalq kreditin müsbət cəhəti odur ki, təkrar istehsal prosesinin müntəzəmliyi və genişlənməsi yolu ilə istehsal qüvvələrinin inkişafı güclənir. Kredit ölkələrin xarici iqtisadi fəaliyyətini stimullaşdırır, xarici ticarətin səmərəliliyini artırır, xarici investisiya üçün əlverişli şərtlər yaradır, beynəlxalq hesablaşmaların və valyuta əməliyyatlarının fasiləsiz aparılmasını təmin edir, ölkələr arasında borc kapitalını yenidən bölür.

Beynəlxalq kreditin mənfi aspektləri: yenidən qeyri-mütənasib ictimai istehsal yarana bilər, kreditor ölkələrin dünya bazarındakı mövqeləri güclənir, həmin ölkələrin borclu ölkələrə siyasi və iqtisadi təsiri artır və s. Beynəlxalq kredit ölkələrin

aşağıdakılar üzrə rəqabətini kəskinləşdirir: xammal, kapital qoyma sahəsi, satış bazarı, elmi-texniki tərəqqidə üstünlük, borclu ölkələrdən gəliri cəlb etmək və s.

Beynəlxalq kreditlərin təsnifatı

1. Təyinatına görə: kommersiya və maliyyə kreditləri;
2. Növünə görə: əmtəə və valyuta krediti;
3. Kredit valyutası: Kreditorun valyutası;
   Borclunun valyutası;
   III ölkənin valyutası;
   Beynəlxalq kollektiv valyutalar.
4. Təminatına görə: Təminatlı
   Blank
5. Verilmə texnikasına görə: nağd, nağdsız, konsorsial, aksept, digər
6. Kreditorun mövqeyinə görə: özəl, bank, hökumət,
   Beynəlxalq Təşkilat, qarışıq
7. Müddətinə görə: qısa, orta və uzun müddətli

Kommersiya krediti birbaşa xarici ticarət və xidmətlə bağlıdır. Bu, əsasən əmtəə kreditidir və bir ölkənin idxalçısına əmtəə əməliyyatları üzrə hesablaşmalarda möhlət kimi verilir.

Maliyyə krediti – istənilən məqsəd üçün, o cümlədən: kapital qoyuluşu, obyektlərə sərmayə, qiymətli kağızların əldə edilməsi, xarici borcun bağlanması. Təminat baxımdan təminatlı və blank kreditləri fərqləndirilir. Beynəlxalq kreditlərin təminatı mal, qiymətli kağızlar, daşınmaz əmlak, kommersiya əmtəə kağızları və s. ola bilər. Blank kreditdə sadəcə borclu krediti müəyyən müddətə qaytarmağa təminat verir.

Hökumətlərarası kreditlər müxtəlif ölkələr arasındakı ödənişləri balanslaşdırmaq, dövriyyəni artırmaq, borclarının iqtisadiyyatını qurmaq və s. istifadə oluna bilər.

Beynəlxalq bank krediti ölkələrarası beynəlxalq iqtisadi münasibətlər genişləndikcə daha çox təşəkkül tapır. Müddəti 1 ilədək olan kreditlər qısamüddətli, orta müddətli 1-5 ilədək, uzunmüddətli 5-7 və daha çox il olan kreditlərdir.

3. Beynəlxalq maliyyə və kredit institutları. Beynəlxalq maliyyə-kredit institutlarına daxildir: Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Hesablaşmalar Bankı, Asiya İnkişaf Bankı, Afrika İnkişaf Bankı, Amerika regional İnkişaf Bankları.

BVF. Bu orqan 1944-cü ildən Bretton-Vudsda (ABŞ) keçirilən beynəlxalq valyuta-maliyyə konfransında təsis olunmuşdu. 1946-cı ilin iyulunda BVF fəaliyyətə başlayanda 39 üzvü vardı, indi 183 üzvü var. BVF BMT-nin ixtisaslaşmış təşkilatıdır və fəaliyyətinin əsas məqsədləri bunlardır: beynəlxalq valyuta əməkdaşlığına, dünya valyuta sisteminin və valyuta məzənnələrinin sabitliyinə yardım, dünya ticarətinin balanslı inkişafına səmərəli şərait yaratmaq, BVF üzv – dövlətləri arasında cari əməliyyatlar üzrə çoxtərəfli hesablaşma sisteminin yaradılmasına yardım, beynəlxalq ticarətə mane olan halların aradan qaldırılması, xarici ticarət və hesablaşmalarda məhdudiyyət tətbiq etməmək şərtilə ödəniş balansını yaxşılaşdırmaq üçün üzvlərinə müvəqqəti maliyyə yardımı edilməsi, üzv-dövlətlər arasında ödəniş balansının kəsirinin ardıcıllığını və miqyasını azaltmağa yardım etmək.

Dünya bankı BMT-nin ixtisaslaşmış təşkilatıdır və fəaliyyəti yoxsulluğun azaldılması, həyat səviyyəsinin artırılmasına yönəldilib, həmçinin inkişaf etməkdə olan və keçid dövrünü yaşayan ölkələrin iqtisadiyyatının sabit inkişafına yardım etmək məqsədi daşıyır. Dünya Bankı ölkələrə digər mənbələrdən yardım almağın çətin olduğu sahələrdə maliyyə yardımı edir. Xüsusilə də, kənd təsərrüfatının inkişafı, ətraf mühitin mühafizəsi, təhsil və səhiyyənin inkişafı, elektrik enerjisi istehsalının artırılması, rabitə xətlərinin artırılması və s. sahələrdə maliyyə yardımı edir.

BYİB Səhmdar cəmiyyət kimi təşkil olunub və nizamnamə kapitalı üzv dövlətlərin verdiyi payla formalaşır. Amma Bank istifadə etdiyi əsas vəsaitləri istiqrazlar buraxmaq və yerləşdirməklə beynəlxalq borc bazarındakı borclar vasitəsilə cəlb edir. BYİB bazar faizləri ilə olan borcları qaytarmaq bacarığı olmayan inkişaf etməkdə olan ölkələrə borc verir. O, hökumətlərə, hökumət təşkilatlarına və özəl müəssisələrə borc verir. Adətən borcu 12-20 il müddətinə verir.

AYİB 1940-cı ildə 40 ölkə və Avropa İqtisadi Birliyi və Avropa Sərmayə Bankı tərəfindən yaradılmışdır. Onun fəaliyyətinin məqsədləri Mərkəzi və Şərqi Avropa ölkələrində bazar iqtisadiyyatının yaradılmasını və çoxpartiyalı, pluralist və bazar iqtisadiyyatı prinsiplərini dəstəkləyən ölkələrdəki özəl sahibkarlığı dəstəkləməkdir. Bu məqsədləri həyata keçirməkçün AYİB üzv ölkələrini aşağıdakı məsələlərdə dəstəkləyir: stuktur və iqtisadiyyatın sahə islahatlarının keçirilməsində, özəlləşdirmənin həyata keçirilməsində, milli kapitalın səfərbər edilməsində və xarici sərmayənin cəlb edilməsində, həyat şəraitinin yaxşılaşdırılmasında, kapital bazarının inkişafını stimullaşdırmaqda və s.

Asiya, Amerika və Afrikanın Regional İnkişaf Bankı. Bu banklar müstəmləkə sisteminin tənəzzülündən sonra 1960-cı ildə təsis olunub. Onların yaradılması səbəbləri inkişaf etməkdə olan ölkələrin müstəqillik əldə etməsi ilə onun rolunun dəyişməsi və milli və regional inkişaf məsələlərində kollektiv qərarların verilməsinə ehtiyac idi.